khazar-view.com



KHAZAR VIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 300




ISSN 2218 - 2772

AYLIQ DƏRGİ





MƏZUNLUQ MƏRASİMİ 31



# MƏZUNLUQ
















# MƏRASİMİ

Oktyabrın 2-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Opera studiyasında Xəzər Universitetinin növbəti 31-ci məzunluq mərasimi keçirildi. Aparıcılar – İqtisadiyyat və menecment fakültəsinin tələbələri Ümidə Kamallı və Ozal Əliyev mərasimi aşıq elan edəndən sonra Azərbaycanın Dövlət Himni səsləndi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə müsahibə əsasında hazırlanmış, universitetin keçdiyi yola və bu gününə həsr olunmuş sənədli film nümayiş etdirildi. Universitetin rektoru professor Con Rayder çıxış edərək, məzunlara universitet kollektivinin təbriklərini çatdırdı, onlara uğurlar arzuladı. *(ardı səh. 11-də)*
















# TƏLƏBƏLƏRİN TANIŞLIQ GÖRÜŞÜ

**Sentyabrın 23-də Xəzər Universitetinin Təhsil fakültəsində 1-ci il tələbələri ilə yuxarı kurs tələbələrinin tanışlıq görüşü keçirildi. Fakültənin dekanı, fəlsəfə doktoru Elza Səmədli çıxış edərək, 1-ci il tələbələrini salamladı, onları tələbə adı qazanmaları münasibətilə təbrik etdi. Xəzər Universitetini seçib, "Xəzər Ailəsinə" qoşulduqları və gələcəklərini bu ali təhsil ocağına etibar etdiklərinə görə onlara təşəkkürünü bildirdi.**

**Universitetin rektoru professor Con Rayder, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Tarix departamentinin müdiri dosent Roza Arazova, İngilis dili departamentinin müəllimi Firəngiz Nəsirova, Riyaziyyat departamentinin müəllimi, fəlsəfə doktoru Nigar Aslanova və İncəsənət departamentinin müdiri Zülfiyyə Sadıqova tədbirdə iştirak edərək, birinci il tələbələrini təbrik etdilər, onlara uğurlar arzuladılar.**

**Çay süfrəsi ətrafında toplaşan tələbələr arasında müxtəlif maraqlı müsabiqələr keçirildi və qaliblər mükafatlandırıldı.**

**Fakültə dekanı bu tədbirin Təhsil fakültəsində ənənəvi olaraq hər il keçirilməsini planlaşdırdıqlarını bildirdi.**

# "ELM VƏ SƏNƏT MƏCLİSİ"NİN NÖVBƏTİ MƏŞĞƏLƏSİ



Sentyabrın 28-də Xəzər Universitetinin ənənəvi "Elm və Sənət Məclisi"nin növbəti məşğələsi keçirildi. Məşğələni giriş sözü ilə universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, 49-cu məşğələnin mühüm bir məsələyə - İslam və Qərb siyasi düşüncələrinə həsr edildiyini və məruzə üçün İngiltərənin məşhur islam tarixçisi professor Antoni Blekin (Antonu Black) dəvət olunduğunu bildirdi. A. Blek geniş məruzə ilə çıxış etdi. Məruzə ətrafında müzakirələrdə Hamlet İsaxanlı, Con Rayder (Xəzər Universiteti), Şirməmməd Hüseynov (Bakı Dövlət Universiteti), Süleyman Əliyarlı (Bakı Dövlət Universiteti), Solmaz Rüstəmova-Tohidi (AMEA-nın Şərqşünaslıq İnstitutu), Nəriman Qasımzadə (müstəqil ekspert), Azad Qəribov (Xəzər Universiteti) çıxış etdilər. Sonda məruzəçi ilə xatirə şəkilləri çəkildi.



# NEW STAFF OF KHAZAR UNIVERSİTY

In the 30th of September Khazar University held a reception devoted to the newly appointed staff members. Dr.Hamlet Isaxanli introduced Dr.Farda Asadov, Vice President for International Affairs; Dr.Siyavush Azakov, Dean of the School of Engineering and Applied Sciences; and Dr.Antony Black, visiting professor. Then Dr.John Ryder introduced Dr.Richard Rousseau, Head of the Political Science Department, and Mrs. Maia Mukhuradze, Assistant to the Vice President for International Affairs. Dr. Eldar Shahgaldiyev introduced Donna Raef, Fullbright English Language Teacher, and at the end Mrs. Raziya Isayeva, Development Director, introduced Dr. Vefali Ansarov, staff member of the Department of Journalism.

After brief presentations of all the new staff members' backgrounds, the Khazar University team welcomed them and wished them success in their endeavors.

# ERCİYES /UNİVERSİTETİNİN
## NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ



Oktyabrın 6-da Türkiyənin Erciyes Universitetinin rektoru professor Fahrettin Keleştimur və xanımı, universitetin Baş katibinin müavini professor Fikret Kara, Rus dili və ədəbiyyatı departamentinin müdiri professor Sevinc Üçgül Xəzər Universitetində oldular. Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qonaqları səmimi qarşılayaraq, onlara universitetin yaranması haqqında, bu günə kimi görülən işlərdən danışdı və gələcək planları barədə geniş məlumat verdi.

Professor F. Keleştimur qarşılıqlı əməkdaşlıq məsələlərini önə çəkərək, bütün sahələrdə mübadilə aparmağa hazır olduqlarını bildirdi. Universitetlər arasında Anlaşma Protokolu imzalandı. F. Keleştimur H. İsaxanlıya hədiyyə təqdim etdi. H. İsaxanlı da qonağa Xəzər Universitetinin hədiyyəsini və şəxsi kitablarını verdi. Görüşdə İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və Təhsil fakültəsinin dekanı Elza Səmədli iştirak etdilər. Sonda qonaqlarla xatirə şəkli çəkildi.

# MEETİNG WİTH SCHLUMBERGER GENERAL MANAGER

In the 29th of September Schlumberger General Manager for Azerbaijan Mr. Rob Algie visited Khazar University. He met with Professor Hamlet Isaxanli, Founder and Chairman of Board of Directors and Trustees; with Dr. John Ryder, President; Dr. Siyavush Azakov, Dean of School of Engineering and Applied Sciences; and with Mrs. Raziya Isayeva, Development Director. Mr. Algie presented information about general functions of Schlumberger and its activities in Azerbaijan. During the discussions in various offices, several possible collaboration initiatives between Khazar and Schlumberger surfaced. These initiatives will enable students to benefit from internships, tours and job opportunities at Schlumberger.





Oktyabrın 3-də Xəzər Universitetinin rektoru professor Con Rayderin anadan olmasının 60 illiyi münasibətilə yubiley şənliyi keçirildi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı yubilyarı təbrik edərək, əmək fəaliyyətində və şəxsi həyatında ona uğurlar arzuladı. İnzibati şöbənin müdir müavini Nanə Kələntərli, İngilis dili departamentinin müəllimi Firəngiz Nəsirova, Magistratura, doktorantura və elmi işlər üzrə prorektor müavini Eldar Şahgeldiyev də rektoru təbrik etdilər. Yubilyara gül çələngi, hədiyyələr təqdim olundu, xatirə şəkilləri çəkildi.

Universitetin musiqi və incəsənət departamentinin müdiri Zülfiyyə Sadıqovanın pianoda müşayiəti ilə tələbə Elvin Əliyevin ifasında mahnılar səsləndi. Sonda Con Rayder çıxış edərək, yubileyinin təşkil olunduğuna və ünvanına söylənilən xoş sözlərə və səmimi arzulara görə universitet rəhbərliyinə və əməkdaşlara təşəkkürünü bildirdi.

# "XƏZƏR"DƏ YUBİLEY ŞƏNLİKLƏRİ





Oktyabrın 6-da Kitabxana və informasiya mərkəzinin müdiri Tatyana Zaytsevanın anadan olmasının 60 illiyi münasibətilə yubiley şənliyi keçirildi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı yubilyarı təbrik edərək, onun gərgin əməyi, öz işinin professionalı olması sayəsində universitet kitabxanasının dünya reytinq cədvəllərində yer aldığını, nəinki regionda, hətta Orta Asiya miqyasında da yeganə belə kitabxana olduğunu söylədi. Çıxışının sonunda yubilyara əmək fəaliyyətində və şəxsi həyatında yeni-yeni uğurlar arzuladı. Digər çıxış edənlər – universitetin rektoru Con Rayder, prorektorlar Məhəmməd Nuriyev, Rafiq Əhmədov və başqaları da T. Zaytsevanın işgüzarlığından, mənəvi keyfiyyətlərindən söz açdılar, ona yeni müvəffəqiyyətlər arzuladılar.

T. Zaytseva yubiley şənliyinin təşkili və ünvanına söylənilən xoş sözlərə görə universitet rəhbərliyinə və digər çıxış edənlərə, iştirakçılara minnətdarlığını bildirdi. Şənlik iştirakçıları musiqi dinləyib, rəqs etdilər və xatirə şəkilləri çəkdirdilər.

# MİLLƏT VƏKİLİ İLƏ GÖRÜŞ






Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə sentyabrın 29-da universitetdə "İrəli" Gənclər İctimai Birliyinin sədri, millət vəkili, Milli Məclisin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsinin üzvü Ceyhun Osmanlı ilə tələbələrin görüşü keçirildi. Tədbiri giriş sözü ilə açan Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev qonağı salamladı, həyat və fəaliyyəti haqqında qısa məlumat verdi.

Millət vəkili dəvət üçün təşəkkürünü bildirdi və Xəzər Universitetinin tələbələri qarşısında çıxış etməyi "böyük məsuliyyət" adlandırdı. "İrəli" Gənclər İctimai Birliyində, millət vəkili seçildiyi Sabirabad rayonunda aparılan işlər və dünya siyasətində Azərbaycanın rolu haqqında məlumat verən Ceyhun Osmanlı sonda tələbələrin çoxsaylı suallarını cavablandırdı.

Tədbirdən sonra o, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü və gələcək əməkdaşlıqla bağlı bir çox məsələlər müzakirə olundu.

# bp BP ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ



Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı oktyabrın 11-də BP şirkətinin "Təhsil inkişaf komandası"nın üzvlərini: BP-nin Azərbaycan-Gürcüstan-Türkiyə regionu üzrə Davamlı İnkişaf Təşəbbüsü (DİT) meneceri İbrahim İsmayılovu, Don Şoltzu, Karen Merrini, Con Fordu, Skot Brunonu və Bob Blondini qəbul etdi. Tədbirdə universitetin rektoru professor Con Rayder, prorektor Məhəmməd Nuriyev, Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Siyavuş Azakov, Kimya departamentinin müdiri Ziyafəddin Əsədov, Neft mühəndisliyi departamentinin müdiri Qəşəm Zeynalov və İnkişaf direktoru Raziyə İsayeva iştirak edirdilər. Görüşdə Xəzər Universitetinin təhsil sistemi, BP ilə universitet arasında keçmiş və gələcək birgə əməkdaşlıq və layihələr haqqında ümumi müzakirələr aparıldı.

# BTM - İN QLOBAL GÖRÜŞÜ



Oktyabrın 17-də Xəzər Universitetində Avrasiya Bilik Mərkəzinin təşkilatçılığı ilə Beynəlxalq Treninq Mərkəzinin qlobal görüşü keçirildi. Görüşü universitetin İqtisadiyyat və menecment fakültəsinin dekanı professor İnqilab Əhmədov açdı. Universitetin rektoru professor Con Rayder ABŞ, Böyük Britaniya, Kamerun, Qana, İndoneziya və Peru-dan gələn qonaqları səmimi salamlayaraq, Xəzər Universiteti haqqımda məlumat verdi. Proqramın təşkilatçısı Sunetta Kaimal ölkəmiz, universitetimiz haqqında xoş sözlər söylədi.

MÜSTƏQİL AZƏRBAYCAN 20

# "XƏZƏR"DƏ BAYRAM TƏDBİRLƏRİ



Oktyabrın 17-də Xəzər Universitetinin Mərkəzi kampusunda yerləşən İqtisadiyyat və menecment fakültəsində ilk dərs Azərbaycanın Dövlət Müstəqilliyinin 20-ci ildönümünə həsr olundu. Tələbələr əldə olunmuş müstəqilliyi qoruyub saxlamaq və sonrakı nəsillərə ötürmək, vətənin layiqli övladı olmaq üçün səylə çalışıb kamil mütəxəssis kimi yetişmək, Azərbaycanın adını həmişə və hər yerdə uca tutmaq əzmlərini ifadə etdilər. Sonra tələbələr Ulu Öndər Heydər Əliyevin Fəxri Xiyabanda məzarını, şəhərdəki abidəsini və Şəhidlər Xiyabanında müstəqillik uğrunda həyatlarını qurban vermiş mübarizlərin məzarlarını ziyarət etdilər.





Oktyabrın 18-də Xəzər Universitetinin konfrans zalında tələbələrin və professor-müəllim heyətinin iştirakı ilə Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 20 illiyinə həsr olunmuş tədbir keçirildi. Tədbir Vətənin müstəqilliyi uğrunda canından keçmiş şəhidlərin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Sonra Azərbaycanın müstəqil olana qədər keçdiyi yolu, Qarabağ müharibəsində xalqımızın məruz qaldığı məhrumiyyətləri və nəhayət 20 illik müstəqillik ərzində qazanılmış uğurları əks etdirən videolentlər nümayiş etdirildi. Tariximizi dərindən öyrənmək məqsədilə tələbələr arasında qısa bir yarışma da keçirildi.

Tədbirdə İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Tədris işləri üzrə prorektor Rafiq Əhmədov, Təhsil fakültəsinin dekanı Elza Səmədli və professor Füzuli Bayat çıxış edərək, müstəqillik illərində təhsil sahəsində əldə edilmiş uğurlardan, qarşıda duran vəzifələrdən danışdılar.





# İÇİNDƏKİLƏR


- Universitet xəbərləri 3
- *Vüsalə Məmmədova.* "Xəzər"i seçənlərin ürək sözləri 18
- *İsaxan İsaxanlı.* Good bye "by exam" 22
- *Rövşən Abbasov.* Amerika bənzərsiz bir ölkədir... 27
- *Hamlet İsaxanlı.* Keçmişin fəlsəfəsi və ya tarix necə yazılır? 30
- *Улькер Исаева.* Ночная прогулка по Лондонскому метро 36
- *Əsədulla Qurbanov.* İslam kontekstində İran-Azərbaycan münasibətlərində yeni mərhələ 40
- *Лейла Джамильзаде.* Частичка Азербайджана в Москве 42
- *İhsan Əbdül Qüddüs.* Telefon kifayət deyilmiş... 45
- Nobel mükafatı laureatları - 2011 46
- *Can Yücel.* Şeirlər 49
- Mədəniyyət 50
- *Луиз Феннер.* Вспоминая путешествия Колумба 53
- *Vaqif Məmmədov.* Sədinin, Hafizin vətəni Şiraz... 54
- Dünya
- *Parviz Nasirov.* ESU- Weill Cornell Masterclasss in Urology 60
- *Yelena Starostina.* İqtisadi inkişafda təhsilin rolu 63
- Təbabət 67
- Mozaika 68
- İdman 76
- "Dünya" məktəbi 74



Xəzər Xəbər

1995-ci ilin yanvarından çıxır

Təsisçi:
**XƏZƏR UNİVERSİTƏSİ**

Baş redaktor:
**Hamlet İSAXANLI**

Baş redaktor müavini:
**Əlirza BALAYEV**

Redaksiya heyəti:
**Camal MUSTAFAYEV**
**Tofiq ABASQULIYEV**
**Cəmil HƏSƏNLİ**
**Nizami CƏFƏROV**
**Əfqan ABDULLAYEV**

Rəssam:
**Mir Rafiq ƏBDÜLRƏHİMOV**

Kompüter tərtibatçısı:
**Yəmən HAŞIMOVA**

Foto:
**MEDİA MƏRKƏZİ**

*Ünvanımız:*
*Bakı, Məhsəti küçəsi 11,*
*("Neftçilər" metrosunun yanı)*
*Faks: 498-93-79*
*Telefon: 421-79-16*
*421-10-93*
*E-mail: xazarxabar@khazar.org*
*Şəhadətnamə: 376*
*İndeks: 67178*
*Sifariş: 190*
*Tiraj: 3000*




It has been publishing since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Jamil HASANLI
Nizami JAFAROV
Afgan ABDULLAYEV

Design by:
Mir Rafig ABDULRAHIMOV

Computer graphics:
Yemen HASHIMOVA

Photo:
MEDIA CENTRE

*Address:*
*11 Mahsati str., Baku,*
*(near the "Neftchilar" metro)*
*Fax: 498-93-79*
*Phone: 421-79-16*
*421-10-93*
*E-mail: xazarxabar@khazar.org*

*Certificate: 376*
*Index: 67178*
*Order: 190*
*Copies: 3000*

*"Xəzər Xəbər"ə təbrik*

# "XƏZƏR XƏBƏR" JURNALININ BAŞ REDAKTORU PROFESSOR HAMLET İSAXANLIYA

**Hörmətli cənab baş redaktor!**

Kütləvi informasiya vasitələri tipologiyasında jurnallar əvəzedilməz yeri və rolu olan mətbu vasitələr sayılır. Lakin mediamızın bitib-tükənməyən qayğılarına, spesifik yaşantılarına gərgin axtarışlarla dolu həyatında duruş gətirmək, eyni zamanda cəmiyyətdə özünü təsdiqləmək heç də hər jurnala nəsib olmur. "Xəzər Xəbər" isə çoxlarından fərqlənməklə üzərinə düşən missiyanı uğurla yerinə yetirməkdədir. Bunu şərtləndirən amillər göz önündədir.

Əvvəla, "Xəzər Xəbər" ölkənin ali məktəblərində buraxılan dərgilər arasında yeganə elmi-kütləvi və ədəbi-publisistik jurnaldır. Lakin məxsusi çalara mövzu zənginliyinin, janr rəngarəngliyinin, dərin fikir və ifadələr palitrasının cinahdaşlığı onun dəyər sərhədlərini universitet çərçivəsindən çıxararaq ictimailəşdirib. Bax, buna nail olmaq jurnalistikada hünərdir.

İkincisi, "Xəzər Xəbər"in maarifləndirici funksiyası da bir ali məktəb hüdudları ilə məhdudlaşmır. Azərbaycan, türk, ingilis, rus dillərində olan materiallarda tələbə həyatı, təhsil yenilikləri, elm, sənət, ədəbiyyat, mədəniyyət, turizm, idman və digər sahələrə aid məsələlər işıqlandırılır. Ayda bir dəfə 2000-3000 tirajla buraxılan nəşrin sayları xaricdəki oxuculara Azərbaycan həqiqətləri barədə bilgilər verir. Bunun nə dərəcədə vacibliyinin dərki üçün müstəqil dövlətimizin hər bir vətəndaşının, hər bir qurumunun qarşısında duran ən ümdə vəzifələrə nəzər salmaq kifayətdir.

Üçüncüsü, "Xəzər Xəbər" mətbu mühitimizə 17 il əvvəl qədəm qoyub. Özünü təsdiqinin başlıca meyarlarından biri də jurnalistika məktəbi kimi formalaşmasıdır.



Jurnalın əməkdaşları sözün, sənətin qədr-qiymətini bilən, yaradıcılıq məsuliyyətini əməli fəaliyyətində nümayiş etdirən istedadlı qələm sahibləridir. Nəşrlə mütəmadi əlaqə saxlayan müəlliflərin isə əksəriyyəti beynəlxalq aləmdə kifayət qədər tanınan insanlardır.

**Hörmətli cənab professor!**

"Xəzər Xəbər"in oxucuları ilə 300-cü görüşü son dərəcə əlamətdar bir dövrə təsadüf edir. Xalqımız Azərbaycanın milli müstəqilliyinin bərpasının 20 illik yubileyinə hazırlaşır. Jurnal və onun yaradıcı kollektivi də azadlıq mücadiləmizin şah əsəri olan dövlət suverenliyimizin təməl ideyalarına xidmətdə daim sədaqət nümunəsi göstərib. Bu, ardıcıl və dönməz yolda "Xəzər Xəbər"in neçə-neçə sevincli anlar yaşayacağı şəksizdir. Sizə yeni-yeni nailiyyətlər diləyirik.

**Səmimi hörmətlə,**
**Əflatun Amaşov,**
***Azərbaycan Mətbuat Şurasının sədri***

# MƏZUNLUQ MƏRASİMİ

*(əvvəli səh. 3-də)*



Valideynlər adından "A+A" firmasının prezidenti Rauf Əliyev çıxış edərək, yüksək ixtisaslı kadrlar yetişdirmək üçün sərf etdikləri böyük əməyə görə universitetin rəhbərliyi və professor-müəllim heyətinə təşəkkürünü bildirdi.

Aparıcılar bu dəfəki buraxılışda universiteti 215 bakalavr və 16 magistrin bitirdiyi, o cümlədən 47 nəfərin fərqlənmə, 8 nəfərin isə yüksək fərqlənmə diplomuna layiq görüldüyü haqqında məlumat verdilər və məzunları diplom almaq üçün səhnəyə dəvət etdilər. Diplomlar rektor Con Rayder, prorektorlar Məhəmməd Nuriyev və Rafiq Əhmədov, fakültə dekanları və professor-müəllim heyətinin nümayəndələri tərəfindən təqdim olundu.

Əlaçı məzunlara diplomları professor Hamlet İsaxanlı təqdim etdi və çıxışında bütün məzunlara müstəqil həyat yollarında müvəffəqiyyətlər arzuladı. Məzunlar adından ona gül çələngi təqdim olundu. Xatirə şəkilləri çəkildi. Bununla da Xəzər Universitetinin daha bir məzunluq mərasimi başa çatdı.

# UNİVERSİTET XƏBƏRLƏRİ

## TƏLƏBƏLƏRİMİZ "ŞÖHRƏT MUZEYİ"NDƏ

Xəzər Universiteti Peşə inkişaf mərkəzinin və Xəzər Universiteti Tələbə Məclisinin təşkilatçılığı ilə universitetin bir qrup tələbəsi oktyabrın 6-da Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev adına Akademiyasının "Şöhrət muzeyi"ndə oldu. Muzeyin rəhbəri tələbələrə Ulu Öndərin çoxşaxəli fəaliyyəti haqqında danışdı, tələbələri maraqlandıran suallara cavab verdi.

## YAPONİYADAN XƏZƏR UNİVERSİTETİNƏ HƏDİYYƏ

Yaponiyanın Nippon Fondunun (Nippon Foundation) sədri Yohi Sasakava (Yohei Sasakawa) oktyabrın 7-də Xəzər Universitetinin Kitabxana və İnformasiya Mərkəzinin direktoru Tatyana Zaytsevaya məktub göndərərək məlumat vermişdir ki, "Müasir Yaponiyanı anlamaq üçün 100 kitab" layihəsi çərçivəsində Xəzər Universitetinin kitabxanasına Yaponiya haqqında yüz ədəd kitabın hədiyyə verilməsi qərara alınmışdır. İngilis dilində olan kitablar siyasət, beynəlxalq münasibətlər, iqtisadiyyat, biznes, cəmiyyət, mədəniyyət, ədəbiyyat, incəsənət və tarix kimi müxtəlif sahələri əhatə edir.

## "YURD" TELEVİZİYASININ "ƏXLAQ VƏ CƏMİYYƏT" VERİLİŞİNDƏ

Oktyabrın 8-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, professor Rafiq Əliyev və rejissor Mehriban Ələkbərzadə "Yurd" televiziyasının "Əxlaq və cəmiyyət" mövzusunda verilişində iştirak etdilər. Professor Hamlet İsaxanlı məsələnin tarixi, fəlsəfi, siyasi və hüquqi tərəfləri barədə söhbət açdı və fikirlərini söylədi.

## MƏZUNLARLA GÖRÜŞ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və İnkişaf direktoru Raziyə İsayeva oktyabrın 8-də Xəzər Universitetinin mərkəzi kampusunda məzunlarla görüşdülər.

## YENİ TELEFİLMƏ BAXIŞ

Oktyabrın 8-də Azərbaycan Televiziyasında (AzTV) M. F. Axundzadənin "Mürafiə vəkillərinin hekayəti" komediyası əsasında çəkilmiş telefilmə (rejissor Ramiz Həsənoğlu) baxış keçirildi. Müzakirədə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da çıxış etdi. O, filmi təhlil etdi, güclü tərəfləri ilə yanaşı bəzi nöqsanların olduğunu da söylədi.

## "CƏNUBİ AZƏRBAYCAN ƏDƏBİYYATININ PROBLEMLƏRİ" MÖVZUSUNDA MÜZAKİRƏ

Oktyabrın 10-da Azərbaycan Yazıçılar Birliyinin "Natavan" klubunda "Cənubi Azərbaycan ədəbiyyatının problemləri" mövzusunda müzakirə keçirildi. Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, əsas məsələlərə münasibətini bildirdi, şəxsi təcrübəsi və Xəzər Universitetində bu sahədə görülən işlər haqqında danışdı.

## "DÜNYA" MƏKTƏBİNDƏ İCLAS

Oktyabrın 12-də "Dünya" məktəbində direktor Mərufə Mədətlinin yanında ədəbiyyat və riyaziyyat müəllimlərinin iclası keçirildi. İclasda ayrı-ayrı siniflərdə şagirdlərin dərsə hazırlığı ilə bağlı məsələlər müzakirə edildi. Köməyə ehtiyacı olan şagirdlər üçün əlavə məşğələlər təyin olundu. İclasda fəal şagirdlərin düzgün istiqamətləndirilməsi sahəsində də tədbirlər müəyyənləşdirildi.

*"Xəzər Xəbər"ə təbrik*

# "XƏZƏR"İN "XƏZƏR-XƏBƏR"İ

Azərbaycan ali təhsil sistemində uzun dövr ərzində universitet qəzetlərinin çap edilməsi ənənəsi mövcud olmuşdur və indi də həmin ənənə yeni aspektdə ara-sıra əsasən davam etdirilməkdədir. Burası da sirr deyil ki, XX əsr boyu ali məktəb qəzetləri universitet dünyasını əks etdirməkdən çox tələbə-gənclik arasında keçmiş sovet cəmiyyətinin ideologiyasını təbliğ etməkvəzifəsini həyata keçirmişdir. Doğrudur, müstəqillik ərəfəsində universitetlərin çoxtirajlı qəzetləri milli azadlıq hərəkatı dalğasının genişlənməsinə də əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Bununla belə, böyük imkanlara, rəngarəng elmi-mədəni və maarifçi mühitə malik olan ali məktəb dünyası ilə müqayisədə universitet qəzetlərinin imkanları məhduddur. Buna görə də, müstəqillik dövründə, az da olsa, bəzi ali məktəblər universitet qəzetləri ilə yanaşı, həm də Qərb təcrübəsinə uyğun olaraq informasiya bülletenləri formatında jurnallar nəşr etməyə başlamışlar. Naxçıvan Dövlət Universiteti də həmin prosesi yaşamışdır. Belə ki, universitetdə müstəqilliyin əvvəllərindən nəşr edilən «Fikir» qəzetini az sonra «Fikir» adlı informasiya bülleteni əvəz etmişdir. Lakin universitetdə jurnalistika üzrə bakalavr və magistratura təhsilinin olduğu nəzərə alınaraq 2011-ci ildən etibarən «Fikir» informasiya bülleteni ilə yanaşı «Yeni fikir» adlı ali məktəb qəzetinin nəşrinə baş-lanmışdır.

Ali məktəb həyatı ilə bağlı olan bu prosesdə Xəzər Universitetinin özünəməxsus rolu və xidmətlərinin olduğu etiraf edilməlidir. Ölkəmizin ali təhsil mühitində müstəqillik dövrünün ərsəyə gətirdiyi yeni hadisələrdən biri olan Xəzər Universiteti, bir çox istiqamətlərdə olduğu kimi, informasiya jurnalı nəşr etmək baxımından da Qərbyönlü modeli əsas götürməklə xəbərlər bülleteninin çap olunmasını təmin etmişdir. Beləliklə, universitet 1995-ci ildən «Xəzər Xəbər» adlı informasiya jurnalını da nəşr edərək, doğma kollektivə və geniş ictimaiyyətə çatdırmaqdadır. Bu, müstəqillik dövründə Azərbaycan ali məktəb sistemində meydana çıxmış birinci universitet informasiya jurnalıdır. «Xəzər Xəbər» jurnalında əsas etibarilə Xəzər Universitetinin, eyni zamanda dünyanın və ölkəmizin digər ali məktəblərinin, elmi qurumlarının həyatından soraq verən xəbərlərin öz əksini tapması bu jurnal vasitəsilə geniş mənada qlobal məkanda universitet dünyasının gedişatından, yeniləşmə proseslərindən xəbər tutmağa imkan yaradır. «Xəzər Xəbər» jurnalının xəbərləri ali təhsil sahəsində ölkə təcrübəsi ilə dünyada baş verən prosesləri birlikdə, vəhdətdə öyrənməyə meydan açır. Həm də türk, ingilis və rus dillərində materiallar dərc edən «Xəzər Xəbər» Azərbaycan ali təhsilinin



uğurlarını dünyaya çatdıran universitet jurnalı kimi də böyük iş görür, ümummilli vəzifələri məsuliyyətlə yerinə yetirir. Bu, Azərbaycanın dünya ali məktəb məkanında çıxan «Xəzər Xəbər»dir. Bu, beynəlxalq aləmdə səslənmək imkanlarına malik olan «Xəzər»in xəbəridir. «Xəzər Xəbər» Xəzər Universitetinin xəzinəsidir.

Müşahidəm göstərir ki, «Xəzər Xəbər» jurnalı ali məktəbin informasiya bülleteni ilə çoxtirajlı qəzetlərinin funksiyasını birlikdə, vəhdətdə həyata keçirir. Fəaliyyəti dövründə informasiya tutumlu materiallarla yanaşı analitik yazıları, publisistika nümunələrini, hətta bədii düşüncənin məhsulu olan kiçik həcmli ədəbi əsərləri də təqdim etməsi «Xəzər Xəbər»in formatını genişləndirmək zərurətini meydana çıxarmışdır. Fikrimcə, «Xəzər Xəbər» informasiya ağırlıqlı analitik jurnaldır, ədəbi-publisistik xarakterli ali məktəb toplusudur. Bununla belə, jurnaldakı elmi-kütləvi və ədəbi-publisistik yazıların mütləq əksəriyyətinin hamısında informasiya notu hiss olunmaqdadır. Beləliklə, «Xəzər Xəbər» informasiya tutumlu, çoxçeşidli yazıların xəbər jurnalı qismində təqdim edilən çələngidir. «Xəzər Xəbər»də mavi Xəzəri də olan Azərbaycanın ali məktəblərinin nəbzi döyünür. «Xəzər-Xəbər» Azərbaycan "Xəzər"inin – Xəzər Universitetinin adını və beləliklə, Azərbaycan ali məktəbini, universitet düşüncəsini dünya universitet məkanına daşıyır.

İnanıram ki, «Xəzər Xəbər» milli ali təhsilin üfüqlərinin genişlənməsi yollarında böyük inkişafın və yeniləşmənin etibarlı bələdçisi olmaq vəzifəsini bundan sonra da uğurla həyata keçirəcəkdir.

«Xəzər Xəbər»in 300-cü sayının xəbəri mübarək olsun! «Xəzər-Xəbər»dən həmişə işıqlı, düşündürücü, hərəkətverici, əməkdaşlığa və inkişafa çağıran xəbərlər gözləyirik.

**İsa Həbibbəyli**

*Naxçıvan Dövlət Universitetinin rektoru,*

*Milli Məclisin deputatı,akademik*

*27 sentyabr 2011-ci il*

*"Xəzər Xəbər"ə təbrik*

# "XƏZƏR XƏBƏR" JURNALININ BAŞ REDAKTORU HAMLET İSAXANLIYA



"Xəzər Xəbər" jurnalının 300-cü nömrəsinin nəşri müasir mətbuatımızın inkişafında gerçəkdən əlamətdar hadisədir. Bu sevindirici tarix münasibətilə Sizi, jurnalın bütün əməkdaşlarını qəlbən alqışlayır, təbrik edirəm. Belə bir xoş gündə "Xəzər Xəbər"lə bağlı ürək sözlərimi oxucuya bildirmək istəyirəm.

Mən bu jurnalın yarandığı gündən fəal oxucularından olmuşam. Onun müəlliflərindən, redaksiya heyətinin üzvlərindən biri kimi, səmərəli fəaliyyəti ilə yaxından maraqlanmışam. "Xəzər Xəbər" əsasən oxucunun intellektinə, mənəvi tələbinə ünvanlanıb. Onun səhifələrində xüsusən elmin, sənətin, fəlsəfənin fərqli mövzularından yazılar idraki dəyər daşıyır. Buna görə jurnal idrak əhlinin həqiqi etibarını qazanır.

"Xəzər Xəbər"də elmlə poeziya hər zaman yanaşı gedir. Rasional fikirlə poetik zövq əslində bir-birini tamamlayır. Baş redaktorun özünün poeziya, fəlsəfə sahəsində davamlı fəal yaradıcılığı jurnalı məzmunca zənginləşdirir.

Təbriknamənin sonunda "Xəzər Xəbər"i həmişə vaxtında nəşrə hazırlayan gözəl jurnalistlərə təşəkkür edirəm. Bu cəhətdən baş redaktor müavini, hörmətli jurnalistimiz Əlirza Balayevin zəhmətini yüksək qiymətləndirirəm.

Bizim Xəzər Universitetinin zəhmətkeş nəşriyyat və mətbəə işçilərinə minnətdarlıq bildirirəm.

*Səmimi salamlar, xoş arzularla*
**Camal Mustafayev**

## "DÜNYA" MƏKTƏBİNDƏ BAYRAM TƏDBİRİ

Oktyabrın 18-də "Dünya" məktəbində Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş tədbir keçirildi. Tədbirdə məktəbin tarix müəllimi Arif İbrahimov müstəqillik gününün tarixi və keçən 20 il ərzində əldə olunan nailiyyətlər haqqında məlumat verdi.

## ABŞ SƏFİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Xəzər Universitetinin rektoru professor Con Rayder (John Ryder) və İnkişaf direktoru Raziyə İsayeva oktyabrın 19-da ABŞ səfirliyinin Azərbaycanda mədəniyyət işləri üzrə direktoru Kristofer A. Cons (Christopher A. Jones ) və Təhsil üzrə mütəxəssisi Sədaqət Davudova ilə görüşdülər. Con Rayder qonaqlara yaxın gələcəkdə Xəzər Universitetində həyata keçiriləcək mədəni tədbirlər haqqında məlumat verdi. Sonra Xəzər Universitetinin inkişaf planı müzakirə olundu. ABŞ səfirliyinin nümayəndələri inkişaf planını bəyəndilər, inkişaf məsələləri üzrə nəzərdə tutulanlara necə nail olmaq haqqında məsləhətlər verdilər. Onlar həmçinin öz yeni Təhsil Mərkəzləri haqqında məlumat verdilər və ABŞ-da təhsil haqqında daha geniş məlumat əldə etmək üçün tələbələrin həmin mərkəzə gəlmələrini tövsiyə etdilər.

## XƏZƏR UNİVERSİTETİNİN RƏHBƏRLİYİ NİDERLAND SƏFİRLİYİNDƏ

Xəzər Universitetinin rektoru professor Con Rayder (John Ryder) və İnkişaf direktoru Raziyə İsayeva oktyabrın 19-da Niderland Krallığının Azərbaycandakı səfirliyində səfir Aryen Uyterlinde ile görüşdülər. Görüş zamanı Xəzər Universitetinin Niderland universitetləri ilə gələcək əməkdaşlığı haqqında fikir mübadiləsi aparıldı. Xəzər Universitetinin inkişaf planı da müzakirə olundu. Səfir "Xəzər"in nümayəndələrinə bu sahədə dəyərli məsləhətlər verdi.

# XƏZƏR UNİVERSİTETİNİN AKKREDİTASİYASI BARƏDƏ MÜSBƏT QƏRAR QƏBUL EDİLDİ

Oktyabrın 17-də Təhsil Nazirliyində Akkreditasiya Şurasının növbəti iclasında Xəzər Universitetinin akkreditasiyasının nəticələri müzakirə olundu. İclası giriş sözü ilə açan təhsil naziri Misir Mərdanov ölkəmizdə fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin akkreditasiyası istiqamətində həyata keçirilən tədbirlərdən söz açaraq, bu işin təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət etdiyini vurğuladı.

Xəzər Universiteti üzrə Akkreditasiya Komissiyasının sədri, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xarici dillər kafedrasının müdiri Gülçöhrə Alıyeva geniş və ətraflı təqdimat-məruzə ilə çıxış etdi. Universitetin fəaliyyətinin normativ-hüquqi təminatı, tabeliyindəki strukturlar barədə danışdı. Universitetin professor-müəllim heyəti, tədris planının strukturu, təhsil proqramlarının tələbləri, elmi-tədqiqat mərkəzləri və bu ali məktəbin məzunlarının təhsillərini xaricdə davam etdirməsindən bəhs edən G.Alıyeva Xəzər Universitetinin dünya universitetlərinin beynəlxalq reytinq cədvəlində yer tutduğunu da diqqətə çatdırdı. Komissiya sədri universitetin maddi-texniki bazası, maliyyə təminatı və sonuncu kurs tələbələrinin biliyinin yoxlanılması məqsədilə keçirilmiş test sorğusunun nəticələri haqqında məlumat verdi.

Sonra universitet barədə iştirakçıları maraqlandıran suallar cavablandırıldı, konkret rəy və təkliflər səsləndi.

Təhsil naziri Misir Mərdanov Xəzər Universitetində aparılmış araşdırma ilə bağlı fikirlərini bildirdi, öz tövsiyə və tapşırıqlarını verdi. Universitetin fəaliyyəti haqqında danışaraq qazandığı uğurları, yeniliklərin tətbiqi istiqamətində atdığı addımları diqqətə çatdırdı.

Sonda Akkreditasiya Şurası Xəzər Universitetinin akkreditasiyası barədə müsbət qərar qəbul etdi. "Xəzər"in timsalında ilk dəfə özəl ali məktəbin akkreditasiyası "yaxşı" qiymətə layiq görüldü.

İclasda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin prorektoru professor Məhəmməd Nuriyev iştirak edirdilər.

# bakcell ŞİRKƏTİNİN HƏDİYYƏ AKSİYASI

Xəzər Universiteti Peşə inkişaf mərkəzinin və Azərbaycan Tələbə Gənclər Təşkliatları İttifaqının (ATGTİ) təşkilatçılığı ilə oktyabrın 21-24-də universitetdə BAKCELL şirkətinin nömrə paylama aksiyası keçirildi. Yalnız şəxsiyyət vəsiqəsinin surətini təqdim etməklə tələbələrimiz pulsuz olaraq mobil nömrələr əldə etdilər. Gələcəkdə digər şirkətlərlə də müxtəlif istiqamətlərdə belə layihələrin həyata keçirilməsi gözlənilir.

# UNİVERSİTETİN TƏLƏBƏSİ İLƏ GÖRÜŞ

Oktyabrın 21-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Moskvada "Gənclərin elmi-texniki yaradıcılığı – biliklərə əsaslanan cəmiyyət" mövzusunda keçirilmiş III Beynəlxalq elmi - praktiki konfransda iştirak etmiş Xəzər Universiteti Mühəndislik və tətbiqi elmlər fakültəsinin 3-cü kurs tələbəsi Rəhimə Məmmədova ilə görüşdü. Rəhimə Məmmədova konfransda Xəzər Universitetini "Korroziya inhibitorlarının biosid aktivliyinin təyin olunması üçün yeni metod" layihəsi ilə təmsil edib. Professor Hamlet İsaxanlı onu "Rusiya və xaricdə biologiya, tibb və əczaçılıq innovativ texnologiyaları" bölməsində "ən yaxşı layihə işi"nə görə "Qızıl medal" və birinci dərəcəli diploma layiq görüldüyü üçün təbrik etdi və ona yeni uğurlar arzuladı.

# ATGTİ-NİN TƏQDİMATI

Oktyabrın 24-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə ATGTİ-nin (Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqı) təqdimatı keçirildi. ATGTİ-nin Tələbə gənclər təşkilatları ilə iş departamentinin rəhbəri Şəmsi Gülverdi və Beynəlxalq əlaqələr departamentinin nümayəndəsi Toğrul Məmmədli tələbələrə təşkilatın yaranma tarixi, məqsədi və həyata keçirdiyi layihələr, beynəlxalq proqramlarda Azərbaycan tələbələrinin iştirakı haqqında ətraflı məlumat verdilər. Sonra tələbələrin sualları cavablandırıldı.

# POLŞA SƏFİRİ NDU-DA



Polşanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Mixal Labenda sentyabr ayının 29-da Naxçıvan Muxtar Respublikasına rəsmi səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində də olmuşdur. Universitetin rektoru, akademik İsa Həbibbəyli diplomatı qəbul edərək ali məktəbin strukturu, maddi-texniki və tədris bazası, professor-müəllim heyəti haqqında ətraflı məlumat vermişdir. Universitetin çoxcəhətli beynəlxalq əlaqələrinə toxunan rektor dunyanın 4 qitəsindəki 50 unversitet, habelə bir çox beynəlxalq qurum və təşkilatlarla tərəfdaşlıqdan, bu ali məktəbdə dünyanın 10 ölkəsindən 200-ə yaxın tələbənin təhsil almasından bəhs etmişdir. İkitərəfli əməkdaşlıq məsələləri müzakirə olunmuş, Naxçıvan Dövlət Universitetinin Varşavadakı İqdisad Universiteti ilə gələcək tərəfdaşlığı, Polşada azərbaycanşunaslığın öyrənilməsində NDU-da çalışan alim-pedaqoqların da iştirakı barədə razılığa gəlinmişdir. Səfir Azərbaycan-Polşa diplomatik münasibətlərindən, ortaq siyasi maraqlardan, elm, təhsil sahəsindəki gələcək əlaqələrdən söhbət açmışdır.

Sonra müəllim və tələbələrlə görüş keçirilmişdir.

Səfir M. Labenda çıxış edərək Polşanın tarixi, coğrafi mövqeyi, dövlətçilik tarixi, təhsil sistemi haqqında tədbir iştirakçılarına məlumat vermiş, müəllim və tələbələrin suallarını cavablandırmışdır.

# LÜTFİ ZADƏ ADINA FƏXRİ TƏQAÜD TƏSİS EDİLMİŞDİR



*Ağamalı Kamran*

Naxçıvan Dövlət Universiteti Elmi Şurasının 14 sentyabr 2011-ci il tarixli qərarı ilə yeni tədris ilindən dünya şöhrətli alim, soydaşımız Lütfi Zadə adına fəxri təqaüd təsis olunmuşdur.

Xatırladaq ki, Kaliforniya Berkli Universitetinin professoru, Bakıda anadan olmuş Lütfi Zadə XX əsrin dünyaya bəxş etdiyi nəhəng simalardan biri, qeyri-cəlis məntiq nəzəriyyəsinin yaradıcısı, görkəmli elm xadimidir.

Təqaüdün təsis olunmasında məqsəd tələbə gənclərin dəqiq elmlərə marağını daha da artırmaq, elmi-tədqiqatçılıq fəaliyyətlərini yüksəltmək, bütün dünyada məşhur olan, Azərbaycan xalqının fəxri, 90 yaşlı böyük alim Lütfi Zadənin həyatını, elmi nailiyyətlərini öyrənmək və yaşatmaqdır.



*Əliyev Nurəddin*

Lütfi Zadə adına fəxri təqaüdə layiq görülmək üçün müvafiq olaraq mühəndislik və memarlıq, fizika-riyaziyyat fakültələrindən tələbələrin seçilməsi nəzərdə tutulmuşdur. Bu təqaüdə ilk layiq görülənlər İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi üzrə II kurs tələbəsi Əliyev Nurəddin Fərman oğlu, riyaziyyat və informasiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Ağamalı Kamran Səbzəli oğlu olmuşdur. Təqaüd təyin olunarkən həmin tələbələrin təhsil aldıqları bir il ərzində elmdə, təhsildə, yeni texnologiyaların mənimsənilməsində, Tələbə Elmi Cəmiyyətinin xətti ilə aparılan elmi-tədqiqat işlərində xüsusi fərqlənmələri nəzərə alınmışdır.

# "TƏLƏBƏ QƏBULUNDA REKORD NƏTİCƏ" - YƏ ƏLAVƏ

**Hörmətli redaksiya!**

Jurnalın keçən sayında (№ 299, səh.16) mənim "Tələbə qəbulunda rekord nəticə" adlı yazım dərc olunmuşdur. Həmin yazının sonunda özəl ali məktəblərə tələbə qəbulunun TQDK tərəfindən aparıldığı 17 il ərzində Xəzər Universitetinə ayrılan qəbul planı, qəbul olunanların sayı, qəbul olunan oğlan və qızların sayı, qəbul imtahanlarında 300-ə qədər, 300-400, 400-500, 500-600, 600-700 aralığında bal toplayanların sayını əks etdirən statistik rəqəmlər cədvəli təqdim edilmişdir.

Bununla bağlı bir məqamı qeyd etmək istəyirəm. Həmin cədvəldə göstərilən rəqəmlər uyğun illərdə yalnız TQDK-nın xətti ilə qəbul olunmuş tələbələrin sayını göstərir. Amma məlumdur ki, 1995-1996-cı tədris ilindən başlayaraq 2004-2005-ci tədris ilinə qədər özəl ali məktəblərə tələbə qəbulu həm TQDK, həm də ali məktəbin özü tərəfindən aparılırdı. Həmin illərdə TQDK tərəfindən qəbul olunmuş tələbələrdən başqa, ali məktəbin özü tərəfindən də xeyli sayda tələbə qəbul edilmişdir. Odur ki, cədvəldə göstərilən rəqəmlər qəbulun ümumi sayı haqqında səhv fikir formalaşdıra bilər. Bunu nəzərə alaraq, müxtəlif illərdə ali məktəbin özü tərəfindən qəbul edilmiş tələbələrin sayını da əlavə etməklə cədvəli yeniləşdirdik. Xahiş edirəm bu məlumatı jurnalın növbəti sayında dərc edəsiniz.

| Tədris ili | Qəbül planı | Ali məktəbin özü tərəfindən qəbul edilənlərin sayı | TQDK yolü ilə qəbül olanla-rın sayı | oğlan-ların sayı | qızların sayı | 300-ə qədər bal topla-yanlar | 300-400 aralığında bal topla-yanlar | 400-500 aralığında bal topla-yanlar | 500-600 aralığında bal topla-yanlar | 600-700 aralığında bal topla-yanlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 2011-2012 | 495 | 0 | 431 | 202 | 229 | 213 | 169 | 32 | 9 | 8 |
| 2010-2011 | 495 | 0 | 301 | 159 | 142 | 128 | 105 | 44 | 20 | 4 |
| 2009-2010 | 495 | 0 | 218 | 110 | 108 | 148 | 58 | 4 | 4 | 4 |
| 2008-2009 | 295 | 0 | 281 | 156 | 125 | 61 | 171 | 37 | 9 | 3 |
| 2007-2008 | 295 | 0 | 277 | 152 | 125 | 79 | 145 | 44 | 7 | 2 |
| 2006-2007 | 305 | 0 | 258 | 142 | 116 | 87 | 124 | 35 | 10 | 2 |
| 2005-2006 | 445 | 0 | 427 | 225 | 202 | 167 | 214 | 33 | 7 | 6 |
| 2004-2005 | 395 | 0 | 184 | 114 | 70 | 118 | 51 | 9 | 4 | 2 |
| 2003-2004 | 265 | 55 | 79 | 82 | 52 | 70 | 8 | 1 | 0 | 0 |
| 2002-2003 | 300 | 25 | 9 | 14 | 20 | 6 | 1 | 0 | 0 | 2 |
| 2001-2002 | 245 | 47 | 60 | 53 | 54 | 29 | 25 | 5 | 1 | 0 |
| 2000-2001 | 375 | 157 | 96 | 141 | 112 | 71 | 25 | 0 | 0 | 0 |
| 1999-2000 | 360 | 77 | 168 | 121 | 124 | 144 | 20 | 1 | 3 | 0 |
| 1998-1999 | 495 | 23 | 197 | 125 | 95 | 186 | 9 | 0 | 2 | 0 |
| 1997-1998 | 340 | 44 | 48 | 39 | 53 | 44 | 4 | 0 | 0 | 0 |
| 1996-1997 | 395 | 58 | 15 | 41 | 32 | 14 | 1 | 0 | 0 | 0 |
| 1995-1996 | 395 | 93 | 54 | 95 | 52 | 41 | 12 | 1 | 0 | 0 |
| 1994-1995 | 0 | 316 | 0 | 147 | 169 | 0 | 0 | 0 | 0 | 0 |
| 1993-1994 | 0 | 287 | 0 | 143 | 144 | 0 | 0 | 0 | 0 | 0 |
| 1992-1993 | 0 | 158 | 0 | 92 | 66 | 0 | 0 | 0 | 0 | 0 |
| **Cəmi** | **6390** | **1340** | **3103** | **2353** | **2090** | **1606** | **1142** | **246** | **76** | **33** |

Qeyd 1: Qəbul imtahanlarında 300-ə qədər, 300-400, 400-500, 500-600, 600-700 aralığında bal toplayanların sayı yalnız TQDK tərəfindən qəbul olanlara aiddir.
Qeyd 2: 1995-1996-cı tədris ilinə qədər özəl ali məktəblərə tələbə qəbulu yalnız ali məktəblərin özləri tərəfindən aparılmışdır.
Qeyd 3: Qəbul edilmiş əcnəbi tələbələrin sayı cədvələ daxil edilməmişdir.

**İsaxan İsaxanlı,**
*Qəbul və tələbə`şöbəsinin müdiri*

# "XƏZƏR"İ SEÇƏNLƏRİN ÜRƏK SÖZLƏRİ

*Yüksək bal toplayaraq Xəzər Universitetinə qəbul olunan tələbələrin sayı getdikcə artır. Hər il olduğu kimi, bu il də 600 - dən çox bal toplamış 6 tələbə ilə müsahibəmiz oldu və onlardan çox maraqlı cavablar aldım. Nəzərinizə çatdırım ki, bu tələbələrdən 1 nəfər 100 faiz, 2 nəfər isə 75 faiz illik ödənişdən azad olunmuşdur. Əlbəttə, ilk tələbəlik günlərini yaşadıqlarına görə sevincək və həyəcanlı idilər...*

## SUALLAR

**1. Özünüz haqda məlumat verin...**
**2.Xəzər Universitetinin tələbəsi adını qazandığınızı biləndə, nə hisslər keçirdiniz?**
**3. "Xəzər" haqda əvvəl məlumatınız olub?**
**4. Xəzər Universitetini seçərkən kimlərlə məsləhətləşmisiniz? Necə oldu ki, buranı seçməyə qərar verdiniz?**
**5. Universitet haqqında ilk təəssuratınız necədir?**
**6.Tələbəlik həyatını necə təsəvvür edirsiniz?**
**7. Birincilərdən olmaq üçün nə etmək lazımdır?**
**8. Sonda abituriyentlərə məsləhətiniz və yeni qəbul olunanlara deyəcəyiniz varsa, buyurun.**

## CAVABLAR



*Əhmədova Afaq (Audit)*

1.Mən, Afaq Əhmədova, 1993-cü ildə Bakı şəhərində anadan olmuşam. 2000-ci ildə 207 nömrəli məktəbə getmişəm və 2011-ci ildə həmin məktəbi fərqlənmə ilə bitirmişəm. Məktəbin içtimai həyatında fəal iştirak edirdim, bütün 11 il ərzində sinif nümayəndəsi olmuşam və müxtəlif olimpiadalarda da özümü sınamışdım.

2. Xəzər Universitetinin tələbəsi olmaq mənim çoxdankı arzum idi. Hələ 8 -9-cu siniflərdə oxuyarkən gələcəkdə hansı sənətə yiyələnmək, ali təhsili harada almaq barədə ilkin olaraq düşünməyə başlayanda, mən artıq Xəzər Universitetində oxumaq istəyirdim. Əlbəttə ki, bu universitetin tələbəsi oldugumu biləndə, sevincimin həddi-hüdudu yox idi. Sözün açığı, göz yaşlarımı saxlaya bilmirdim.

3. Mən bu universitet haqqında KİV-dən, internetdən, orada təhsil almış tanışlarımdan kifayət qədər məlumat almışdım. Bir neçə dəfə universitetin rektoru Hamlet İsaxanlının televiziya kanalları ilə təhsil, mədəniyyət, ədəbiyyat və s. mövzularda çıxışlarını izləmişəm və bu da mənim seçimimin düzgün olduğunu bir daha təsdiq etdi. Mən fikirləşdim ki, belə bir insan pis universitet yarada bilməz.

4. Mən bu haqda əvvəlki suala cavabımda qismən cavab verdim. Əlbəttə ki, valideyinlərimlə bu barədə məsləhətləşmişəm. Onlar da mənim seçimimi həmişə dəstəkləyiblər, ona görə seçim zamanı heç bir çətinlik olmadı. Qeyd etmək istəyirəm ki, TQDK-da ixtisas seçimini edərkən, mən Xəzər Universitetindən başqa heç bir digər universitetin adını qeyd etməmişdim. Mən ancaq "Xəzər"də

oxumaq istəyirdim.

5. İlk dəfə Xəzər Universitetində mən sənədləri ora təqdim edərkən oldum və fikir verdim ki, burada təhsil almaq üçün lazımi şərait yaradılıb. Sentyabr ayının 15-də isə universitetin həyatında keçirilən mərasimdə mən gördüm ki, burada hamı çox təbii və mehribandır.

6. İstərdim ki, mənim tələbəlik həyatım çox mənalı, rəngarəng və xoş hadisələrlə zəngin olsun. Mənə elə gəlir ki, "Xəzər"də oxuduğum dövrdə bütün bunlar həyata keçəcək.

7. Birinci olmaq həmişə çətindir. Bunun üçün hər bir insan çox əziyyət çəkməli, özü üzərində daim işləməli və bilik qazanmaq üçün bütün imkanlardan maksimum istifadə etməlidir.

8. Məsləhətim odur ki, yaxşı oxusunlar, təhsilə ciddi yanaşsınlar və özlərinə inansınlar. Uğur qazanmağın başqa yolu yoxdur.

***



Fərzullayev Qələmirzə
(Kompüter mühəndisliyi)

1. Mən, Fərzullayev Qələmirzə Sərraf oğlu, 1994-cü il yanvarın 1-də Lənkəranda anadan olmuşam. 2011- ci ildə Lənkəran özəl türk liseyini bitirib, "Xəzər"ə qəbul olunmuşam.

2. Təbii ki, çox sevindim.

3. Düzünü desəm, çox da yox. Təkcə "Xəzər"in hər il olimpiada keçirdiyini bilirdim. İxtisas seçimi vaxtı daha çox məlumat topladım.

4. Liseydəki müəllimlərlə, dost - tanışla. "Xəzər"i bitirən tanışlar çox idi, onlar məsləhət gördülər.

5. Çox gözəl!

6. Müxtəlif cür. Belə... tam demək olmur. Gərək yaşayıb görəsən.

7. Çox çalışmaq lazımdır.

8.Məsləhətim odur ki, çox yox, səmərəli oxusunlar. Əsas kəmiyyət deyil, keyfiyyətdir.

***



Abdullayev Murad
(Maliyyə)

1. Mən, Abdullayev Murad Müştağım oğlu, 22.02.1994 təvəllüdlüyəm. N. Rzayev adına 169 nömrəli orta məktəbi "əla" qiymətlərlə bitirmişəm. Xəzər Universitetində maliyyə ixtisası üzrə təhsilimi davam etdirirəm.

2. Əmin idim ki, Xəzər Universitetinin tələbəsi olacağam, həm balımın yüksək olduğuna görə, həm də ilk sırada "Xəzər"i yazdığım üçün. Əlbəttə ki, sevindim.

3. Hardasa 2 il bundan əvvəl artıq "Xəzər" haqqında qabaqcıl universitetlərdən biri kimi məlumatım var idi. Diplomunun tanınması, keyfiyyətli təhsil verməsi məni cəlb edən cəhətlər oldu.

4. Özüm qərar vermişdim, valideynlərim də təsdiqlədilər. Qərb təhsilinə ölkəmizdə ən yaxın universitet olduğu, xaricdə təhsil almaq imkanı yaratdığı üçün bu qərarı verdim.

5. İlk təəssürat çox əla oldu. Universiteti gördüm, uşaqlarla tanış oldum, maraqlı söhbətlər etdik. Ən çox dərs sistemini, fənlərin saatlarının bölüşdürülməsini bəyəndim. Tələbə üçün oxumağa ən ideal şərait yaradıldığının şahidi oldum.

6. Tələbəlik həyatını məktəb həyatından daha sərbəst, lakin daha çətin və məsuliyyətli hesab edirəm.

7. Çox çalışmaq lazımdır.

8. Abituriyentlərə məsləhətim odur ki, özləri müəyyən bir dövr ərzində universitetlərlə maraqlansınlar və özləri qərar versinlər. Və əlbəttə, çox oxusunlar ki, seçdikləri universitetə daxil ola bilsinlər.



Hacıyev Valeh
(Kompüter mühəndisliyi)

1. Mən, Hacıyev Valeh 1993-cü ildə anadan olmuşam. Texnologiyaya, daha sonra proqramlaşdırmaya da olan marağımın nəticəsidir ki, hal-hazırda Xəzər Universitetində kompüter mühəndisliyi üzrə təhsil alıram.

2. Hər bir abituriyentin istədiyi ixtisas üzrə tələbə adını qazandıqda keçirdiyi sevinc hisslərini...

3. Təbii ki, çünki "Xəzər" mənim təhsil alacağım ixtisas üzrə Azərbaycanda ən qabaqcıl ali təhsil ocaqlarından biridir.

4. Xəzər Universitetinin xarici universitetlərlə bilavasitə əlaqədə olması öncədən diqqətimi çəkmişdi. Daha sonra ixtisasım üzrə bu sahədə bəlli yerini tutmuş və sözünü demiş mütəxəssislərlə məsləhətlər nəticəsində fikrimi bir qədər də dəqiqləşdirib, Xəzər Universitetini seçdim.

5. Gözlədiyim kimi. Çox gözəl!

6. Yeni kəşf və axtarışlar yolunda olan maraqlı həyat tərzi kimi.

7. Birincilərdən olmağı ürəkdən istəmək və bunun uğrunda əzmlə çalışmaq lazımdır.

8. Abituriyentlərə məsləhətim odur ki, hədəflərinin bəlli istiqamətini təyin edib, bütün diqqətlərini məqsədlərinə yönləndirsinlər. Yeni qəbul olunanlara isə tələbəlik həyatında uğurlar arzulayıram!

***



Hüseynli Hüseyn
(Beynəlxalq münasibətlər)

1.Mən, Hüseynli Hüseyn Tapdıq oğlu 01.09.1994 - cü il təvəllüdlüyəm.

2. Sevindim və həyatımda ilk məqsədimə çatdığımı düşündüm.

3. Bəli. Tanışlardan, dostlardan və qohumlardan, demək olarki, hər bir universitetdə təhsil alan var. Onları müqayisə etdikdə, fərqi açıq - aşkar gördük və seçimimizi etdik.

4. Elə həmin insanlarla məsləhətləşmişəm.

5. Yaxşı başladıq, inşallah axırı yaxşı olar.

6. Hələlik bir sirdir, onsuz da 4 il adımız tələbə olacaq, sonra bilərik.

7. Dəqiq bilmirəm, amma məncə, insanın qisməti olmalıdır.

8. Dərslərinə TQDK səviyyəsinə görə hazırlaşsınlar...

***



Mustafayev Nəriman
(Neft mühəndisliyi)

1. Mən, Mustafayev Nəriman Şahin oğlu 1994 cü idə Baki şəhərində anadan olmuşam. 2000 - ci ildə 53 saylı məktəbə getmişəm. 2007- ci ildə BDU - nun nəzdində açılmış Gənc istedadlar liseyinə keçmişəm. Qəbul imtahanlarında 607 bal yığaraq, Xəzər Universitetinə qəbul olunmuşam.

2. Çox sevindim, çünki bu universitetin adını dünya universitetlərinin arasında görmüşdüm.

3. Bəli, olub. Bu, kifayət qədər məşhur universitetdir.

4. Əsasən öz qərarım ilə, amma valideynlərim və müəllimlərim də mənə kömək ebiblər.

5. Əla! Burada xarici tələbələri görəndə başa düşdüm ki, bura çox səviyyəli universitetdir.

6. Həyəcanlı, maraqlı və zəhmətlə dolu.

7. Bu sualın cavabını, məncə, hər kəs bilir. Amma yenə də qeyd etmək istəyirəm ki, karyera haqqında düşünən hər kəs anlamalıdır ki, zəhmətsiz heç nə olmur.

8. Abituriyentlərə çox çalışmağı, yeni qəbul olunanlara isə uğurlar arzularyıram!

**Vüsalə Məmmədova,**
*Humanitar və sosial elmlər fakültəsinin*
*4-cü kurs tələbəsi*

## MÜƏLLİMİMİZ BEYNƏLXALQ KONFRANSLARDA

Xəzər Universitetinin fars dili müəllimi, fəlsəfə doktoru Zivər Hüseynova sentyabr ayında Türkiyədə beynəlxalq elmi konfranslarda iştirak etmişdir. Sentyabrın 20-22-də Kayseri şəhərindəki Erciyəs Universitetində əxilik hərəkatına həsr olunmuş beynəlxalq konfransda Z. Hüseynova "Fars ədəbiyyatında fütüvvətnamələr əsasında əxilik", sentyabrın 23-25-də Aksaray şəhərində Aksaray Bələdiyyəsinin "Somonçu Baba və mədəni mühiti" mövzusunda təçkil etdiyi beynəlxalq konfransda isə "Somonçu Babanın şeirlərində fars sözləri" mövzusunda məruzələrlə çıxış etmişdir.



## ŞƏXSİ VƏ PROFESSİONAL İNKİŞAF PROQRAMI ÇƏRÇİVƏSİNDƏ NÖVBƏTİ GÖRÜŞ

Oktyabrın 22-də Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə universitetdə Şəxsi və Professional İnkişaf Proqramı çərçivəsində tələbələrlə növbəti görüş keçirildi. Proqramın növbəti tədbirində Azərbaycan Respublikası Prezident Administrasiyasının nümayəndəsi Səbuhi Rzayev, Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatının sədri Gülsel Səfərova və Azərbaycan Respublikası Prezidenti yanında Dövlət Qulluğu Komissiyasının nümayəndəsi İlkin Hacılı iştirak etdilər. Onlar tələbələrə xaricdə təhsil imkanları, uğurlu karyera qurmağın yolları, asudə vaxtın daha səmərəli təşkil olunması və müxtəlif beynəlxalq proqramlarda iştirak etməklə bağlı bir çox məsləhətlər verdilər. Sonda tələbələrin sualları cavablandırıldı.

## İTALİYANIN LA SAPİENZA UNİVERSİTETİNİN NÜMAYƏNDƏSİ XƏZƏR UNİVERSİTETİNDƏ

Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Siyavuş Azakov və İnkişaf direktoru Raziyə İsayeva oktyabrın 26-da Roma La Sapienza Universitetinin Kimya - mühəndislik departamentinin müəllimi və Beynəlxalq əlaqələr üzrə direktoru professor Angelo Chianese ilə görüşdülər. Onlar, əsasən, iki universitet arasında əməkdaşlıq imkanlarını və Tempus proqramı çərçivəsində əməkdaşlığı müzakirə etdilər.

## "XƏZƏR"DƏ "KARYERA SƏRGİSİ"




Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə oktyabrın 27-də universitetdə Nizami Rayon Məşğulluq İdarəsi ilə birlikdə "Karyera sərgisi" keçirildi. Sərgidə 18 şirkət iştirak etdi. Şirkətlərin nümayəndələri vakansiyalar haqqında ətraflı məlumat verdilər. Sərgidə universitetin tələbələri ilə yanaşı Nizami Rayon Məşğulluq İdarəsinin qeydiyyatında olan işsiz vətəndaşlar da iştirak etdilər. Bir sıra şirkətlər özlərinin müxtəlif proqramları ilə bağlı Xəzər Universitetində təqdimat keçirmək istədiklərini bildirdilər və universitetlə gələcək əməkdaşlığa maraqlı olduqlarını qeyd etdilər.

# GOOD BYE, "BY EXAM"!

**İsaxan İsaxanlı**
*Qəbul və tələbə şöbəsinin müdiri*



*Ali məktəbdə tələbələrin biliyinin obyektiv surətdə üzə çıxarılması bir sıra meyarlarla, o cümlədən, imtahanların keçirilmə qaydaları ilə sıx bağlıdır. Bu baxımdan universitetimizdə bu məsələ həmişə diqqət mərkəzindədir və daim təkmilləşir. Ali məktəblərimiz arasında həmişə özünün yenilikçilik xarakteri ilə fərqlənən Xəzər Universitetində klassik imtahanvermə üsulundan başqa bir neçə qeyri-ənənəvi üsuldan – aralıq imtahanları, təkrar imtahanlar, tamamlama imtahanları və «Credit by examination» (birbaşa imtahan yolu ilə kredit moplanması; bundan sonra "Credit by exam") imtahanvermə üsullarından istifadə edilir.*

*Bu yazıda biz «Credit by exam» imtahanvermə üsulunun universitetin təhsil siyasətində tutduğu yer, tələbələrin məzun olmasında bu üsulun rolu və ümumiyyətlə, imtahan verilməsində belə bir üsulun tətbiq edilməsinin məqsədəuyğunluğu, onun müsbət və mənfi tərəfləri haqqında söhbət açacağıq.*

*Xəzər Universitetində «Credit by exam» 1999-cu ildən tətbiq edilməyə başlanmışdır. İldən-ilə qazanılan təcrübədən doğan məqamları nəzərə almaqla zaman-zaman «Credit by exam»ın keçirilmə qaydalarında müəyyən dəyişikliklər edilmiş, qaydalar təkmilləşdirilmişdir.*

***Xəzər Universitetində tələbələr aşağıdakı hallarda «Credit by exam» verə bilir:***

- Hər hansı fənn üzrə aşağı keçid bal (bakalavr pilləsində 60-69, magistr pilləsində 65-74) toplamış tələbə orta balını (GPA) qaldırmaq istədikdə;
- Tələbənin universiteti bitirməsinə 1 (bir) və ya 2 (iki) fənn qalıbsa;
- Başqa ali məktəbdən Xəzər Universitetinə köçürülən tələbə köçürülmə zamanı hər hansı bir fənnin yekun qiyməti ilə razı deyilsə.

Maraqlıdır ki, ümumilikdə «Credit by exam» verən tələbələrin əksəriyyəti yuxarıda göstərilən ikinci hala uyğun tələbələrdir. Başqa sözlə, tələbələr «Credit by exam» üsulundan, demək olar ki, yalnız ali məktəbi bitirmə ərəfəsində istifadə edirlər. Orta balını (GPA) qaldırmaq üçün «Credit by exam» verən bir neçə tələbə olsa da, üçüncü haldan istifadə edən bir nəfər də tələbə olmamışdır. Bu o deməkdir ki, başqa ali məktəbdən Xəzər Universitetinə köçürülən bütün tələbələr universitenin qəbul etdiyi qiymətlərlə razılaşmışlar.

***«Credit by exam» - ın keçirilmə qaydaları***

- Tələbə bir semestrdə ən çox 2 (iki) fənn üzrə «credit by exam» verə bilər.
- «Credit by exam» verilən hər fənn üçün 100% təhsil haqqı ödənilir.
- Hansı fakültə və hansı fənn üzrə keçirilməsindən asılı olmayaraq, «credit by exam» imtahanları eyni gündə, eyni vaxtda, eyni auditoriyada keçirilir. İmtahan verənlərin sayı çox olarsa, əlavə auditoriya da seçilə bilər.
- «Credit by exam» keçirilən auditoriyada uyğun fakültənin (həmin fakültə üzrə heç olmasa bir tələbə imtahan verirsə) və imtahan şöbəsinin nümayəndəsinin iştirakı vacibdir.
- Universitet üzrə «Credit by exam» günü olaraq hər ayın üçüncü həftəsinin şənbə günü müəyyən olunur. Həmin gün iş günü deyilsə, imtahan növbəti iş günü keçirilir.
- «Credit by exam» imtahanlarında iştirak etmək üçün tələbə, dekanlıqla razılaşdırdıqdan sonra, ərizə ilə rektorluğa müraciət etməli, icazə aldıqdan sonra təhsil haqqını ödəməli və uyğun dekanlıqda qeydiyyatdan keçməlidir.
- İmtahandan 1 (bir) gün əvvəl qeydiyyat başa çatır, bütün dekanlıqlar «Credit by exam» vermək üçün qeydiyyatdan keçmiş tələbələrin siyahısını Qeydiyyat və İnformasiya Şöbəsinə verir, burada uyğun siyahı üzrə qiymət cədvəli tutulur.
- Adı bu cədvəldə olmayan tələbə «credit by exam»

verə bilməz.

- «Credit by exam» keçirildikdən sonra 3 (üç) gün müddətində nəticələr Qeydiyyat və İnformasiya Şöbəsinə verilir.

Yuxarıda qeyd etdiyimiz kimi tələbələr «Credit by exam» üsulundan, demək olar ki, yalnız ali məktəbi bitirmə ərəfəsində istifadə edirlər. Son bir ildə məzun olanların «Credit by exam»dan necə yararlandıqlarını əyani görmək üçün aşağıdakı statistik cədvəllərə nəzər salaq:

**2011-ci il mart buraxılışı**

| Fakültələr | Məzunlar | «Credit by exam» verməklə məzun olanlar | Faiz |
|---|---|---|---|
| M h əndislik və tətbiqi elmlər | 7 | 3 | 43 |
| İqtisadiyyat və menecment | 34 | 16 | 47 |
| Hümanitar və sosial elmlər | 44 | 28 | 64 |
| Təhsil | 3 | 1 | 33 |
| H qüq | 8 | 7 | 88 |
| Tibb | 8 | 1 | 13 |
| **Cəmi** | **104** | **56** | **54** |

Göründüyü kimi, 2011-ci ilin mart buraxılışında Mühəndislik və tətbiqi elmlər fakültəsi üzrə məzun olan 7 nəfərdən 3-ü, İqtisadiyyat və menecment fakültəsi üzrə məzun olan 34 nəfərdən 16-sı (2 nəfər kəsilib), Humanitar və sosial elmlər fakültəsi üzrə məzun olan 44 nəfərdən 28-i (2 nəfər kəsilib; onlardan biri 2 fəndən «Credit by exam» verib və hər iki fəndən kəsilib), Təhsil fakültəsi üzrə məzun olan 3 nəfərdən 1-i, Hüquq fakültəsi üzrə məzun olan 8 nəfərdən 7-si, Tibb fakültəsindən məzun olan 8 nəfərdən 1-i «Credit by exam» verməklə məzun olmuşlar. Təhlildən görünür ki, «Credit by exam» verən 60 nəfərdən cəmi 4-ü kəsilmiş, 56-sı isə həmin imtahanları müvəffəqiyyətlə verərək məzun olmuşdur.

Beləliklə, bu buraxılışda məzun olan 104 nəfərdən 56-sı «Credit by exam» verməklə məzun olmuşdur. Bu, məzunların 54%-i deməkdir.

2011-ci ilim sentyabr buraxılışında isə mənzərə aşağıdakı kimi olmuşdur:

**2011-ci il sentyabr buraxılışı**

***(May ayında məzun olanlarla birlikdə)***

| Fak lt ələr | Məzunlar | «Credit by exam» verməklə məzun olanlar | Faiz |
|---|---|---|---|
| M h əndislik və tətbiqi elmlər | 19 | 7 | 37 |
| İqtisadiyyat və menecment | 44 | 8 | 18 |
| Hümanitar və sosial elmlər | 76 | 23 | 30 |
| Təhsil | 22 | 10 | 45 |
| H qüq | 1 | 1 | 100 |
| Tibb | 82 | 10 | 12 |
| **Cəmi** | **244** | **59** | **24** |

Cədvəldən göründüyü kimi, 2011-ci ilin sentyabr buraxılışında Mühəndislik və tətbiqi elmlər fakültəsi üzrə məzun olan 19 nəfərdən 7-si (2 nəfər kəsilib, məzun olanlardan 1-i 2 fəndən «Credit by exam» verib), İqtisadiyyat və menecment fakültəsi üzrə məzun olan 44 nəfərdən 19-u (1 nəfər kəsilib, məzun olanlardan 1-i 2 fəndən «Credit by exam» verib), Humanitar və sosial elmlər fakültəsi üzrə məzun olan 76 nəfərdən 23-ü (3 nəfər kəsilib; məzun olanlardan 8-i 2 fəndən «Credit by exam» verib), Təhsil fakültəsi üzrə məzun olan 22 nəfərdən 10-u (onlardan 3-ü 2 fəndən «Credit by exam» verib) , Hüquq fakültəsi üzrə məzun olan 1 nəfərdən 1-i (o da 2 fəndən «Credit by exam» verib), Tibb fakültəsindən məzun olan 82 nəfərdən 10-u (2 nəfər kəsilib, məzun olanlardan 7-si 2 fəndən «Credit by exam» verib) «Credit by exam» ver-

məklə məzun olmuşlar. Təhlildən görünür ki, «Credit by exam» verən 67 nəfərdən 8-i kəsilmiş, 59-u isə həmin imtahanları müvəffəqiyyətlə verərək məzun olmuşdur.

Beləliklə, sentyabr buraxılışında məzun olan 244 nəfərdən 59-u «Credit by exam» verməklə məzun olmuşlar. Bu, məzunların 24%-i deməkdir.

Bir fakta da diqqət yetirmək maraqlıdır. Mart buraxılışında 2 fəndən «Credit by exam» verərək məzun olan yoxdur, amma sentyabr buraxılışında 21 nəfər 2 fəndən «Credit by exam» verərək məzun olmuşdur. Yəqin ki, bu hal artıq universitetdə «Credit by exam»ın ləğv edilməsi və bu imkanın tələbələrə son dəfə verilməsi ilə bağlıdır.

Əgər 2011-ci il mart və sentyabr buarxılışları üzrə məlumatları ümumiləşdirsək, son bir ildə «Credit by exam» verməklə məzun olanlar haqqında məlumat aşağıdakı kimi olar:

**2011-ci il buraxılışı**

| Fak lt ələr | Məzunlar | «Credit by exam» verməklə məzun olanlar | Faiz |
|---|---|---|---|
| M h əndislik və tətbiqi elmlər | 26 | 10 | 38 |
| İqtisadiyyat və menecment | 78 | 24 | 31 |
| Hümanitar və sosial elmlər | 120 | 51 | 43 |
| Təhsil | 25 | 11 | 44 |
| H qüq | 9 | 8 | 89 |
| Tibb | 90 | 11 | 12 |
| **Cəmi** | **348** | **115** | **33** |

Beləliklə, son 1 ildə məzun olan 348 nəfərdən 115 nəfəri «Credit by exam» verməklə məzun olmuşdur. Bu, məzunların 33 %-i deməkdir və kifayət qədər böyük rəqəmdir.

«Credit by exam»la bağlı yuxarıda yazılmış qaydalar obyektivliyi və şəffaflığı kağız üzərində tam təmin etsə də, reallıqda narahatedici hallar da kifayət qədərdir. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

- «Credit by exam» verərək məzun olanların sayının çoxluğu.
- «Credit by exam» imtahanlarında kəsilənlərin çox az olması. Nəzərə alsaq ki, «Credit by exam» verənlərin xeyli hissəsi imtahan verdiyi fənni əvvəllər heç oxumamışdır, kəsilənlərin belə az olması bu imtahanların keçirilməsinə yumşaq yanaşmaların olduğu fikrinə, təbii olaraq, yol açır.
- Heç vaxt oxumadığı hər-hansı bir fəndən «Credit by exam» yolu ilə imtahan vermə hallarının get-gedə artması.
- «Credit by exam» imtahanlarında testlərin yeniləşməməsi, əsasən köhnə testlərdən istifadə edilməsi.
- «Credit by exam»ın keçirilməsi haqqında qaydalara, demək olar ki, əməl edilməməsi (məsələn, qaydalara görə «Credit by exam» vermək istəyənlərin qeydiyyatının imtahandan 1 (bir) gün əvvəl başa çatmasına baxmayaraq, çox vaxt tələbə imtahan günü və hətta imtahandan sadəcə bir neçə saat qabaq gəlib «Credit by exam» vermək arzusunu bildirir və tələm-tələsik verilmiş testlə imtahanda iştirak edə bilirdi).
- "Bir semestrdə ən çox 2 (iki) fənn üzrə «Credit by exam» verilə bilər" qaydası çox sadəcə interpretasiya olunur və tələbə **bir gündə!!!** 2 (iki) fənn üzrə «Credit by exam» verə bilirdi.
- Bəzən hətta «credit by exam» verərək kəsilmiş tələbəyə yenidən həmin fəndən «Credit by exam» verməyə icazə verilirdi. Belə hallar nadir hal olsa da, bu onu göstərir ki, bu zaman əsas məsələ tələbənin məzun olmasına süni yolla şərait yaratmaq olur. Belə imtahanlarda ciddilik və keyfiyyətdən danışmaq isə sadəlövhlük olar. Tələbələr özləri də bunu başa düşür və bundan hər cür yararlanmağa çalışırdılar. Sadə bir misal: Humanitar və sosial elmlər fakültəsinin (Politologiya ixtisası) bir tələbəsi 2009-cu ilin yaz semestrində oxuduğu Fransız dili–2 fənnindən 54 alaraq kəsilmişdi. Tələbə 2001-ci ildə sentyabr ayının 13-də universiteti bitirmək üçün həmin fəndən «Credit by exam» vermiş və 100 baldan cəmi 11 bal toplayaraq yenə kəsilmişdi. Cəmi 2 gün sonra o, məzun olmaq şansını itirməmək ümidi ilə təkrarən «Credit by exam» vermək üçün müraciət edir. Fakültə dekanının "axı sən nə vaxt hazırlaşdın, təbii ki, yenə imtahan verə bilməyəcəksən" fikrinə belə vavab verir: "Mən bu gecə yatmamışam və tam hazırlaşmışam. İmtahan verməyə hazıram". Heç şübhəsiz tələbə, demək olar ki, anlayışı olmadığı bir fənn üzrə imtahana bir gecəyə hazırlaşmağın mümkünsüzlüyünü bilir, sadəcə olaraq, yaranmış vəziyyətdə imtahan götürənlərin "insaflı davranacaqlarına" ümid edirdi. Tələbə imtahan verdi, 23 balla imtahandan kəsildi. Elə həmin ərəfədə, məzunluğa namizədlərin sənədləri dəqiqləşdirilərkən məlum oldu ki, həmin tələbənin məzun olması üçün bir yox, iki fəndən imtahan verməsi zəruridir. Üstəlik, tələbə «Credit by exam» üçün icazə alarkən tədris işləri üzrə prorektorun və fakültə dekanının adından da sui istifadə etmişdi. Belə olan halda, tələbəyə iki fəndən «Credit by

exam» üçün şans verilmədi və onun Fransız dili-2 fənninin nəticələri də ləğv edildi. Amma bu misal tələbələrin «Credit by exam»a nə qədər qeyri-ciddi münasibətdə olmalarının bariz nümunəsidir.

Beləliklə, «Credit by exam» həm tələbələr, həm də müəllimlər arasında asan məzun olma metodu kimi qiymətləndirilməyə başlamışdı. Məhz bu və yuxarıda göstərilən digər məqamlar «Credit by exam» siyasətinə yenidən qayıtmağı və onunla bağlı ciddi qərarların qəbul edilməsini şərtləndirən cəhətlərdəndir.

6 oktyabr 2010-cu il tarixdə Rektor yanında Şuranın iclasında "Credit by exam" imtahanları haqqında geniş fikir mübadiləsi aparıldı və nəticədə "Credit by exam" imtahanlarının keçirilməsi qaydalarında aşağıdakı dəyişikliklər edilməsi haqqında Rektorun 07 oktyabr 2010-cu il tarixli, T/03saylı əmri imzalandı. Əmrdə deyilirdi:

1. 15 sentyabr 2010-cu il tarixə qədər ümumi kreditlərinin sayı 90-dan az olmayan tələbələr "Credit by examination" verə bilərlər.
2. 2010-2011-ci tədris ilində "Credit by examination" imtahanları 21-28 fevral 2011-ci il və 1-10 sentyabr 2011-ci il tarixlərində verilə bilər. İmtahanların dəqiq tarixi fakültə dekanları tərəfindən müəyyənləşdirilərək tədris işləri üzrə prorektorla razılaşdırılsın.
3. 15 sentyabr 2011-ci il tarixdən etibarən "Credit by examination" imtahanları ləğv edilsin.
4. Fakültə dekanları əmrin bütün tələbələrə çatdırılmasını təmin etsinlər.
5. Əmrin icrasına nəzarət tədris işləri üzrə prorektor Rafiq Əhmədova həvalə edilsin.

Təxminən 12 illik bir dövrdə tətbiq olunan bir sistemin buraxdığı izlər və onun ləğv edilməsinin məqsədəuyğunluğu haqqında universitetin "Credit by exam" məsələsi ilə yaxından əlaqəli olan bir sıra əməkdaşlarına aşağıdakı sualla müraciət etdim: **"Credit by exam" bizə nə verdi və onun ləğv edilməsi bizə nə verəcək?"**

Aldığım cavablardan əsas məqamları olduğu kimi diqqətinizə çatdırıram:

**<u>Məhəmməd Nuriyev</u>**
**<u>Tədris işləri üzrə prorektor</u>**

- Bu imtahanın əhatə etdiyi materialın həcmi və keyfiyyəti ənənəvi imtahan materiallarından aşağıdır.
- Bir qayda olaraq bu imtahanı verənlərin əksəriyyəti proqramı vaxtında başa çatdırmayan zəif tələbələrdir və semestr boyu fənni öyrənib imtahan verə bilməyən tələbəyə xüsusi şəraitin yaradılması məqsədə uyğun deyildir.
- "Credit by exam" imtahanının təşkili dekanlıqların cari işlərinin gedişatını pozur, məzunların sənədlərinin hazırlanmasında gərginlik yaradır, bəzi hallarda isə texniki səhvlərə səbəb olur.
- Əgər söhbət tədrisin keyfiyyətindən gedirsə, bu imtahanın ləğv edilməsi məqsədə uyğundur.
- "Credit by exam" zəif tələbələrin məzun olunmasına şərait yaradır.
- Bu imtahanın ləğv edilməsi tələbələrin rəsmi olaraq ildə iki dəfə - fevralın əvvəlində və iyunun sonunda məzun omasına imkan yaradacaq. Bu da öz növbəsində beynəlxalq proqramlara müraciət edən və orduya çağrılanların işlərini yüngülləşdirəcək.
- Tələbələrin məzunluğa qarşı münasibəti ciddiləşəcək və onların bilikləri artacaq.
- Dekanlıqlar öz işlərini daha səmərəli planlaşdıra biləcəklər.

**<u>Rafiq Əhmədov</u>**
**<u>İdarəetmə və tələbə işləri üzrə prorektor</u>**

- "Credit by exam" imtahanlarının ləğv edilməsi tələbələrin fənləri qısa bir müddət (10-15 gün) ərzində deyil, bütün semestr ərzində mükəmməl öyrənərək, sillabusda nəzərdə tutulan qiymətləndirmə sisteminə tam riayət edilməsini təmin edir.

**<u>İnqilab Əhmədov</u>**
**<u>İqtisadiyyat və menecment fakültəsinin dekanı</u>**

Müsbət tərəfləri:

- Tələbələrə məzun olmaq üçün yalnız bir fənn qaldıqda, əlavə bir semester oxumadan imtahan verib universiteti bitirmək şansı.
- Universitetə müvafiq fənnin məbləğini cəlb etməklə, əlavə məsrəflərə getməyərək, tələbəni məzunluğa göndərmək imkanı.
- "Credit by exam" nizamlı olaraq universitet səviyyəsində planlaşdırılaraq mütəşəkkil keçirilir, burada pərakəndəlik və əyintilər minimuma endirilir.
- Məzunların, bir qayda olaraq, sonuncu semestrdə gərginliyi nisbətən səngiyir, belə ki, bir imtahan qalarsa, onu bu yolla verməklə onlar fənn seçimini daha rahat edirlər.

Mənfi tərəfləri:

- Adətən "Credit by exam"a hazırlaşan tələbələr onu adi semestr ərzində keçdikləri və sonda verdikləri imtahana nisbətən daha zəif öyrənirlər.
- Tələbələrdə müəyyən arxayınçılıq hiss olunur, bəziləri hətta iki belə imtahan vermək fikrinə düşürlər.
- Müəllimləri bu testləri hazırlamağa dəvət etmək bir az müşkül olur.
- İmtahan zamanı "xaltura" ola bilir və imtahan bəzən formal xarakter ala bilir.

Beləliklə, mənim fikrim:

Hələ ki bizə "Credit by exam" lazımdır. Ancaq ondan çalışıb istisna hal kimi istifadə etmək lazımdır. Bunun üçün xüsusi tələblər olmalıdır. Məsələn, GPA-i müəyyən faizdən çox olan tələbələrə şamil olunmalıdır.

**Cabir Xəlilov**
**Humanitar və sosial elmlər fakültəsinin dekanı**

Əslində, "Credit by exam" bizə əziyyətdən başqa heç bir şey vermir. O ki qaldı tələbələrə, onları başa düşmək olar. Bir və ya iki fənnə görə bir semestr oxumaq bir sıra çətinliklər törədir. Belə ki, kifayət qədər boş vaxt yaranır, işə düzəlmək mümkün olmur, əsgərlik problemi başlanır və sair. Bu semestr üzrə biz tələbələrə elan etmişik ki, "Credit by exam" sonuncu dəfə olacaq və bundan sonra belə imtahanlar keçirilməyəcək. Yəni tələbələr artıq məlumatlıdırlar. Gələcək üçün mən təklif edərdim ki, tələbələrə yalnız sonuncu semestrdə 7 fəndən qeydiyyatdan keçməyə icazə verilsin, o da yalnız bir şərtlə ki, o, həmin fənlərdən keçə bilsə universiteti bitirə bilir. İkinci variant belə ola bilər ki, tələbələrə hər semestr üzrə maksimum 6 fəndən qeydiyyatdan keçməyə icazə verilsin və sonuncu semestrdə yalnız bir fənn üzrə "Credit by exam" verməyə icazə verilsin.

**Elza Səmədova**
**Təhsil fakültəsinin dekanı**

Əslində, "Credit by exam" imtahanı, bütün şərtləri yerinə yetirilərək tətbiq edildiyi təqdirdə, tələbələr üçün bir fürsət idi. Ancaq təəssüf ki, Xəzər Universitetinin müəllim və tələbə heyəti (bəlkə də dekanlıqlar) bu fürsətdən sui-istifadə edərək, bu haqqın itirilməsinə səbəb oldular. "Credit by exam" imtahanı Xəzər Universitetinin əksər tələbələri tərəfindən asan yolla əldə edilə biləcək 6 kredit kimi başa düşülürdü. Bu haqqın ləğv edilməsi həqiqətən buna ehtiyacı olan bacarıqlı tələbələrə haqsızlıqdır.

Mənim təklifim bu haqqın rektor yanında yaradılmış şuranın müzakirəsi və icazəsi ilə müəyyən şərtləri yerinə yetirən tələbələrə verilməsidir. "Credit by exam" üçün cox ciddi qaydalar tərtib edilməli və bu qaydaların eyni ciddiliklə tətbiq edilməsi təmin edilməli, sadəcə bacarıqlı tələblər bu haqdan istifadə etməlidirlər.

**Nigar Bağırova**
**Tibb fakültəsinin dekanı**

Если для окончания студенту необходимо только 3 кредита – то предоставление такой возможности оправдано. Этот экзамен студент может сдавать только в том случае, если этот предмет он проходил в свое время, но срезался. Это может быть один предмет. Второй он может сдавать с согласия проректора или ректора. Кроме того, если один экзамен позволяет студенту получить диплом с отличием, то мы можем позволить пересдать предмет, по которому у этого студента низкая оценка (из специальных предметов). Необходимо обращать внимание и на то, какой студент просит разрешения на сдачу такого экзамена. Если студент учится 10 лет и его средняя оценка -70, то навряд ли он сможет за неделю подготовиться и сдать экзамен. Т.е. подход к данному вопросу должен быть избирательный.

**Eldar Şahgəldiyev**
**İngilis dili departamentinin sabiq müdiri, tədris işləri üzrə prorektorun müavini, magistratura, doktorantura və elmi işlər bölməsinin rəhbəri**

- Bizə nə verdi sualı düz qoyulmayıb. Biz onu ləğv etməklə birmənalı iş görməmişik. Tələbənin (bu az sayda tələbəni təşkil edir, adətən, daha bizdəki kimi kütləvi yox) belə imkandan müstəsna hal kimi istifadə etmək hüququ məhdudlaşdırılır. Bu, mənfi haldır.
- Bizim şəraitdə isə bunu müsbət qarşıladıq, ona görə ki, bu artıq kütləvi xarakter almışdı və neqativ hallara yol aça bilərdi.
- Departamentlər üçün lazımsız iş yükü idi.
- "Credit by exam" testlərin konfidensiallığını pozurdu. Heç kim yeni test vermirdi, olanları sadəcə olaraq ən yaxşı halda modifikasiya edirdi. Odur ki 'informasiya axını'nın olmamasına iddia etmək düzgün olmazdı.
- Və nəhayət sinif otağı, əlavə inzibati narahatlıq və s. var idi.
- Daha başqa səbəblər də vardır ki, onların da daha dərin təhlilə ehtiyacı var. Bütövlükdə onu ləğv etmək müsbət haldır.

Göründüyü kimi, "Credit by exam"ın ləğv edilməsini fakt kimi qəbul edənlər də var, onun müəyyən şərtlər daxilində yeni formada saxlanmasını təklif edənlər də. Mənim məqsədim isə bitmiş bir məsələni yenidən gündəmə gətirmək yox, sadəcə olaraq, "Credit by exam"la keçdiyimiz yola bir də nəzər salmaq, onun mənfi və müsbət tərəflərini bir də nəzərdən keçirmək idi.

Beləliklə, 15 sentyabr 2011-ci il tarixdən etibarən "Credit by examination" imtahanları ləğv edildi. Lakin bununla məsələni tam bitmiş hesab etmək olmaz. Odur ki, illərlə tətbiq olunmuş, universitetdə sanki bir ənənə formasını almış "Credit by exam" imtahanvermə üsulunun ləğvindən sonra fakültə dekanları, ən azı sonuncu kurs tələbələri ilə bağlı, vaxtlı-vaxtında ciddi təhlillər aparmalı, müəyyən arzu olunmayan (xüsusən də tələbələr üçün), bir az da qeyri-məntiqi kimi görünən (məsələn, tələbənin 1 fənnə görə tam bir semestr oxumaq məcburiyyətində qalması) mənzərələrin yaranmasına imkan verməməlidirlər. Düşünürəm ki, belə məqamlara tam aydınlıq gətirilməsi və bunun ciddi bir qayda şəklinə salınması məqsədi ilə məsələnin Rektor Yanında Kabinet və ya Şurada (bəlkə də birləşdirilmiş tərkibdə) müzakirə edilməsinə ehtiyac var.

Görünür, hər şeyin, hər yeniliyin də bir sonu var. Əslində bir şeyə son verilməsi özü də bir yenilikdir.

**Good bye, "by exam"!**

# AMERİKA BƏNZƏRSİZ BİR ÖLKƏDİR...

*2010-2011-ci illərdə ABŞ-da Fullbright proqramı çərçivəsində elmi tədqiqatla məşğul olmuş müəllimimiz Rövşən Abbasovun təəssüratları*

## Amerikaya səfərim

Amerika o qədər uzaqda yerləşir ki, buraya səfər edən hər bir adam həm məsafə, həm saat, həm də ümumi dəyərlər baxımından yeni bir yerdə olduğunu həmin an hiss edir. Etiraf edim ki, hər gün eyni şeylərin təkrar olunduğu bir yerdən belə bir yerə gedib düşmək insanda məmnunluq və xoşbəxtlik hissləri yaradır. Belə bir yerə ailə ilə getmək isə insan üçün əsl xoşbəxtlik hesab oluna bilər. Belə olduqda ailə daxilində danışmalı, müzakirə etməli mövzular çox olur. Biz ora düşdüyümüz gündən, demək olar ki, hər şeyi müqayisə edirdik. Yeməkləri, yolları, mağazaları, kitabxanaları və daha nə bilim nələri...

Bu fərqləri görəndən sonra düşünürəm ki, hər bir adam ömründə, heç olmasa, bir dəfə Amerikada olmalıdır. Amerikada olan adam kimliyindən asılı olmayaraq hökmən bu məmləkəti sevir. Çünki Amerika bənzərsiz bir ölkədir...

## Məhəmmədin məktəbi





Bəzən elə olur ki, insanın əvvəlcədən əməllibaşlı problem hesab etdiyi bir şey çox asanlıqla düzəlir. Oğlum Məhəmmədi Kaliforniya məktəblərindən birinə qoymaq mənim üçün keçilməz bir hədd hesab olunurdu. Amma bu problem çox tez, həm də cəmi yarım saatın içində düzəldi. Məhəmmədi də götürüb evimizin yaxınlığındakı məktəbə getdim və onu bu məktəbə qoymaq istədiyimi dedim. Cavab çox sadə oldu: "sabahdan dərsə gələ bilər". Çox sevindim. Özüm də inanmırdım ki, bu məsələ belə asanlıqla düzələ bilər. Hansı kitabları almaq lazım olduğunu onlardan soruşanda, mənə dedilər ki, heç bir kitab lazım deyil və sadəcə bir çanta almaq kifayətdir. Məndən sabah Məhəmmədin şəkli olan hər hansı bir sənədi gətirməyimi istədilər. Həyat yoldaşımın pasportunda Məhəmmədə verilən vizanın surəti işə tam yarayırdı. Başqa heç bir sənədə ehtiyac qalmadı. Yarım saatdan sonra evə gəlib Məhəmmədin məktəb məsələsinin həll olunduğunu yoldaşıma deyəndə, yoldaşım mənə inanmadı. Onu da deyim ki, biz bir il əvvəl Məhəmmədi Xırdalanda birinci sinfə qoyanda müxtəli sənədlərin hazırlanmasına bir aya yaxın əziyyət çəkmişdik.

Məhəmməd bir dərs ili ərzində Margaret Montegomeri adlanan bu məktəbin ikinci sinfinə getdi. Ona aldığım ikitəkərli scare-ni sürərək, məktəbə getmək və qayıtmaq ona ləzzət edirdi. Onun davranışında tədricən baş verən dəyişmələri görmək çətin deyildi.

Kaliforniya məktəblərində, demək olar ki, ev tapşırıqları verilmir. Əvəzində məktəbdə uşaqlara çox şey öyrədilir. Məhəmməd bu bir il ərzində Amerikanın keçmiş prezidentlərinin çoxunun adını bildi.

Bu məktəbdə dərslər zamanı uşaqlara çox sərbəstlik verilir. Uşaqlar 3-4 nəfərdən ibarət olan kiçik qruplarda birləşib xalça üzərində oturur, müəllim isə onlara tapşırıqlar verir. Tualetə, su içməyə getmək üçün icazə almaq lazım deyil.

Mənə ən çox xoş gələn isə bu məktəbdə tez-tez oxu axşamlarının təşkil olunması idi. Oxu axşamlarında şagirdlər və valideynlər məktəbə gəlir, hər hansı bir əsəri növbə ilə oxuyub, sonra da müzakirə edirlər. Bu axşamların keçirilməsindən əsas məqsəd isə, müəllimlərin sözü ilə desək, "yaxşı oxucu hazırlamaqdır".

Biz geri qayıdanda mən çox şeylərə sevinsəm də, bir şeyə görə çox kədərlənirdim. Bu isə Məhəmmədin daha bu məktbədə heç zaman oxuya bilməyəcəyini başa düşmək hissi idi. Axı bir il ərzində övladına ingilis dilini öyrədən, onu başqa bir adam edən məktəbi tərk etmək hansı valideynin xoşuna gələ bilərdi?

## Emil

Emil mənim ən kiçik oğlumdur. O, Amerikaya səfər etməmişdən cəmi iki ay qabaq dünyaya gəlmişdi. Bizi ən çox narahat edən də bu idi. Bir təbii mühitdə doğulan uşağın başqa bir mühitdə yaşaması problemlər yarada bilər. Belə də oldu. Amerikaya çatandan bir neçə gün sonra Emilin bir gözündə bizi qorxudan bir qızartı yarandı. Amma amerikalı



həkimlərin peşəkarlığı Emili tezliklə sağaltdı. Yerdə qalan bütün müddət ərzində Emil həkimlərin tam nəzarətində oldu. Onu da deyim ki, Emilin müalicə haqqı Kayser Permanente deyilən program tərəfindən ödənilirdi və biz bütün ödənişlərdən azad idik.

## Fulbright

Fulbright fellowship almaq çox böyük xoşbəxtlikdir. Bu xoşbəxtlik mənə də qismət oldu. Fulbright imkan verir ki, dünyanın istənilən bir ölkəsində yaşayan alim Amerikaya gələrək, elmi tədqiqat işləri ilə məşğul olsun. Mən Davisə, Kaliforniya Universitetinə gəlib burada 10 ay qaldım. Bu universitet tipik Amerika universitetidir. Tələbələr, böyük kampus, kompüter laboratoriyaları, yeməkxanalar insana imkan verir ki, özünü bütöv bir akademik mühitdə hiss etsin. Mənim apardığım elmi işin mövzusu çox maraqlı olduğundan özümü tamamilə bu mühitin bir parçası hesab edirdim.

Biz tez-tez başqa Fulbright fellowlar ilə görüşür, San - Fransiskoya, Stanforda, Santa - Kruza, Santa - Rosaya gedirdik. Müxtəlif tədbirlər olurdu. Bu tədbirlərin biri Santa - Rosada çaxır testi (vine testing) idi. Biz bu tədbirdə Kaliforniyada yetişdirilən ən müxtəlif çaxır növlərini dadır və onlara qiymət verirdik. Başqa bir tədbir isə Berklidə olan qonaqlıq idi. Bu qonaqlıqda müxtəlif universitetlərin Fulbrightçıları iştirak edirdi. San-Fransiskoda sahil parkındakı Sindbad restoranında Fulbrightçılara verilən qonaqlıq isə tamamilə unudulmazdır.

## Davis

Davis mənim Amerikada yaşadığım şəhərin adıdır. Etiraf edim ki, ömrümdə bundan gözəl bir yer görməmişəm. Davis sakit, mədəni və həm də tələbələrlə dolu olan bir şəhərdir. Davisin küçələrini



gəzib kofe içmək, dostlarla görüşüb müxtəlif elmi müzakirələr aparmaq mənim ən sevimli məşğuliyyətim idi. Davisdə yerləşən Borders kitab mağazası isə başqa bir aləm idi. Mən tez-tez bu kitab mağazasına gəlir, dadlı Sietl kofesindən içərək müxtəlif kitablar oxuyurdum. Amerika kitab mağazaları böyük və genişdir. Alıcılar üçün çoxlu kreslolar qoyulub və bu kreslolarda oturub istənilən qədər kitab oxumaq olar. Onu da deyim ki, ixtisasıma aid olmayan kitabları oxuyanda mən istirahət edirəm. İxtisasıma aid kitabları oxuyanda isə özümü işdə hiss edirəm. Ona görə də, Bordersdə həmişə ixtisasıma uyğun olmayan populyar ədəbiyyat oxumağa daha çox üstünlük verirdim ki, bir az beynimin yorğunluğu azalsın. Heyif ki, mən geri qayıtmağa 10 gün qalmış Borders bankrot oldu və bu kitab mağazası bağlandı. Davis öz gözəlliklərindən birini itirdi. Bordersdən aldığım kitablar isə məndə yadigar olaraq həmişə qalacaq.

Davisdə hər həftənin üçüncü və altıncı günləri keçirilən fermer marketləri çox gözəl olur. Burada Davis fermerləri öz məhsullarını satır. Qoz, portağal, alma, heyva Davisin ən dadlı məhsullarıdır. Onu da deyim ki, Davis meyvələri organic və həm də çox dadlı olur.

Davisin ən gözəl xüsusiyyətlərindən biri də burada qışın, demək olar ki, olmamasıdır. Fevral ayında qısaqol köynəkdə gəzdiyimi heç vaxt unutmaram. Şəhər tamamilə parklardan və gəzinti yerlərindən ibarətdir. Biz ailəvi olaraq həmişə bu gəzinti yerlərini gəzərdik. Davis Amerikanın velosiped paytaxtı adlanır. Burada insanlar hamısı velosiped sürür. Yaşlı, qoca, uşaq… hamının velosipedi var. Əgər onlara desəydim ki, heç vaxt verlosiped sürməmişəm, yəqin ki, çox təəccüb edərdilər.

## 4 iyul

4 iyul Amerikanın müstəqillik bayramıdır. Əgər siz bu vaxt Amerika şəhərlərində olsanız, onda axşamlar hökmən atəşfəşanlığa baxmağı unutmayın. Bizdə "salyut" adlanan bu atəşfəşanlıq çox əzəmətli olur. Biz həmin gün ailəvi Sakramentoya gəldik və axşam saat 9-a qədər şəhəri gəzdik. 9-da isə Amerika çayının sahilində atəşfəşanlıq başladı. İnsanlar hər tərəfdə pivə içir, atəşfəşanlığa baxaraq bayram edirdilər. Bütün bunlar insanda unudulmaz xatirələr yaradır.

## Ailəvi istirahət

Hər axşam harasa getməli idik. Ucuz qiymətə aldığım balaca avtomobil bizə çox kömək edirdi. Ən sevimli işimiz uşaqlarla birlikdə hansısa yeməkxana-



ya getmək, ya da Sakramento və San - Fransiskonun parklarını gəzmək idi. Şənbə günləri harasa ən azı ikisaatlıq məsafədə yerləşən yerlərə gedirdik. Bu səfərlərdən biri məşhur Tahoe gölünə idi. Tahoe Nevada və Kaliforniya ştatlarının arasında yerləşir. Bu göl öz gözəlliyinə görə çox fərqli bir göldür. Suyu çox şəffaf və təmizdir. Bu gölə baxanda bizim Abşeron gölləri yadıma düşürdü. İndi maraqlıdır ki, hamı Abşeron göllərinin qurudulması haqqında fikirləşir. Guya ki, onlar xəstəlik mənbəyi imiş. Axı bu gölləri xəstəlik mənbəyinə biz çevirməmişikmi? Niyə onların bərpa olunması haqqında düşünmürük?

## Fulbright səfərləri

Fulbright hər bir iştirakçıya beş dəfə Amerikanın müxtəlif universitetlərinə səfər etmək imkanı verir. Mən bu imkanların dördündən istifadə etdim. Birinci səfərim Minnesotaya oldu. Minnesotanın şimalında yerləşən White Earth collecinə getmək üçün 5 saat maşın sürdüm. Getdikcə uzanan yollarda maşın sürmək çox maraqlıdır.

Başqa bir səfərim isə Oklahoma ştatının cənubunda yerləşən kiçik bir colleca oldu. Bu kollecə getmək üçün Great Plains adlanan ərazidən keçdim. Great Plains Amerikanın böyük bir hissəsini tutan gözəl bir təbii zonadır. Bu yerlər Azərbaycanın aran zonalarına çox oxşayır. Buffalo burada yaşayır. Canlı buffalo görmək və buradakı təbii parkları gəzmək çox maraqlı idi.

Lawton şəhərində olan kollecdə çıxış edəndən sonra burada olan Açıq hərbi muzeyə gəldim. Bu muzeydə müxtəlif köhnə hərbi maşınlar nümayiş olunur. Bu maşınlara baxarkən, insanda ən ali hisslər yaradan əzəmətli hərbi marş eşitdim. Daha sonra isə əsgərlər yanımdan keçib harasa getdilər. Öz əsgərlik illərimi xatırladım...

## Michigan və Minnesota

Michigan soyuq yer olsa da, mənim ürəyimdə həmişə isti xatirələr oyadır. Mən Amerikaya ilk gəlişimdə Amerikada çox məşhur olan Michigan State University-yə gəlmişdim. Orda Water Research Institut-da olan dostları yenidən görmək mənim çoxdankı arzum idi. Buna görə də, elə Amerikaya gələndən Michigana necə getmək barədə düşünürdüm.

Mən Michigana gələndə məni aeroportda Cindy qarşıladı. Cindy MSU-nun Water Research Institut-da çalışır. 2007-ci ildə mən JFDP proqramı ilə Amerikaya gələndə Cindy mənə çox köməkliklər etmişdi. Bu səfərimdə orada 4 gün qaldım. Bu müddət ərzində mən elmi tədqiqat işimə aid olan bir təqdimat keçirdim. Hər gün buradakı dostlar mənim qaldığım mehmanxanaya gəlir və məni gah luncha, gah da





dinnerə dəvət edirdilər. Maraqlıdır ki, Water Research Institut-da olan dostlar, hətta, səhər yeməyini belə mənsiz yemirdilər. Maraqlı bir şeyi də deyim ki, MSU heç vaxt öz alimlərinin e-mail hesablarını bağlamır. Məsələn, beş il bundan qabaq mənim adıma açılan MSU e-maili hələ də işləyir. Məhz buna görə də, mən bu universiteti çox sevirəm.

Minnesotaya səfərimin isə əsas məqsədi köhnə dostum Joe Magneri görmək idi. Joe Magnerlə mən beş il bundan əvvəl konfransda tanış olmuşam. Bu insanla əlaqələrimiz həmişə olub və indi də davam edir. Bu dəfəki səfərdə Joe Magner məni University of Minnesota-ya dəvət etdi. Mən onun dərslərinin birində mühazirə oxumalı oldum. Daha sonra məni həyat yoldaşı, qızı və kürəkəni ilə tanış etdi. Onlarla birlikdə italyan restoranında olan şam yeməyi çox ləzzətli idi.

## Geriyə dönüş

Ailə üzvlərim məndən 10 gün qabaq gəlməli idilər. Onların uçuş bileti Los-Anceles şəhərindən idi. Mən Sakramentodan Los-Ancelesə bilet almadım və qərara gəldim ki, onları Los-Ancelesə maşınla aparım və həm də bir-iki gün ərzində Los-Ancelesi gəzək. Sahilboyu maşınla çox gözəl yerlərdən keçə-keçə gedib, təxminən 7-8 saata Los-Ancelesə çatdıq. Hollovud və DisneyLəndi gəzdik. Daha sonra onları yola salıb geriyə döndüm. 10 gündən sonra isə özüm geriyə qayıtdım.

Başqa sənət sahiblərindən fərqli olaraq, elmi işçilərin və müəllimlərin Amerikada olmaq imkanları daha çoxdur. Bu imkan Amerikanın müxtəlif təhsil və elm proqramları tərəfindən yaradılır. Ona görə də, müəllimlərimizə məsləhət görərdim ki, bu imkanlardan mütləq istifadə etsinlər. Mən özüm Amerikada iki dəfə, özü də uzun müddətə olmuşam. Birinci səfərim JFDP, ikinci səfərim isə Fulbright proqramı vasitəsilə oldu. İndi dəqiq bilirəm ki, mən ora yenə də gedəcəyəm. Tək mən yox, Məhəmməd də, Emil də, həyat yoldaşım da orada olacaq. Məhəmməd öz uşaqlığını Davisi və Kaliforniyanı bir daha gəzməklə yada salacaq, oranın mehriban və gülərüz insanlarını bir daha görəcək. Mütləq...

**Rövşən Abbasov**

# KEÇMİŞİN FƏLSƏFƏSİ VƏ YA TARİX NECƏ YAZILIR?

*Əvvəli jurnalın 284-cü (aprel 2010), 286-287-ci (iyun 2010 -iyul 2010), 288 - 298 - ci (sentyabr 2010 - sentyabr 2011) nömrələrində*

*Hamlet İSAXANLI*



***Keçmiş keçib gedib. Bu, məntiqi cəhətdən həqiqət olsa da, o qədər də sadə həqiqət deyil. Keçib gedən bizim keçmişimizdir, biz o keçmişdən əmələ gəlmişik. Kimliyimizi, mahiyyətimizi o keçmişsiz təsəvvür etmək mümkün deyil. Biz öz keçmişimizə bağlıyıq. Biz keçmişimizin davamıyıq.***

***Bəşəriyyətin keçmişi necə olub? Bu barədə əfsanələr, miflər və tarix söz deyir. Tarix daha dəqiq məlumat verməyə çalışır. Əslində, biz keçmişi tam deyil, tarixin bizə söylədiyi qədər bilirik. Başqa sözlə desək, tarixin məzmunu keçmiş haqqında bildiklərimiz və öyrənib yazdıqlarımızdan ibarətdir. Tarixin məzmunu və tutumu ayrı-ayrı şəxslərin, tarixçilərin yazıb toplaya bildiyi qədərdir. Tarix subyektivdir, nisbidir, tarix yazanların iradəsindən, ideyasından, şəxsiyyətindən, gücündən müəyyən dərəcədə asılıdır.***

***Keçmişin təbiəti və ruhu nədir? Keçmiş necə dərk olunur? Bəlkə keçmiş kəşf olunur? Keçmişin dərkində subyektivlik varsa, keçmişi öyrənən tarix nədir, elmdir, yoxsa sənət? Tarixi subyektiv edən hansı amillərdir? Tarix gözəldir; bu gözəllik öz heyranlarını yoldan, başdan çıxarmırmı, tarix təhlükə törədə bilərmi? Tarix necə yazılır və ya necə yazılsa yaxşıdır?***

***Bu və buna bənzər suallar tarixin fəlsəfəsinə aiddir. Bu yazı keçmişdə baş verənlərin dərki ilə məşğul olan tarixin mahiyyəti haqqındadır. Elm və sənətin qovşağında yer tutan tarixin fəlsəfəsi, çox güman ki, tək tarixçilərə və filosoflara deyil, bəşəri düşüncələrə dalan hər kəsə maraqlıdır.***

## Ənənə, kollektiv yaddaş və tarix

Sürətlə dəyişən dünyada ənənəyə, yəni müəyyən sabitliyə, rahatlığa ehtiyac duyulur. Ənənə həm günümüzdə görünən izləri ilə, həm də hissi-emosional yolla keçmişi bu günə bağlayır. Adətlərin bəzisini, zəruri dəyişmələrlə, ənənəyə çevirmək olur. Keçmişdən indiki zamana gəlib çatmış müəyyən inanclar, dəyərlər, adətlər və davranış normaları təkrar oluna-oluna ənənəyə çevrilir. Hətta keçmiş, "dəbdən düşmüş" düşüncə tərzi də, gücünün azalmasına baxmayaraq tamam yox olmur, yaşamaqda davam edir. Ənənə keçmişin gücü deməkdir, "keçmiş davam edir" deməkdir. Ənənə donub qalmır, çağdaş dövrün ideologiyasına uyğunlaşdırılır. Tarixçilər sanki keçmişi bərpa edirlər, amma onlar keçmişin hələ yaşamaqda olan hakimiyyəti ilə də qarşılaşır və bunu nəzərə almalı olurlar.

Tarix yaddaşın məhz bu yolla canlandırılması və yenidən tamamlanmasıdır. Lakin bu, fərdin yaddaşı deyil, kollektiv yaddaşdır, "xalqın yaddaşı"dır. Cəmiyyətin rəsmi yaddaşı inşa olunur (elmilik donuna bürünərək), yeni keçmiş yaradılır və bunu bu günün milli, siyasi, ideoloji memar və inşaatçıları edir. Mövcud ənənə çox zaman qədim ənənələrin özü və ya davamı deyil. Yalanlar təkrarlanıb əfsanə olur, əfsanələr danışılır, yazıya keçir, ayaq açır, təkrarlana-təkrarlana ənənəyə çevrilir. Lakin, "yeni" ənənələrin rasional kökü də ola bilər, onlar unudulmuş ənənələrin yenidən canlandırılması olaraq "təbii" təsir bağışlaya bilir. Tarix "ənənələrin kəşfi"dir (E. Hobsbawn).[1]



*Koroğlu*

"**Koroğlu**" dastanının baş qəhrəmanı Osmanlı dövrünün rəsmi sənədlərində və qismən də Türkiyə Cümhuriyyəti zamanı yolkəsən, quldur kimi tanınır və tanıdılırdı. Sovet Azərbaycanında isə Koroğlu məzlumların müdafiəçisi, böyük xalq qəhrəmanı kimi tərənnüm olunurdu. Azərbaycanlıların ən sevdiyi dastan "Koroğlu" idi. Bu, həm aşıq məclislərində, həm orta və ali məktəblərdə, elm ocaqlarında, radio və televiziyada, kino və incəsənətdə özünü çox güclü şəkildə büruzə verirdi. Dastanın M. Təhmasib tərəfindən tərtib edilmiş variantında "Koroğlunun qocalığı" qolunda Koroğlu qoca vaxtında da sakit həyat keçirmək istəmədiyini (həmçinin buna məcbur edildiyini) dilə gətirərək deyir: "Nə qədər ki xotkarlar, padşahlar, paşalar, xanlar bu namərd dünyada ağalıq eləyirlər, mən Koroğluluğu yerə qoya bilməyəcəyəm. Nə qədər ki, onlar var, biz də varıq!" Bu, həmçi-

[1] Ənənə və tarix haqqında bax: E. Hobsbawn, T. Ranger. The Invention of Tradition. Cambridge University Press, 1992

nin folklorun yazıya alınması, şifahi mədəniyyətdən yazılı mədəniyyətə (bu halda çap mədəniyyətinə) keçid zamanı kollektiv yaddaşda baş verən dəyişmələrə də işarədir. Yazıya köçürülmə ilə dastanın danışıq və ifa mədəniyyətinə xas olan rəngarəngliyə son qoyuldu və ya ən azı böyük zərbə vuruldu (bu rəngarənglik aşıqlarda xeyli qalsa da). Yazı bir çox fərdi yaddaşların sistemləşib kollektiv yaddaşa keçməsini mühüm dərəcədə gücləndirdi. Yazıya qədərki yaddaş unudulub yox ola bilər və ya arası kəsilib sonra sanki yenidən doğula bilər, daha doğrusu, yeni çalarlarla geri qaytarıla bilər. "Koroğlu" dastanını əsasən davamlı, kəsintisiz tarixi-kollektiv yaddaşa, "Dədəm Qorqud kitabı"nı isə kəsilmiş, qırılmış, unudulmuş kollektiv yaddaşın yenidən bərpasına misal olaraq göstərmək mümkündür.



*Babək*

Bənzər parlaq misal olaraq tarixi **Babək** hərəkatının və Babək surətinin İran və ərəb, xüsusilə Azərbaycan tarixçiliyində müxtəlif rənglərlə yazılmasını göstərmək olar. Sovet Azərbaycanında (və bütövlükdə sovet tarixşünaslığında) Babək yadelli işğalçılara qarşı böyük üsyan qaldıran, iyirmi ilə yaxın Xilafəti lərzəyə salan xalq qəhrəmanı kimi qəbul edilir, onun islam dininin yayılmasına qarşı olduğu da xüsusi vurğulanırdı. Təbii ki, o, doğrudan da qəhrəman və igid sərkərdə idi, bunu heç kim, o cümlədən xilafət tarixçiləri inkar etmir. Babəklə vuruşan, sonunda onu məğlub edən digər qəhrəman sərkərdə **Afşin**[2] (ölümü 841-ci il) isə Azərbaycan tarixində istilaçı, xalq hərəkatını qana bulayan düşmən ordusunun başçısıdır, "pis adam"dır. İslamı qoruyan, hətta milliyyətcə türk olması ehtimalı da istisna olunmayan Afşin bu gün əsas əhalisi müsəlman olan Azərbaycanın (rəsmi Azərbaycan tarixinin) gözündə sevimli qəhrəman surəti deyil. İran İslam Respublikası Azərbaycanında (Güney Azərbaycanda) yerləşən və Babəkin məskəni sayılan Ərk qalası isə İran Azərbaycan xalqının milli kimliyinə aid rəmz kimi qəbul edilir, xalq hər il bu qalaya könüllü yürüşə çıxır, bu yürüş bayrama çevrilir.

Tarixçi ənənələrdə yaşayan və ilkin şəklini dəyişmiş xatirələri aşkar etməyə çalışır. Tarixi hadisənin iştirakçılarından, şahid və müasirlərindən qalan xatirələr və yazılı məlumatlar çox olmur. Özünü həmin hadisənin (və daha çox həmin hadisənin aparıcısı olan ideallaşdırılmış şəxsin!) varisi, davamçısı sayan cəmiyyət bu hadisənin və ya şəxsin obrazı üzərində işləməli olur. Çox müxtəlif növ təkrarlar vasitəsilə kollektiv yaddaş yaradılır. Kollektiv yaddaş fenomeni və onun tarixə çevrilməsi prosesinin, eləcə də tarixçi, filosof və sosioloqların ideyalarının təsvirində, qismən də olsa, Patrick H. Hutton'un icmalından istifadə edəcəyik *("Tarix yaddaş sənəti kimi" -orijinalda "History as an Art of Memory").*

Xatirələr və təkrardan kollektiv yaddaş, "xalq yaddaşı" yaranır. Xatırlamaq hələ anlamaq demək deyil. Təkrarlar xatirəni cilalayır, hamarlaşdırır, daha yaxşı anlaşılan və yadda qalan şəklə salır. Tarixi romanlar və dərs kitabları, qəzet, jurnal, radio və televiziya, sənədli və bədii filmlər, bayramlar, yubileylər və digər mərasimlər "ümumxalq yaddaşı"nı formalaşdıran üsullar, vasitələrdir. Yaddaşın işi keçmişi bu günə gətirməkdir, amma bu iş kütləviləşəndə əlavələr, müxtəlif rənglər və çalarlarla sanki yenidən doğulur. Kollektiv yaddaş keçmişin və ya tarixin obrazı olsa da, sistemli iş onu rəsmi tarixə, xalqın tarixinə, xalqın mədəniyyət ünsürünə çevirir. Historisizm (tarixvarilik, tarixsellik?), yəni bir zaman baş verənlərin indi bərpa oluna bilməsini qəbul edən cərəyan bu prosesə qanuni gözlə baxır. İnşa olunmuş kollektiv yaddaşa tarixi yaddaş da demək olar; tarixi yaddaş deyilən şey tarixi bilik və ya tarixi şüurla eyniləşir, onlar arasındakı fərqlər kiçilir.[3] Kollektiv yaddaşın yaradılması ideyalar tarixinə deyil, sosial tarixə yaxındır. Onu da qeyd edək ki, fərdi yaddaşın, insan yaddaşının hərəkətverici qüvvələri tam məlum deyil, ideya və nəticələr tam aydın deyil, psixoloqların müşahidələri, zənnimcə, müəyyənliyə gətirib çıxarmayıb.[4]



*Giambattista Vico*

**Giambattista Vico** (1668-1744) məşğul olduğu ritorika sənətinin dərin köklərini araşdırdığı "Scienza Nuova" (1725; "Yeni elm") əsərini yazdı və tarixdə məhz bu əsəri ilə qaldı.[5] O, şifahi mədəniyyətlərdə kollektiv yaddaş mexanizmini araş-

[2] Elm və Sənət Məclisi 1-10, Tərtibçi və redaktor – Hamlet İsaxanlı. Xəzər Universitəsi Nəşriyyatı, 2008, səh. 73-95

[3] Patrick H. Hutton. History as an Art of Memory. Vermont, 1993. Rusca: Патрик Х. Хаттон История как искусство памяти. Издательство «Владимир Даль», Санкт-Петербург, 2004

[4] Israel Rosenfield. The Invention of Memory. Basic Books, 1988

[5] Вико Дж. Основания новой науки об общей природе наций. М., Киев, REFL-book, ИСА, 1994

dırdı. İnsanlar, mümkündür ki, dildən əvvəl işarələrlə, yəni müəyyən mənada heroqliflərlə ünsiyyət qururdular (?!) Sonra şifahi ünsiyyət, sonra "vulqar hərflər" gəldi. Tarixçinin vəzifəsi poeziyanın hegemon olduğu ən qədim dövrün poetik kodlarını açmaq, poetik formada mövcud olan müdrikliyi anlamaqdır. Vico Roma hüququnun kökünün Yunan eposu kimi şifahi ənənələrdə olduğunu və dildən-dilə keçdiyini iddia edirdi. Homerə aid əsərlərin şifahi ədəbiyyat olduğunu, Homerin sadəcə onları oxuduğunu, onun ümumiləşdirici obraz olduğunu (kor rapsod) iddia edirdi. Vico öz metodunu fəlsəfə və filologiyanın sintezi sayırdı. Tarix təkrarlar üzərində qurulur. Tarix dairəvi hərəkətdədir, şifahi ənənənin kollektiv yaddaşı dövr edir. Tarix poetik ilham və xəyal dövründə doğulur, sonra nəsr ilə mücərrədlik dövrünə keçir. "Onun tarixi dinamika modeli dalğaya daha çox oxşayır: sahilə dəyir, sonra daha böyük güc qazanmaq üçün geri çəkilir".[6] "Filosoflar Allahın yaratdığı və buna görə yalnız onun dərk edə biləcəyi təbiəti ciddi surətdə öyrənməyə cəhd edirlər, lakin insanlar tərəfindən yaradılmış və buna görə insanların əli çata bilən millətlər dünyası, yəni vətəndaşlıq dünyası haqqında düşünməyə laqeyd olublar".[7]


*Maurice Halbwachs*

Başlanğıcda qeyd etdiyimiz kimi, sürətlə dəyişən dünyada özünü itirən insanlar müəyyən sabitlik istəyirlər, bu isə ənənələrin dirçəldilməsini, daha doğrusu, kəşf edilməsini tələb edir. Dur-keim'in tələbəsi, fransız filosofu və sosioloqu **Maurice Halbwachs'in** (1877-1945) ölümündən sonra, 1950-də nəşr olunan "La Mémoire Collective" ("Kollektiv yaddaş haqqında") kitabı bu mövzuya həsr olunmuş ilk ciddi əsər hesab edilə bilər. O, ənənələrin tarixşünaslığını inkişaf etdirdi. Yaddaş ancaq sosial dinamikaya söykənərsə unudulmayıb böyüyə bilər. Fərdi yaddaş və təsəvvür uzunömürlü deyil, çox tez dumana bürünür və unudulur. Təkrar olunanlar qalır və kollektiv yaddaşa çevrilir. Bəzi şəxs və hadisələr yadda qalır, digərləri yaddan çıxır, ixtisara düşür; bu, Freud nəzəriyyəsinə ziddir, bilincaltı sanki unudulur, rol oynamır.

**S. Freud** hesab edirdi ki, keçmişi yaxşı bilmək gələcəyimiz üçün faydalıdır. Bilincaltı keçmişimizlə, kimliyimizlə bağlıdır. Bu baxımdan, psixoanaliz sanki yaddaş sənəti (əslində isə itirilmiş xatirələrin oxunması üsulu) kimi şərh oluna bilər. Yuxugörmələr xatirələrlə doludur. Psixoanaliz tarixi şəxsiyyətlərin fəaliyyət motivlərini izah edə bilər. Gerçəklik kimi qələmə verilən hadisə illüziyadır, xəyal olunandır, obrazdır. Özünü tanımaq, özünü dərk etmək insanın tam, o cümlədən gizli, açıq söylənməyən tarixini bilməkdir. Bu, bilincaltında olanın, basdırılmış xatirənin üzə çıxarılmasıdır. Fərdin uşaqlıq xatirələri və xəyalları olduğu kimi, miflərin öyrənilməsi xalqın, qrupun itirilmiş yaddaşının, xatirələrinin qalığıdır. Freudun yaddaşın kəsilməzliyi fikrinin çağdaş elmdə tərəfdarları çox deyil.


*S. Freud*

Halbwachs tarixi yaddaşdan ayırır, "canlı yaddaş bitəndə tarix başlayır" deyirdi. Yaddaş keçmişin təhrif olunmuş surətini verir, üstəlik, gerçəkliyin dəyişməsinə baxmayaraq bu surətdən yapışıb qalır. Tarix isə sənədləri, keçmişin əsas izlərini araşdırmaqla keçmişin doğruya daha yaxın surətini əldə etməyə çalışan elmi sənətdir; o, yaddaşın iki tərəfi olduğunu irəli sürürdü: şüurdakı stereotiplər və xatirələr. Stereotiplər bizdən asılı olmadan formalaşır. Xüsusi mərasimlər, siyasi və milli səciyyə daşıyan mərasimlər - kommemorasiyalar stereotipləri möhkəmlədir.

Xatirələr və onların əsasında sosial sifarişə, cari dövrün ruhuna və tələbatına uyğun şəkildə inşa olunmuş kollektiv yaddaş daim təftiş olunur. Bu isə əvvəlki dövrlərin kollektiv yaddaşını tam bərpa etməyin mümkün olmadığını göstərir. Ümumiyyətlə, çox sürətlə dəyişən dövrlərdə kollektiv yaddaş da tez-tez dəyişir, içində ziddiyyətli məqamlar zühur edə bilir, sonrakı cilalanma "işi düzəldir" (tam və ya əsasən). Son nəticədə sanki fərddən kənarda mövcud olan və fərdi öz çərçivələri içində saxlamağa çalışan (və buna müvəffəq olan) siyasi alət və ya milli kimlik, kollektiv yaddaş hakimiyyəti yaranır. Ənənələr və sosial dinamika bir-birini formalaşdırmaq gücünə malikdirlər. "Annales məktəbi" və onun davamçıları kollektiv yaddaşı və mentallığı həm mövzu olaraq, həm də araşdırma üsulu kimi tarixşünaslığa daxil etdilər.

Fransız tarixçisi **Philippe Aries** (1914-1984)

---

[6] Патрик X. Хаттон. История как искусство памяти. Издательство «Владимир Даль», Санкт-Петербург, 2004, səh. 134

[7] Вико Дж. Основания новой науки об общей природе наций. М., Киев, REFL-book, ИСА, 1994, səh. 159



*Philippe Aries*

kollektiv mentallıqlar tarixi, xalq mənəviyyatı tarixi, uşaqlıq tarixi, ölümə münasibət tarixi haqqında maraqlı əsərlər müəllifidir. Ənənə yaddaş üfüqünü daha dərinlərə aparır, hərçənd ki, üfüq özü dumanlı və alçatmazdır.[8] Yaxın keçmişdən, yəni canlı yaddaşda qalan keçmişdən uzaq keçmişə hərəkət –bu, ənənədən tarixə doğru hərəkət deməkdir. Tarixçilər sadəcə keçmişin bərpası ilə məşğul deyillər, onlar keçmişin yaşamaqda olan hakimiyyəti ilə qarşılaşırlar. "Tarixin zamanı" ("Le Temps de l'histoire", 1954) əsərində çağdaş tarixçilərin bəzi ənənələri nəzərə almadıqlarını, subyektiv tarixşünaslığın gözəgörünməz toruna düşdüklərini göstərməyə çalışıb. Dövlətlər uzaq əraziləri koloniyalaşdırdıqları kimi, onların tarixçiləri də keçmişi koloniyalaşdırmışlar. Tarix bugünkü dövlətin yaranma tarixinə çevrilib.[9] Tarixlərin çoxu royalist, hökmdarpərəst tarixdir. Saraylarda universal (əsasən siyasi) xronikalar yaradılır, ayrı-ayrı ənənələr və dövrlər istədikləri şəkildə birləşdirilirdi. Boş qalan yerlər doldurulur və yeniyə yer saxlanmırdı. Əsl tarix isə keçmişin plüralizmini, müxtəlif ritmlərini, onun çağdaş dövr insanına əcaib, qəribə görünən cəhətlərini göstərməyə çalışmalıdır.

Əsasən 16-18-ci əsrlər Avropasına məxsus uşaqlıq tarixi və ailə haqqında kitabı 1960-da fransızca, 1962-də ingiliscə ("Centuries of Childhood" adı ilə) nəşr edildi. 1977-də nəşr olunmuş kitabında ("L'Homme devant la mort") isə analoji yanaşma ilə ölümə münasibət tarixi şərh olunmuşdu. Uşaqlıq bioloji mahiyyətə görə deyil, sosial varlıq və mühit baxımından öyrənilmiş, uşaqlıq konsepsiyasının dəyişməsi, tərəqqisi tarixi irəli sürülmüşdü. Onun orta əsrlərdə uşaqlara qarşı biganəlik konsepsiyasındakı müəyyən metodoloji qüsurlar tənqidlərə məruz qalsa da, hər iki kitabın adı tarixşünaslığın dəyərli əsərləri sırasında çəkilməkdədir.

Mentalitetlərin tədqiqi tarixi ideallar ilə sosial gerçəkliklər arasında dəyişən münasibətlərin öyrənilməsinə kömək edir. Orta əsrlərin sosial-iqtisadi tarixi üzrə tanınmış fransalı mütəxəssis **Georges Duby** (1919-1996) mentalitet tarixini ciddi araşdırmış, yeni (ikinci) minilliyin Avropasını öyrənmişdi. Ənənəvi mədəniyyətdən çağdaş Avropa mədəniyyətinə keçid zamanı (16-19-cu əsrlər) mənəviyyat necə dəyişib? Bu, ümumilikdən, ümumi yaşayışdan (necə sağ qalmaq daxil olmaqla) özəl həyat idealına (özünügerçəkləşdirmə daxil olmaqla) keçid deyilmi?! Böyük ailədən kiçik ailəyə keçiddən sonra ailədə münasibətlər, emosional intensivlik artdı. Yeri gəlmişkən, onun maraqlı və mübahisəli bir tezisini də yada salaq: səlib (xaç) səfərlərinin səbəbi vərəsəlikdən heç nə almayan, lakin yaxşı silahlanmış ikinci və üçüncü oğulların (ən azı Fransada) Levantda bəxtini sınamaq arzusu ilə bağlıdır.



*Georges Duby*

Öz fəlsəfi və tarixi əsərlərində mürəkkəb dil və forma tətbiq edən **Michel Foucault** (1926-1984) ənənəni tarixi tədqiqatın əsası kimi inkar edir. Onun dekonstruktivist baxışına görə kollektiv yaddaş müxtəlif tarixi dövrlərin mənasını bir-biri ilə əlaqələndirməyə qadir deyil; kollektiv yaddaş bütöv ola bilməz. Tarix yaddaşın arxeologiyasıdır. Çağdaş güclər ürəklərindən keçən və həqiqət kimi qələmə vermək istədiklərini qanuniləşdirmək üçün tarixdən istifadə edirlər. Francis Bacona məxsus "bilik-gücdür" (knowledge is power) şüarına qarşı Foucault "güc bilik törədir" prinsipini qoydu. Lakin dəqiq yön verilmiş bilik də güc yarada bilir. O, keçmişdəki müəlliflə indiki oxucu arasında mətni yerləşdirir və



*Michel Foucault*

[8] Патрик Х. Хаттон. История как искусство памяти. Издательство «Владимир Даль», Санкт-Петербург, 2004, səh. 237-238

[9] Патрик Х. Хаттон. История как искусство памяти. Издательство «Владимир Даль», Санкт-Петербург, 2004, səh. 240



*Pierre Nora*

dillə bəyan edilən formal düşüncə tərzinin (diskursun) tarixyazmada çərçivə rolu oynadığını iddia edir. ("Archaeology of Knowledge", 1972)

Franzsız tarixçisi **Pierre Nora** (1931) Fransız kimliyi və yaddaşla tarixin münasibəti məsələlərini araşdırmışdır. 1984–1992-ci illərdə yazılmış "Les Lieux de mémoire" ("Yaddaşın məkanı", ingiliscəyə qısaldılmış tərcümədə "Realms of Memory", Columbia University Press, 1996–1998) əsəri fransız milli yaddaşı haqqında sanballı əsəri ilə geniş tanındı. Yaddaş xatirəni müqəddəsləşdirir, tarix isə onu sıxışdırır, adiləşdirir. Yaddaş tarix üçün şübhəli qaynaqdır. Yaddaş məkanının kəşfi, aşkar edilməsi arxeoloji işdir. Sənədlər, mətnlər artefaktlardır, onları təmizləmək lazımdır. Tarixin sürətinin artması keçmişi bizdən sürətlə uzaqlaşdırır; bu, kimliyimizə təsir edir.

Bir sosial ünsiyyət dövrünün sonra gələn yeni, daha geniş tutumlu və daha sürətli ünsiyyət dövrü ilə əvəzlənməsi kollektiv və ya sosial yaddaşın yeni məzmun və yeni forma almasına səbəb olur. Şifahi ünsiyyət, əlyazma kitabı şəklində olan yazılı ünsiyyət, kitab çapı dövrü, kağız əsaslı mədəniyyətdən keyfiyyətcə fərqli elektromaqnit dalğa əsaslı radio-telefon-televiziya dövrü və nəhayət, internet dövrü yaddaşın mahiyyətinə və bununla da keçmişə münasibətə, keçmişin dərkinə təsir edir. Bu məsələ bir çox tarixçi, sosioloq, ədəbiyyatçı və mədəniyyətşünasların diqqətini cəlb etmişdir.



*Marshall McLuhan*

Kanada filosofu, ədəbiyyatçı və media nəzəriyyəçisi **Marshall McLuhan** (1911-1980) yazılı və çap mədəniyyətinin, elektron medianın və rəqəmsal aləmin sosial təsirlərini, ünsiyyət vasitələrinin dəyişməsinin təfəkkür tərzini dəyişdirməyə cəhd etdiyini irəli sürmüş və əsaslandırmağa çalışmışdı. "The Gutenberg galaxy: The Making of Typographic Man" (University of Toronto Press, 1962) kitabı ilə məşhurlaşdı. O, iddia edirdi ki, çap işinin geniş vüsət qazanması nəticəsində kollektivizm zəiflədi və fərdiyyətçilik gücləndi. Media insan hisslərinin, bədən və beyninin "genişlənməsidir". "Televiziya sayəsində dünya böyük kəndə çevrildi, verilişlərin böyük hissəsi kənd dedi-qodularının yenidən canlandırılması, bərpasıdır". "Qlobal kənd" ("the global village") kəlməsinin müəllifidir; kommunikasiya texnologiyalarının inkişafı dünyanı "qlobal kənd"ə çevirdi. Peyklər dövrü isə Yer kürəsini "qlobal teatr"a döndərdi. Texnoloji və xüsusi halda media determinizmindən bəhs etmiş, çağdaş media texnologiyalarının təkcə informasiya daşıyıcı rolu oynamadıqlarını, dünyanı, gerçəkliyi konsepsiyalaşdıran, kodlaşdıran, təsnif edən güc olduqlarını söyləyirdi.



*Walter J. Ong*

Amerikan mədəniyyətşünası **Walter J. Ong** (1912-2003) "Şifahi və yazılı ənənələr" ("Orality and Literacy: The Technologizing of the Word", 1982) əsərində şifahi sözün indi də öz gücünü saxladığını irəli sürdü. Yazı texnologiyası (yazı da od, buxar mühərriki,... kimi texnologiyadır) ilə yanaşı yeni şifahi mədəniyyət də mövcuddur: telefon, televiziya, radio şifahi mədəniyyəti yeni şəkildə gücləndirdi. Onlara "ikinci lay şifahi mədəniyyət" demək olar. Müəyyən təbəqələrdə özünü göstərən, əhatə dairəsi nisbətən dar olan əlyazma mədəniyyəti geniş sosial xarakterli çap kitab mədəniyyətinə keçdi. Mediakratik mədəniyyət və elektron üsullar isə çap mədəniyyətindən qat-qat çox sürətli olduğu üçün düşüncə tərzini silkələdi, titrətdi. Yazı mücərrəd düşüncəni mühüm dərəcədə gücləndirdi (yazı özü mücərrədlikdir). Mədəniyyət (şifahi, yazılı, çap, elektron), ənənə, yaddaş və tarix arasındakı əlaqələr geniş müzakirə mövzusuna çevrildi.

*(davam edəcək)*

# XARİCDƏ TƏHSİLƏ BÖYÜK DÖVLƏT QAYĞISI

*Azərbaycan gənclərinin xaricdə təhsil alması üçün ayrılan vəsaitin həcmi 15 mln. manata çatıb*



Bu barədə təhsil naziri Misir Mərdanov bildirib. Onun sözlərinə görə, bu il "Xaricdə təhsil üzrə Dövlət Proqramı" çərçivəsində 15 mln. manat ayrılıb: "Bunun müəyyən hissəsi xərclənib. İlin sonuna kimi qalan hissəsi də xərclənəcək".

Nazir qeyd edib ki, hazırda 800-dən çox azərbaycanlı tələbə xaricdə təhsil alır: "onların sayı getdikcə artır. Təkcə bu il xaricə göndərilənlərin sayı 500-ə yaxın olub. Proqramın icrasına yeni başladığımız vaxtlarda xaricdə təhsil üçün 66 tələbə göndərmişdik".

# AZƏRBAYCAN TƏHSİL XƏRCLƏRİNİ ARTIRIR

*Gələn il Azərbaycanda təhsil xərcləri üçün 1,575,900 milyon manat vəsait ayrılacaq. 2011-ci illə müqayisədə bu vəsait 12,6 faiz, 2010-cu illə müqayisədə isə 33.5 faiz çoxdur*

Maliyyə Nazirliyindən verilən məlumata görə, bu barədə 2012-ci ilin Dövlət Büdcəsi Layihəsində qeyd olunub. Təhsil xərclərinə ayrılan vəsaitin dövlət büdcəsi xərclərinin tərkibində xüsusi çəkisi 9,3 faiz olacaq. Gələn il məktəblərin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı üçün 16,5 milyon, ali təhsil sistemində yeni maliyyələşmə mexanizminin tətbiqi ilə əlaqədar 89,6 milyon, məktəbəqədər təhsilin maliyyələşdirilməsi üçün 8,5 milyon, ümumtəhsil məktəblərində oxuyan şagirdlərin pulsuz dərsliklərlə təminatı üçün 8,1 milyon, maddi-texniki təminatın möhkəmləndirilməsinə 4,5 milyon, təhsil müəssisələrinin yenidən qurulması və əsaslı təmiri üçün 3 milyon, ümumtəhsil müəssisələrinə tədris laboratoriya avadanlıqlarının alınması üçün 2,5 milyon, məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir informasiya texnologiyaları ilə təchizatına dair tədbirlərə 2,2 milyon, orta ixtisas təhsili sistemində islahatlara 1,9 milyon, texniki peşə təhsilinin inkişafı proqramının maliyyə təminatı üçün 1,7 milyon, "Dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi və alternativ qayğı Dövlət Proqramı"nın icrası üçün 1,4 milyon, ən yaxşı ümumtəhsil məktəbi və ən yaxşı müəllim mükafatı üçün 1 milyon, gənc istedadlar üçün xüsusi təqaüdlərin ödənilməsi ilə bağlı xərclərə 0,3 milyon manat vəsait xərclənəcək.

THE WALL STREET JOURNAL.

# ABŞ-DA MƏZUNLARIN BİLİK SƏVİYYƏSİ AŞAĞI DÜŞMÜŞDÜR

The Washington Post

ABŞ-da orta məktəb məzunlarının ali məktəblərə hazırlıq səviyyəsi aşağı düşmüşdür.

Bu barədə sentyabrın 15-də Wall Street Journal qəzeti son imtahanların nəticələrini misal göstərərək xəbər verir.

İmtahanlar riyaziyyat, oxu və yazı fənlərindən verilmişdir. Onların nəticələri diqqətlə izlənilir. Çünki ABŞ-ın ən nüfuzlu kolleclərinə daxil olmaq istəyən məzunların bilik səviyyəsi məhz bu imtahanların nəticələri üzrə qiymətləndirilir.

Oxu üzrə məzunların nəticələri 2005-ci ildən, yazı üzrə 2006-cı ildən, yəni onun ilk dəfə qiymətləndirilməyə başlandığı vaxtdan dönmədən aşağı düşür, riyaziyyat üzrə nəticələrin aşağı düşməsi isə 2010-cu ildən başlayaraq müşahidə edilmişdir.

Qəzet yazır ki, bu nəticələr 2011-ci ildə kolleclərə qəbul imtahanlarının yekunlarından sonra dərc edilmişdir. İmtahanlar göstərmişdir ki, 1,6 milyon abituriyentin yalnız 43 faizi təhsili davam etdirmək üçün kifayət qədər biliyə malikdir.

Başqa bir qəzet – Washington Post yazır ki, təhsil sahəsində məzunların və abituriyentlərin qiymətlərinin aşağı olması qəti tədbirlər görülməsi üçün bir çox Amerika məmurlarına siqnal olacaqdır.

Qəzetlərin yazdığına görə, kolleclərə qəbula hazırlaşmaq üçün yuxarı siniflərdə məktəblilərə daha dərindən dərs keçilməlidir.

# НОЧНАЯ ПРОГУЛКА ПО ЛОНДОНСКОМУ МЕТРО

***«Основная идея стереотипа – упрощение. Вместо изучения проблемы во всей ее многогранности – это может быть так, а может быть иначе – вы имеете одно большое утверждение: это так!»***

*Чинуа Ачебе*
*(Нигерийский писатель)*



Ночь. На часах 11:45. Я сажусь в Лондонское метро, чтобы проехать от станции Ковэнт Гарден до дома на Ливерпуль Стэйшн. Вокруг бесчисленное количество людей, торопящихся не упустить последний поезд, который доставит их к месту назначения. Мне не терпится побыстрее доехать до своей станции, и я начинаю делать то, что люди обычно делают, для того чтобы убить время.

Начинаю с того, что допускаю до мозга поток ненужных и бесполезных мыслей. В конечном счете я ловлю себя на том, что опять взялась за свое любимое занятие: рассматривание и анализирование людей, сидящих и стоящих вокруг меня; обращать внимание на то, как они выглядят и пытаться догадаться, о чем они думают. Но разве внешность - показатель того, кем они на самом деле являются и что именно происходит в их жизни?

Молодой пакистанец, стоящий напротив, выглядит очень консервативно и раздраженно. Но следует задуматься, отражает ли внешность его настоящий внутренний мир? Как человек, родившийся в Азербайджане, который так же является мусульманской страной (хоть и не могу похвастать глубокими знаниями об Исламе), правильно ли думаю, что я смогу хотя бы приблизительно прочесть его мысли? Давайте попробуем! Скорее всего, он глубоко не одобряет и осуждает людей вокруг себя, потому что большая их часть – в нетрезвом состоянии. Это - первая мысль, которая пришла как в мою голову, так и, скорее всего, всем остальным при виде молодого пакистанца с длинной бородой, с очень традиционной наружностью и, как бы иронично это не звучало, с подозрительным взглядом по сторонам. А может быть и так, что он обычный человек, который не может дождаться минуты оказаться дома рядом с родными и друзьями, или же может ему просто не терпится дойти до своей кровати после долгого и трудного рабочего дня. Скорее всего, ему совсем нет дела до окружающих его людей...

А что насчет парочки среднего возраста и среднего класса, сидящей напротив меня? Я вижу мужчину с обесцвеченными волосами и поблекшим лицом вместе с женщиной с короткой челкой и полусонным и усталым выражением лица. Они одеты в очень простую и непривлекательную одежду. В обычное время мы бы построили нелепое предубеждение об этих людях, в котором описывалось бы то, как эта парочка едет в свое убогое жилище, где они живут скучной жизнью со своей большой, грязной собакой, от которой исходит очень сильный смрад. Однако, всмотревшись глубоко в глаза женщины, я замечаю в них мелькание грусти. Она пристально и меланхолично смотрит на своего мужа (который, может, вовсе и не ее муж), и это раскрывает перед нами что-то новое: историю прошлого, о которой мы не имеем ни малейшего представления. А может это их последняя ночь вместе? Или же она не замужем за этим мужчиной и встречается с ним втайне от своего настоящего мужа... А может она на самом деле замужем за этим мужчиной и их ребенок в данный момент лежит в больнице с очень серьезной болезнью?

Мы можем построить миллионы разных стереотипов и придумать нескончаемые небылицы про всех людей, присутствующих в этом поезде. Про мужчину, сидящего рядом с наушниками в ушах и играющего в PSP теннис... Про эту женщину с ватой в ушах, у которой очень усталый и безнадежный взгляд... Про этого молодого мужчину с огромным чемоданом... Что же его ждет? Про черную женщину с прической в стиле «афро» (Прим.: пышная, объемная прическа, модная в 70-х у представителей афроамериканцев)... Про музыкантов, играющих удивительно красивую музыку на выходе из метро... И даже про эту моло-

дую пару, которая выглядит влюбленной и счастливой.

Предоставляю вам возможность самим сделать выводы в соответствии с присущей каждому из нас долей фантазии. Включите свое воображение и придумайте различные истории!..

...Все куда-то торопятся. Некоторым из этих людей не терпится попасть домой, потому что их дома ждут родители, супруги, дети. А некоторых никто и не ждет... Но несмотря на это они тоже торопятся домой, так как устали после долгого дня и очень хочется побыстрее дойти до своей квартиры, снять обувь и заснуть в теплой постели. Может, даже некоторые из этих людей торопятся на работу, так как работают в ночную смену. И, скорее всего, некоторые из них притворяются, что тоже куда-то торопятся, просто ради того, чтобы не отличаться от толпы...

Наконец-то я выбралась на улицу! На улице люди кажутся более счастливыми. Нет беготни, нет тревоги...

Наше первое впечатление о человеке обычно создается в зависимости от некоторых факторов. Некоторые люди считают, что первое впечатление - самое правильное, а еще говорят, что первое впечатление обманчиво. Так чему же верить? Факты, основываясь на которых мы рисуем картину человека, - это социоэкономический статус, интеллектуальный уровень, религия, расовая и этническая принадлежность, пол, гендерные стереотипы, одежда и поведение человека на тот момент, когда мы встретили его и т.д. Мы используем стереотипы и предубеждения почти в каждом аспекте нашей жизни: и дома, и на работе - повсюду. Несмотря на наши предрассудки и ограниченность в повседневной жизни, каждый из нас считает себя либеральным и непредубежденным человеком с широким кругозором. Но пытаемся ли мы заглянуть глубже в жизнь человека, отбросив предвзятость и включив эмпатию и понимание? Разве мы не ведем себя невежественно, не обращая внимания на все человечное, будучи нетолерантными по отношению к людям, которых мы недостаточно хорошо знаем? Или может это только я такая?

В завершение хочется процитировать замечательного русского писателя Антона Чехова, который сказал: «В каждом из нас слишком много винтов, колес и клапанов, чтобы мы могли судить друг о друге по первому впечатлению или по двум - трем внешним признакам».

**Улькер Исаева**
*1 news.az*
*03.10.2011*









Jurnalımızın ötən nömrəsində Xəzər Universitetinin "Elmi və Humanitar Biliyə Açıq Giriş Haqqında Berlin Bəyannaməsi"ni imzalayanların sırasına daxil edildiyi haqqında xəbər vermişdik *(sentyabr, 2011)*. Bəyannamənin Azərbaycan dilində mətnini təqdim edirik.

# ELMİ VƏ HUMANİTAR BİLİYƏ AÇIQ GİRİŞ HAQQINDA BERLİN BƏYANNAMƏSİ

## Preambula

Ümumdünya İnternet şəbəkəsi elmi biliklərin və mədəni irsin yayılması üçün praktiki və iqtisadi şərtləri əsaslı surətdə dəyişdirmişdir. İnternet mədəni irsi də ehtiva edən bəşəri biliklərin geniş və interaktiv təqdimatı üçün ilk dəfə olaraq dünyanın hər hansı bir nöqtəsindən girişə təminat verməklə özünəməxsus şərait yaratmışdır.

Biz, aşağıda imza edənlər, biliklərin yayılması məqsədilə son vaxtlarda getdikcə daha artıq əhəmiyyət kəsb etməkdə olan İnternet şəbəkəsi kimi bir media-mənbənin tükənməz imkanlarından ən səmərəli surətdə istifadə olunması üçün bütün səylərimizi sərf etməyi öz vəzifəmiz hesab edirik. Bununla əlaqədar olan proseslər labüd olaraq elmi nəşrlərin öz təbiətində mühüm dəyişikliklərə gətirib çıxaracaq və elmi keyfiyyət təminatının mövcud sisteminin dəyişməsinin başlanğıcını qoyacaqdır.

Biz bu Berlin Bəyannaməsini Budapeşt Təşəbbüsü (Budapest Open Access Initiative), ECHO Xartiyası (European Cultural Heritage Online) və Betesda şəhərində qəbul olunmuş Nəşrlərə Açıq Giriş haqqında Bəyanatın ruhuna uyğun olaraq tərtib etdik; Bəyannamənin məqsədi – elmi biliyin və insan refleksiyasının qlobal yayılmasının funksional vasitəsi olan İnternet şəbəkəsinin inkişafına dəstək göstərməkdən, həmçinin siyasi qərar qəbul edənlərin təmsilçiləri, elmi tədqiqat təşkilatları, yardım və inkişaf fondları, kitabxanalar, arxivlər və muzeylər tərəfindən zəruri tədbirlərin müəyyənləşdirilməsindən ibarətdir.

## Məqsədlər

Əgər informasiya cəmiyyətə sadə və universal formada çatdırılmasa, biliklərin yayılması üzrə missiyamız yalnız qismən yerinə yetirilmiş olar. Ənənəvi metodların inkişafını davam etdirməklə yanaşı, İnternet vasitəsilə açıq giriş (Open Access парадигмасы) prinsipi ilə biliklərin yayılmasının yeni imkanlarının inkişafına getdikcə daha fəal yardım göstərilməlidir. Open Access-ə biz elmi ictimaiyyət tərəfindən təqdir olunmuş ümumbəşəri biliyin və mədəni irsin geniş və əhatəli mənbəyi kimi baxırıq.

Biliklərin geniş, əhatəli və hamı tərəfindən anlaşılan tərzdə təqdimatından ötrü gələcəyin İnternetin sabitlik, interaktivlik və şəffaflıq kimi xüsusiyyətlərə malik olması zəruridir. İnformasiya və proqram təminatı giriş üçün açıq və yüksək dərəcədə əlaqəli olmalıdır.

## Açıq Giriş (Open Access) prinsiplərinə cavab verən nəşrlərin müəyyənləşdirilməsi

Açıq Giriş, arzu olunan ideal metod kimi, elmi nəşrlər sahəsində hər bir müəlliflik hüququ subyektinin və hər bir mədəni irs obyekti idarəedicisinin bu işdə fəal iştirakını nəzərdə tutur.

Open Access prinsiplərinə uyğun olan nəşrlər elmi araşdırmaların orijinal nəticələrini, ilk və sonrakı məlumatları (metaməlumatlar), mənbələrin materiallarını, fotomaterial və qrafiklərin rəqəmsal versiyasını, həmçinin multimedia formasında olan digər elmi işləri əhatə edir.

Open Access nəşrləri iki əsas tələbə cavab verməlidir:

1. Belə nəşrlərin müəllifləri və hüquqi sahibləri dünyanın hər yerində bütün arzu edənlərə bu nəşrlərdən azad surətdə daimi istifadə etmək hüququ verməklə yanaşı, onlara müəllifliyi göstərilmək şərti ilə bu nəşrlərin surətinin çıxarılmasına, açıq təqdimatına, ötürülməsinə, həmçinin, onlardan törəmə işlərin yaradılmasına və məsul məqsədlərlə istənilən rəqəmsal media vasitələri ilə yayılmasına da icazə verirlər. Elmi ictimaiyyət, əvvəllər olduğu kimi, müəllifliyin lazımi şəkildə göstərilməsi və nəşrlərdən məsuliyyətlə istifadə edilməsi qaydalarını müəyyənləşdirə bilər. Bundan əlavə, nəşr olunmuş bu işlərin şəxsi istifadə üçün az sayda çap olunmasına da icazə verilir.

2. Nəşrlərin tam bir versiyası nəzərdə tutulmuş əlavə materiallarla (yuxarıda göstərilmiş hüquqlara aid mətnin surəti də daxil olmaqla) birlikdə müvafiq standarta uyğun elektron formatda ən azı bir onlayn-arxivdə – texniki standartlara (misal üçün, *Açıq Arxivlər üçün Qaydalara*) uyğun olan, elmi-tədqiqat müəssisəsi, elmi cəmiyyət, ictimai müəssisə və yaxud açıq girişi, qeyri-məhdud yayımı, uzun müddətli arxivləşdirməni təmin etməyə səy göstərən qeydiyyatdan keçmiş digər təşkilat tərəfindən saxlanılan və xidmət göstərilən onlayn-arxivdə

saxlanılır ( bununla da dərc edilmiş olur).

**Elektron nəşrlər üçün Open Access paradiqmasına keçidin dəstəklənməsi**

Bizim təşkilatlarımız elm və cəmiyyət üçün maksimum fayda əldə etmək məqsədilə Open Access prinsipinin gələcək inkişafına dəstək verirlər. Bu mövqe aşağıdakı işlərdə öz ifadəsini tapmalıdır:

* tədqiqatçı və təqaüdçülərimizə öz əsərlərini Open Access prinsiplərinə uyğun dərc etdirməkdə dəstək göstərmək;

* mədəni irs obyektlərinin idarəedicilərini onların sərəncamında olan materialların İnternet şəbəkəsində yerləşdirilməsi hesabına Open Access-in təşkili və inkişafına təşviq etmək;

* keyfiyyətin elmi təminat standartlarının və hamı tərəfindən qəbul edilmiş elmi təcrübənin qorunub saxlanması məqsədilə Open Access nəşrləri və onlayn-jurnallarının dəyərləndirilməsinin üsul və qaydalarını hazırlamaq;

* Open Access prinsipləri ilə dərc olunan əsərlərin elmi nailiyyətlərin dəyərləndirilməsi prosesində təqdir edilməsinə səy göstərmək;

* Open Access infrastrukturunun inkişafına yönəlmiş xüsusi işlərin – proqram təminatının hazırlanması, yeni informasiyalar daxil olmasının təşkili, metaməlumatların tərtibi və ayrı-ayrı məqalələrin dərc olunması kimi işlərin ictimai təqdirinə nail olmaq.

Biz açıq giriş mədəniyyətinə keçidin biliklərin yayılması prosesinə hüquqi və maliyyə xarakterli təsirlər göstərəcəyini dərk edirik. Buna görə də, bizim təşkilatlar optimal istifadə və girişə lazımi şərait yaradılması üçün mövcud hüquqi və maliyyə mexanizmlərinin təkmilləşdirilməsinə yardım göstərirlər.

**Elmi və Humanitar biliklər üzrə Açıq Giriş haqqında Berlin Bəyannaməsində irəli sürülən ideyaya tərəfdar çıxan hökümətlər, universitetlər, tədqiqat müəssisələri, maliyyə orqanları, fondlar, kitabxanalar, muzeylər, arxivlər, elmi cəmiyyətlər və peşəkar assosiasiyalar Bəyannaməni imzalayanların sırasına qoşulmağa dəvət olunurlar.**

*Əlaqə üçün:*
Prof. Dr. Piter Qruss
Maks Plank Cəmiyyətinin Prezidenti
Almaniya, Münhen,
D-80539, Hofqartenştrase 8
e-mail: praesident@gv.mpg.de

*"Xəzər Xəbər"*

# NURƏDDİN RZAYEV



Azərbaycan tibb elminə ağır itki üz verib. Oktyabrın 16-da tibb elmləri doktoru, professor, əməkdar elm xadimi Nurəddin Rzayev 82 yaşında vəfat edib.

N. Rzayev 1929-cu il iyun ayının 26-da Azərbaycanın Gədəbəy rayonunda anadan olub. Orta məktəbi qızıl medalla bitirdikdən sonra 1945-ci ildə Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olub.

1950-ci ildə ali məktəbi fərqlənmə diplomu ilə bitirərək, təyinatla Türkmənistanın Taxta rayonunda işləməyə getmişdir. 1953-cü ildə Türkmənistanda təyinat müddətini başa vurduqdan sonra Bakıda cərrahlıq və elmi fəaliyyətə başlamışdır. 1956-cı ildən etibarən N. Rzayev anesteziologiya və reanimatologiya məsələləri ilə də məşğul olub. Həmin il respublikada birinci olaraq traxeya daxili narkozu tətbiq edib və ilk anestezioloqlar qrupunu hazırlayıb. 1958-ci ildə "Mezatonun cərrahiyyədə tətbiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. 1961-ci ildə Azərbaycan Elmlər Akademiyasının Elmi Tədqiqat Eksperimental Klinik Təbabət İnstitutunda elmi katib, 1964-cü ildən isə direktor kimi fəaliyyətini davam etdirib. 1965-ci ildə "Ağ ciyər arteriyasının emboliya və trombozları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1966-cı ildə professor təsdiq olunmuşdu. 1978-ci ildə Elmi Tədqiqat Eksperimental Klinik Təbabət İnstitutunun bazasında Azərbaycan Tibb İnstitutunun ikinci ümumi cərrahlıq kafedrası açılıb və 1992-ci ilə qədər professor N. Rzayev həmin kafedraya rəhbərlik edib. 1994-1996-cı illərdə Xəzər Universitetində cərrahiyyə departamentinin müdiri və prorektor vəzifələrində çalışmışdır. Ömrünün sonunadək universitetin nəşr etdiyi "Xəzər Xəbər" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Sonrakı illərdə N. Rzayev Azərbaycan Tibb Universitetinin Ümumi cərrahlıq kafedrasının professoru və Azərbaycan Ali Diplomatiya kollecində «Türkoloji araşdırma mərkəzi»nin müdiri kimi çalışıb.

300-dək elmi məqalənin müəllifidir, 40-dək elmlər doktoru və elmlər namizədinin rəhbəri olmuşdur. Alimin Azərbaycan, Türkiyə, Rusiya, İran və digər ölkələrin elmi nəşrlərində onlarla elmi məqaləsi çap olunmuşdur.

Nurəddin Rzayev ABŞ (Nyu-York, Pitsburq), Türkiyə (Ankara, İstanbul, Antalya, Kayseri), Böyük Britaniya (London, Eyrfild, Qlazqo, Nottingem), İran (Tehran, Təbriz) və Polşada (Varşava) keçirilmiş beynəlxalq elmi konqreslərdə Azərbaycanı və SSRİ-ni təmsil etmişdir.

**Xəzər Universitetinin rəhbərliyi və professor-müəllim heyəti görkəmli alim Nurəddin Rzayevin vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin.**

# İSLAM KONTEKSTİNDƏ İRAN-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNDƏ YENİ MƏRHƏLƏ



*Əsədulla Qurbanov*

*Fəlsəfə elmləri doktoru, professor*

Ən əvvəl, çox mühüm və önəmli bir məqamı qeyd etmək istərdik ki, İran İslam Respublikası ilə müstəqil Azərbaycan arasında sağlam, perspektivli təməlin əsasını ümummilli liderimiz Heydər Əliyev qoymuşdur. Bu münasibətlə konkret misallar da gətirmək olar. Məsələn, Ulu Öndər 1998-ci ildə İran İslam Respublikasının paytaxtı Tehran şəhərində İslam Konfransı Təşkilatının XIII zirvə toplantısında iştirak etmiş, orada Azərbaycan həqiqətlərini bütün dünyaya, o cümlədən Yaxın və Orta Şərqin islam-müsəlman aləminə bəyan etmişdi. Dərin məna, məzmun və məndəricə kəsb edən sanballı məruzəsində, əsasən, İran-Azərbaycan münasibətlərinin perspektivlərindən ətraflı danışmışdı. Eyni zamanda, İslam dininin və müqəddəs Quranın ümumbəşəri mənəvi dəyərlərinin əhəmiyyətindən geniş söhbət açaraq demişdi: **"İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer tutmasını təmin etmişdir".**(*Heydər Əliyev. "Müstəqillik yolu". Bakı, 1997, səh. 93*). **"Qurani-Kərimin bütün kəlamları bu gün Azərbaycanda Allahın yolu ilə getməyimiz üçün məşəldir. Biz azərbaycanlılar – bu sonradan gələcək bütün nəsillərə də tövsiyə olunur – heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək gələcəyimizi quracağıq"** (*Yenə orada, səh. 93-94*). Göründüyü kimi, islama, Qurana belə yüksək qiyməti kamil mütəxəssis verə bilərdi.

Heydər Əliyev müstəqil dövlətimizə rəhbərlik etməyə başladığı dövrdən, 1993-cü ilin ikinci yarısından sonra İran İslam Respublikası ilə suveren Azərbaycan arasında münasibətlər daha yüksək səviyyədə qurulmağa başladı. Bu, dini dövlət ilə dünyəvi dövlət arasında mahiyyətcə yeni münasibətlərin bərqərar olması idi.

Sonrakı illər ərzində də İran və Azərbaycan İslam dini ilə bağlı meydana çıxan və ya ortaya atılan məsələlərə münasibətdə, demək olar ki, eyni mövqe əks etdirmişlər. Bu ilin iyun ayının 25-26-da İran İslam Respublikasının paytaxtı Tehran şəhərində "Terrorsuz dünya; yaxud terrora qarşı qlobal mübarizə" mövzusunda keçirilmiş beynəlxalq simpoziumun iştirakçısı kimi mən bir daha bunun şahidi oldum. Bu beynəlxalq tədbirə dünyanın 60 ölkəsindən nümayəndələr dəvət olunmuşdu. Konfransda iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri Azərbaycan milli təhlükəsizlik naziri, general-leytenant Eldar Mahmudov idi. O, konfransın birinci günü, yəni iyunun 25-də səhər iclasında "Beynəlxalq terrora qarşı mübarizədə müstəqil Azərbaycanın rolu" mövzusunda qısa, lakin çox dərin məzmunlu məruzə ilə çıxış etdi. Cənab nazir məruzəsində bu dəhşətli sosial bəlaya qarşı mübarizədə müstəqil Azərbaycanın həyata keçirdiyi kompleks tədbirlər haqqında geniş məlumat verdi.

İyunun 26-da konfransın plenar iclasında bu sətirlərin müəllifi "İslam terrora yox, dayan, dur deyir" mövzusunda məruzə ilə çıxış etdi. Qeyd olundu ki, beynəlxalq terrorçuluğa qarşı mübarizə tək bir ölkənin, bir xalqın, millətin işi deyildir. Bu iş yaşadığımız Yer planetində bütövlükdə mütərəqqi bəşəriyyətin bir nömrəli vəzifəsidir. Bu problemə məkan baxımından yanaşsaq görərik ki, terrorçuluq ən çox dünyanın islam-müsəlman aləmində baş verir. Bu, heç də səbəbsiz deyildir. Özü də, səbəblər çoxdur.

Birincisi, Qərbin bəzi məkrli siyasi dairələri Şərqin zəngin enerji ehtiyatlarını ələ keçirmək, onu mənimsəmək istəyir.

İkincisi, Qərbin hakim dairələri, xüsusilə xristianlıqdan siyasi məqsədlərlə istifadə edən qüvvələr qorxur ki, müsəlmançılıq dünya miqyasında artır və bu, Qərb üçün təhlükə ola bilər. Ona görə də, Qərbin bir çox hakim siyasi dairələri çalışırlar ki, nəyin bahasına olursa-olsun, İslam dinini, onun banisini, İslamın əsasını təşkil edən müqəddəs Quranı nüfuzdan salsınlar.

Bir neçə il bundan əvvəl Qərbi Avropa ölkələrinin birində İslam dininin banisi Məhəmməd Peyğəmbərin ﷺ bir Qərb rəssamı tərəfindən təhqiramiz şəklinin çəkildiyini yaxşı xatırlayırıq. Yaxud, başqa bir fakt. Bu yaxınlarda ABŞ-da xristian keşiş müqəddəs Quranı yandırmışdır. Daha bir fakt: ABŞ-ın siyasi dairələri koalisiya təşkil edərək, bəşər-islam mədəniyyətinin beşiyi olan İraqı yerlə-yeksan etmişdir. İslam mədəniyyətinin inciləri, Allahın evi olan saysız-hesabsız məscidlər dağıdılmış, partladılmışdır. İraqda terrorun bütün növlərindən: siyasi, iqtisadi, ekoloji, mənəvi, dövlət terroru kimi bütün formalarından istifadə olunmuşdur. Belə səpkili terror aktları Əfqanıstanda, Pakistanda da törədilmişdir. İndi də Qərbin bəzi məkrli siyasi dairələri Şərqin ən qüdrətli ölkəsi, dövləti olan İranı məhv etmək niyyətinə düşmüşlər.

Göründüyü kimi, Tehranda haqqında danışdığım beynəlxalq simpoziumun keçirilməsi heç də təsadüfi deyildi. Digər tərəfdən, İran İslam Respublika-

sının da üzv olduğu İslam Konfransı Təşkilatı bu gün terrora qarşı mübarizədə ön sırada gedir. Həmin münasibətlə konkret faktlar da gətirmək olar. Məsələn, 2005-ci ildə Məhəmməd Peyğəmbərin ﷺ təvəllüd tapdığı müqəddəs Məkkə şəhərində İslam Konfransı Təşkilatının üçüncü fövqəladə zirvə toplantısı keçirilmişdir. Bu konfrans 2001-ci ilin 11 sentyabrında ABŞ-da çoxsaylı insan tələfatına səbəb olmuş terrorun mənfi nəticələrinin aradan qaldırılmasına həsr olunmuşdur. Həmin konfransda İslam Konfransı Təşkilatının üzvü olan bütün ölkələrin, o cümlədən İran İslam Respublikasının və müstəqil Azərbaycanın da birinci şəxslərinin timsalında nümayəndə heyətləri iştirak etmişlər.

Dövlətimizin başçısı İlham Əliyev həmin toplantıda çıxış edərək, üzünü İslam Konfransı Təşkilatının Baş katibi, dünya şöhrətli islam alimi olan Ekmələddin Ehsanoğluna tutaraq belə tövsiyə xarakterli xahiş etmişdi: "Bu qəbildən olan konfransın 2006-cı ildə Bakıda da keçirilməsi, zənnimizcə, çox faydalı olardı".

Azərbaycan Prezidentinin bu xahişi nəzərə alınaraq, 2006-cı ilin payızında Bakıda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin xarici işlər nazirlərinin 33-cü sessiyası keçirilmişdi. Bu tədbirdə ev sahibi kimi çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Dünyada gedən proseslər bəzi hallarda bizi narahat edir. İlk növbədə, bəzi ölkələrin kütləvi informasiya vasitələrində və müəyyən siyasi dairələr tərəfindən İslamı terrorçuluqla eyniləşdirmək cəhdləri bizi çox üzür, narahat edir və hiddətləndirir. Biz buna heç cür imkan verə bilmərik. İslamı terrorçuluqla eyniləşdirmək olmaz. İslam sülh dinidir, mehribançılıq dinidir, dözümlülük dinidir. Azərbaycan özü terrorun qurbanıdır. Erməni terrorçu təşkilatları bizə qarşı 30-dan çox terror aktı törətmişlər. Bu terror aktları nəticəsində 2 mindən artıq azərbaycanlı həlak olmuşdur. Ancaq biz bu terrorçu təşkilatları hər hansı bir dinə bağlamırıq. Bu, düzgün deyildir. Terrorçuluğun nə dini var, nə də milliyyəti. Ona görə biz bu məsələlərə öz etirazımızı daha da inamla bildirməliyik, öz sözümüzü deməliyik. Eyni zamanda, gərək bu gün təbliğat imkanlarımızdan istifadə edərək, çox böyük narahatlıq doğuran bu mənfi meylə münasibətimizi bildirək, öz hərəkətlərimizlə bunun qarşısını alaq". *("Dövlət və din" (ictimai fikir toplusu), Bakı, noyabr, 2006, səh.24-25).*

Göründüyü kimi, burada müasir qloballaşma şəraitində baş verən terrorçuluq kimi dəhşətli sosial bəlanın qarşısını almaq üçün hər bir insanın, o cümlədən müsəlmanın öhdəsinə çox mühüm vəzifələr qoyulmuşdur.

Bizim də buradan çıxardığımız ümumi məntiqi nəticə bundan ibarətdir ki, əgər irqindən, dinindən, milli mənsubiyyətindən, habelə digər sosial mənsubiyyətindən asılı olmayaraq hər bir şüurlu, düşüncəli, dərrakəli, zəkalı insan İslamın və onun əsasını təşkil edən müqəddəs Quranın ümumbəşəri mənəvi dəyərlərini yaxşı, mükəmməl dərk edərsə, onları mənimsəyərsə, heç zaman terrora meyl etməz.

İslam dini ümumbəşəri mənəvi dəyərlərin mühüm tərkib hissələrindən biri olan, Şərqdə sivilizasiyanın inkişafının, insan təfəkkürü və onun təkamülünün müəyyən mərhələsində meydana gələn, planetar miqyasla ictimai şüur formalarından sayılan sosial tarixi hadisə və fenomendir. Bu deyilənlər müqəddəs Qurana da aiddir: Təsadüfi deyildir ki, Ulu Öndərimiz Heydər Əliyev demişdir:

**"Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs, göstərdiyi yollar insanları paklığa, düzlüyə, doğruluğa, cəsarətə, qəhrəmanlığa, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra xalqımızın mənəvi dəyərləri canlanıb, bərpa edilibdir".** *(Heydər Əliyev. Müstəqillik yolu. Bakı, 1997, səh.81-82).*

Bu yazıda bir sıra təkliflərimi də nəzərə çatdırmaq istəyirəm.

Birincisi, İslamın, onun əsasını təşkil edən müqəddəs Quranın ümumbəşəri mənəvi dəyərlərini əhalinin bütün sosial təbəqələrinə, o cümlədən, ilk növbədə gənclərə mükəmməl, səmərəli və məqsədyönlü şəkildə aşılamaq üçün bu müqəddəs kitabımızı elmilik, obyektivlik və dünyəvilik baxımından izah, şərh etməli olan "İslamşünaslıq" fənninin respublikamızın dövlət təhsil sisteminə aid bütün məktəblərdə xüsusi proqram və dərslik əsasında tədrisi çox zəruridir.

İkincisi, islamşünaslıq sahəsində yüksək ixtisaslı milli mütəxəssis kadrlar hazırlamaq üçün akademiyamızın müvafiq institutlarının birində və ya Bakı Dövlət Universitetində 00.09.13 – "Dinşünaslıq" və mədəniyyətin fəlsəfəsi" indeksi üzrə daimi fəaliyyət göstərən müdafiə şurasının yaradılması məqsədəuyğun olardı.

Üçüncüsü, İslamın və müqəddəs Quranın ümumbəşəri mənəvi dəyərlərini geniş oxucu kütləsinə, dinləyicilərə, tamaşaçılara çatdırmaq üçün mətbuat, radio, televiziya və internetdə müntəzəm olaraq məqalələrin dərc edilməsi, verilişlər aparılması da çox vacibdir.

Nəhayət, fikrimizi Ulu öndərimizin aşağıdakı dərin mənalı kəlamı ilə yekunlaşdırmaq istərdik. O, 1998-ci ildə Bakıda "İslam sivilizasiyası Qafqazda" mövzusunda keçirilən beynəlxalq konfransdakı nitqində demişdir: **"...Azərbaycanda islamşünaslıq sahəsində XX əsr, demək olar, tamam itirilibdir. Bu işləri görmək üçün Azərbaycanda islamşünaslıq elmini inkişaf etdirmək lazımdır. Azərbaycan Elmlər Akademiyası, Bakı Dövlət Universiteti və elmi-tədqiqat institutları... bu sahə üçün xüsusi təşkilatlar, orqanlar, elmi mərkəzlər yaratmalıdırlar... Belə təşəbbüslər olsa, mən onları dəstəkləyəcəyəm, bunlar üçün şərait də yaradacağam. Buna arxayın olun".** *(Heydər Əliyev. Dilimiz xalqımızın mənəvi sərvətidir". Bakı, 1999, səh.47)*

Göründüyü kimi, burada müstəqil ölkəmizdə islamşünaslıq elmini inkişaf etdirmək üçün elm və təhsil ocaqlarının, habelə orada çalışan mütəxəssislərin qarşısına çox mühüm vəzifələr qoyulmuşdur.

Güman edirik ki, qeyd olunanlar respublikamızın əlaqədar rəhbər orqanlarını çox ciddi şəkildə düşündürəcəkdir.

# ЧАСТИЧКА АЗЕРБАЙДЖАНА В МОСКВЕ

*Интервью с директором Центра азербайджанского языка и культуры в Москве, Мусаевой Беллой Сирадж гызы*

Мне повезло, что Белла ханум приехала ненадолго в родной Баку, и мы смогли побеседовать по душам. Она оказалась очень жизнерадостной женщиной, энергичной и креативной.



*- Расскажите, пожалуйста, о себе.*

- Я родилась 1 апреля 1943 года в Баку. В 1965 году закончила АПИ имени М.Ф.Ахундова с отличием, факультет «Русский язык и литература». Я всегда любила классическую литературу, особенно русскую. Мой любимый писатель- А.П.Чехов. Я обожаю русскую поэзию- Пушкина, Апухтину, Ахмадулину. Из наших азербайджанских писателей и поэтов, конечно, Самеда Вургуна, Эльчина, Анара, Кямала Абдуллу. Начинала свою трудовую деятельность в Азербайджанском Государственном Педагогическом Институте имени М.Ф.Ахундова - по решению Учёного Совета была оставлена работать в институте преподавателем. Занялась драматургией, очень увлекалась театром. Я была очарована Лопе де Вега, Соммерсетом Моемом, поэзией Роберта Бёрнса. Зафар Нейматов (отец Неймата Паша) пригласил меня работать в ТЮЗ, но родители не разрешили и я продолжила работу в родном институте - с 1965 года.

С 1968 по 1981 я прошла обучение в аспирантуре МГУ имени М.Ломоносова под руководством профессора Азиза Шарифа. В 1972 году защитила кандидатскую диссертацию на тему: «Образ нового человека в современной азербайджанской драматургии (1960 годы)». Продолжая работать в АПИ имени М.Ф.Ахундова, в 1991 году защитила докторскую диссертацию на тему: «Основные тенденции развития современной азербайджанской драматургии (1970-1980)». Являлась профессором кафедры «Теория литературы». Будучи действующим деканом, была направлена в командировку на конференцию в Московский Государственный Лингвистический Университет в 2006 году. Через год там был открыт переводческий факультет, где стала функционировать и англо-азербайджанская группа.

*- Как вы стали директором Центра азербайджанского языка и культуры?*

- Международный институт языков стран СНГ во главе с ректором, профессором Халиевой И.И. заключил контракт с Бакинским Государственным Славянским Университетом под руководством профессора Кямала Абдуллы о совместной деятельности. Переговоры шли целый год. Благодаря энергии и настойчивости Кямала Абдуллы дело удалось «сдвинуть с мёртвой точки». Между университетами был заключён контракт, а мне предложили найти кандидатуру директора центра азербайджанского языка и культуры. Поскольку я давно мечтала о подобной работе, я предложила на эту должность саму себя. Так, 4 года назад, в 2007 году, я стала директором Центра азербайджанского языка и культуры.

*- Расскажите о деятельности Центра.*

- В моём центре обучаются только русские дети, языки народов СНГ даются к изучению в качестве 2-го языка, по выбору (1-ый обязательно английский язык). Надо сказать, что поначалу мне было трудно склонить русских детей к изучению азербайджанского языка, т.к. слишком мало у обучающихся было сведений об Азербайджане. Например, на мой вопрос, что вам известно об Азербайджане, дети отвечали только то, что столица Азербайджана это - город Баку, и ещё то, что у нас добывают нефть. Чтобы дать понять детям, насколько мелодичен и красив наш язык, я прочла им четверостишие М.Физули на азербайджанском языке. Помните:

«Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahımdan, muradım şəmi yanmazmı?»

Не понимая пока ещё ни слова из прочитанного мною, дети слушали меня словно заворожённые, с широко открытыми глазами, - и я поняла, что им понравилось. Итак, первый шаг был сделан.

Дальше моей задачей стало как можно ближе познакомить их с нашей культурой. Большую помощь мне тогда оказали сестры Фидан и Хураман Касимовы, очень кстати приехавшие на гастроли в Москву и выступившие со своим волшебным репертуаром на сцене Большого Зала Московской Консерватории. Конечно, я взяла туда своих подопечных, и этот концерт произвёл на них огромное впечатление…

Позже, весной 2007 года были организованы мероприятия, посвящённые Ходжалинской Трагедии и памяти её жертв при посольстве Азербайджана в Москве, где нас очень тепло приняли земляки - посол Азербайджана в Москве Полад Бюль-Бюль оглы и сотрудница посольства Нигяр Ахундова. Особую благодарность хочется ещё раз выразить председателю Азербайджанской Молодёжной Организации России (АМОР) и её председателю Лейле Алиевой. Благодаря оказанной ею финансовой поддержке мои подопечные приехали в Азербайджан. Они посетили Баку ещё до того, как начали изучать азербайджанский язык. Это было очень важно, ведь начать изучать язык не зная ничего о нашем народе, его традициях и культуре - с моей точки зрения неправильно. Учащиеся, как мне видится, должны увидеть воочию всё то, о чём им будут рассказывать. Как говорится, «лучше 1 раз увидеть, чем 100 раз услышать». Конечно, дети были в восторге! Мои подопечные побывали также в Гяндже, Нахичевани, Шеки. Совершенно новые впечатления от Азербайджана значительно облегчали усвоение нашего языка русским ребятам. В моей группе пока всего 7 учеников, из которых шестеро - русские и один мальчик - татарин по национальности. После поездок по нашей стране они признались, что им открылся совершенно новый мир, интересный и пока ещё неопознанный. Надо сказать, что ребята сами оказались очень талантливыми, они «схватывали» материал буквально «на лету». Сегодня мы успешно общаемся на азербайджанском языке.



*- Как вам удалось всё так успешно организовать?*

- Конечно, очень велика была помощь Кямала Мехтиевича (Абдуллы) в оснащении нашего центра техническими новинками, компьютерами, мебелью, учебными пособиями. Сегодня наш центр - это яркий, красочный кусочек Азербайджана в Москве. Мы самостоятельно проводим здесь дни памяти знаменательных дат истории Азербайджана, устраиваем свои праздники, готовим свои программы.

Так, 25 декабря прошлого года ребята выступили в посольстве Азербайджана в Москве со стихами азербайджанских поэтов и прозой, читали наши литературные произведения. Они поздравили всех наших соотечественников, проживающих за рубежом с днём соли-

дарности азербайджанцев всего мира. Для наиболее полного представления о наших обычаях и традициях, в которых, безусловно, заключена душа азербайджанского народа, я рассказала детям о наших поминальных днях, или c m ə axşamı. Мы отмечали эти дни после смерти великого сына азербайджанского народа Муслима Магомаева, исполнительское мастерство которого покорило весь мир, чей голос стал родным для людей всех без исключения национальностей.

*- Отмечаете ли вы в Центре наши национальные праздники?*

- Я счастлива, что мне представился случай ознакомить моих учеников с самым замечательным и сказочным праздником - Новруз Байрамы, с нашей известной на весь мир национальной кухней. Мы пригласили на наш праздник студентов из других групп и преподавателей, - праздник удался на славу!

Очень важным для своих воспитанников считаю общение со студентами из Азербайджана. Совсем недавно нашей гостьей стала талантливая балерина, выпускница Бакинского Хореографического Училища, Президентская стипендиантка Джамиля Керимова. В настоящее время она проходит годичную стажировку в Москве, в Балетной Академии.

А 1 ноября 2009 го года в нашем центре был организован ещё один праздник- день Азербайджана в МГЛУ. Мы приурочили его ко Дню Флага. В фойе центра мы весь день «крутили» видеоролик об Азербайджане, здесь были представлены фотографии, сделанные во время путешествия моих студентов по Азербайджану. Праздник прошёл под лозунгом «Азербайджан - глазами студентов МГЛУ». Мы взяли материалы из видеотеки канала АзТВ, посвящённые торжественной церемонии в День Флага. Неоценимую помощь в проведении праздника оказали нам Рамиз Абуталыбов, Ильхам Бадалбейли и Эмин Гаджиев, за что им ещё раз большое спасибо. Из Баку приехала в качестве гостьи народная артистка Азербайджана, талантливая пианистка Тамилла Махмудова. Почётным гостем стал и ректор БГСУ, профессор К.М.Абдулла.

*- О чём мечтаете?*

- Моя самая большая мечта, чтобы об Азербайджане побольше узнали не только мои студенты, а вся Москва и Россия, весь мир! Тогда я буду знать, что мой труд и труд моих друзей не пропал даром.

Моя мечта сбылась и продолжает сбываться... Мне повезло, что судьба сводила меня с очень хорошими и интересными людьми. У меня много подруг и друзей, причём 50-летней давности. И общаемся мы не от случая к случаю, а постоянно.

Конечно, я мечтаю о благополучии своих близких. Само - собой разумеется, я мечтаю о счастье для своего сына, он пока не женат.

*-А что вы не любите в людях?*

- Только предательство. Остальное можно простить.

*-Не будем о грустном, какой Ваш любимый праздник?*

-Это Новый Год, и, конечно же, Новруз Байрамы.

*-А какой цвет Вам нравится?*

- Сиреневый, причём с юности. Меня даже называли «Сиреневая Белла» (смеётся). Вся моя одежда была сиреневого цвета...

*-Сформулируйте ваше жизненное кредо?*

- Я оптимистка. И всегда говорю своим подопечным - надо верить, что лучшее - впереди! Тогда интересные проекты появляются как бы сами собой, а это делает жизнь ещё более интересной и насыщенной.

***Беседу вела:***
***Лейла Джамильзаде,***
***врач Университета Хазар***

# TELEFON KİFAYƏT DEYİLMİŞ...

*(hekayə)*

*İhsan Əbdul Quddus*

Qız "Sakir Kir"də oxuyurdu... "O" hər axşam öz avtomobili ilə məktəb maşınını izləyirdi. Qıza xəbər çatdı ki, oğlan onu izləyir... Bu, onun arxasınca düşən ilk gənc idi! Qız o gündən sonra məktəb maşınına məhəbbət görüşünə gedirmişcəsinə minməyə başladı... Özünə fikir verməyə, bəzənməyə, saçlarını başqa şəkildə hörməyə başladı. Hərdən yoldaşlarından birinin qulağında qəşəng bir sırğa görəndə onun bir tayını borc alır, küçəyə tərəf olan qulağına taxardı. Oğlanın gördüyü qulağına... Qız oğlana vuruldu. Elədir ki var, uzaqdan ona aşiq oldu. Rəfiqələri də bu sevgidən xəbər tutdu. Bir gün qəflətən qızlardan biri oğlanın adını və telefon nömrəsini öyrənib gəldi. Qız "O"na zəng etməkdə çox tərəddüd etdi... Düz altı ay... Bu müddət ərzində oğlan onu hər gün izləyirdi. Artıq bazar günlərinə nifrət edirdi; çünki "O"nu görə bilmirdi.



**İhsan Əbdul Quddus**
**(1919-1990)**

Misir yazıçısı, "Əl-Əxbar" və "Əl-Əhram" qəzetlərinin müxbiri olmuşdur. Əsərləri bir sıra xarici dillərə tərcümə edilmişdir.

Nəhayət bir gün tərəddüdlərinə qalib gələrək, telefonun önündə dayanaraq, titrək əlini dəstəyə doğru uzatdı... Sanki böyük bir günaha əl uzadırdı... Sonra gözlərini yumub Allaha yalvardı ki, onu bağışlasın. Dəstəyi qaldırıb nömrəni yığdı. Sonra... Sonra ilk dəfə onun səsini eşitdi...

Daha bir neçə ay keçdi. Qız bu aylar ərzində onunla telefonda danışırdı, amma hələ də adını söyləməmişdi... Ancaq oğlanın onu tanıması üçün adını söyləməsinə gərək yox idi; ilk zəng etdiyi gündən dalınca düşüb izlədiyi qız olduğunu bilirdi. Sonra bir gün qız adını söylədi. Bir-birlərinə sevgilərini etiraf etdilər. Telefonda uzun-uzadı danışardılar, bəzən səhər saat səkkizə qədər... Qız yatağında uzanıb, telefonu da yorğanın altında gizlədərdi...

İki il keçdi. Bir-birlərilə əsla üz-üzə görüşmədilər. Sanki bir qüvvə qıza bu görüşü gerçəkləşdirməyə mane olurdu. Bu əngəl tərbiyəsimi, ya adətlərmi, ya qürurumu, yaxud Allah qorxusumu idi, bilmirdi. Ancaq qız sanki "O"nunla görüşmüşdü. "O"nun hər şeyini bilirdi: hara gedir, nə yeyir, nə danışır, dostları kimdir, düşmənləri kim. Əmin idi ki, "O"nun haqqında hər şeyi bilir. Üç ay hər gecə neçə rükət namaz qıldı ki, buraxılış imtahanını uğurla verib onunla evlənsin.

İmtahandan keçdi... Ona elçi gəldi. Ailəsi bir qədər tərəddüd etdi. Ancaq qız israr etdi. İlk dəfə oturub "O"na göz dolusu baxdı. "O", telefonda danışarkən xəyalında canlandırdığı surətə çox uyğun gəlirdi. O qədər ki, qız onun dodaqlarındakı xəfif əsəbi titrəməni heç hesaba almadı.

Sonra bəzi şeylər diqqətini cəlb etdi: oğlan əl dəsmalından lazım olduğundan çox istifadə edirdi; əlləri arasında tutur, üzünü silir, sonra cibinə qoyur, təkrar çıxarırdı. Axı niyə dəsmalı əlindən qoymurdu... Günlər keçdi. Qız hər dəfə "O"nda xəyalındakı rəsmdə olmayan yeni bir xüsusiyyət kəşf etməyə başladı. "O", qızın güman etdiyindən daha əsəbi idi. Telefonda danışdığı kimi danışmırdı, çox yeyirdi, qız bu qədər yeməsini istəmirdi halbuki... Qabağına yemək gələndə özünü unudurdu. Yeməkdən sonra mürgüləyirdi. ... Uff...niyə mürgü vurur axı...

Qız imzanı atmazdan bir neçə gün öncə həqiqəti dərk etdi. Anladı ki, "O"nu sevmir, telefonda danışarkən xəyalında canlandırdığı gəncə aşiqdir o. Və qız... "O"na ərə getmədi...

*Ərəb dilindən tərcümə etdi:*
**Fərida Baharlı**

# NOBEL MÜKAFATI LAUREATLARI - 2011

*İsveç Kral Akademiyası 2011-ci il üçün*
*Nobel mükafatı laureatlarının siyahısını elan edib*

## FİZİOLOGİYA VƏ TİBB ÜZRƏ



*Bryus Bötler*



*Jül Hoffman*



*Ralf Şteyman*

Mükafat anadangəlmə immunitetin aktivləşdirilməsinin və qazanılmış immunitetdə dendrit hüceyrələrin rolunun öyrənilməsi üzrə elmi tədqiqat aparan 3 alimə - Bryus Bötler (ABŞ), Jül Hoffman (Fransa) və Ralf Şteymana (Kanada) verilib.

Bryus Bötler və Jül Hoffman anadangəlmə immunitet sahəsində, Ralf Şteyman isə qazanılmış immunitetdə dendrit hüceyrələrin rolunun aşkarlanması ilə əlaqədar ixtiralarına görə mükafata layiq görülüblər.

Mükafatın bu sahəsi ilə əlaqədar Nobel Komitəsi nadir bir qərar da qəbul etməli olmuşdur. Məsələ bundadır ki, Nobel Komitəsinin nizamnaməsinə görə vəfat etmiş adamlara mükafat verilmir. Ralf Steyman isə sentyabrın 3-da dünyasını dəyişsə də, komissiya üzvləri bundan yalnız oktyabrın 3-də, laureatların adları artıq elan ediləndən sonra xəbər tutmuşlar. Buna görə də, Komitə istisna hal kimi Steymana mükafatın "ölümündən sonra" verilməsi haqqında qərar qəbul etmişdir.

## FİZİKA ÜZRƏ



*Sol Perlmutter*



*Adam Ris*



*Brayan Şmidt*

Kainatın sürətlə genişlənməsi kəşfinə görə amerikalı Sol Perlmutter və Adam Riss, avstraliyalı Brayan Şmidt bu mükafata layiq görülüblər.

Amerikalı Sol Perlmutter 1959-cu ildə ABŞ-ın İllinoys ştatının Şampan-Urban şəhərində doğulub. O, Kaliforniya Universitetinin astrofizika üzrə professorudur.

Digər amerikalı alim Adam Riss 1969-cu ildə Vaşinqtonda anadan olub. O, Cons Hopkins Universitetinin və Baltimordakı Kosmik Teleskop Elmi-Tədqiqat İnstitutunun fizika və astronomiya üzrə professorudur.

ABŞ və Avstraliya vətəndaşı Brayan Şmidt Montana ştatının Missule şəhərində doğulub. O, hazırda Avstraliya Milli Universitetində çalışır.

Mükafatın yarısına Perlmutter, digər yarısına isə Şmidt və Riss layiq görülüb.

Nobel Komitəsi uzun illər sonra bu kəşfin qlobal mahiyyət daşıdığını etiraf edib. Qərarın açıqlanması mərasimində kəşfin müəlliflərindən Brayan Şmidtlə telefon əlaqəsi yaradılıb. O bildirib ki, bu kəşfi edərkən uzun müddət haradasa səhvə yol verdiyini düşünüb.

## KİMYA ÜZRƏ



Daniel Şextman

Mükafata israilli alim Daniel Şextman kvazikristalların kəşfinə görə layiq görülüb.

Nobel Komitəsi bəyan edib ki, Şextman kimyaçıların bərk cisimlər haqqındakı təsəvvürlərini alt-üst etmişdir. O, kvazikristalları 1982-ci il aprelin 8-də kəşf etmiş və ilk vaxtlarda bu ixtirası həmkarları tərəfindən süngü ilə qarşılanmışdı. Şextmanın kəşfi maddənin strukturu haqqında klassik kristalloqrafiyanın qəbul etdiyi qaydaların tam əksinədir.

## ƏDƏBİYYAT ÜZRƏ



Tomas Transtremer

Ədəbiyyat üzrə Nobel mükafatı laureatı isveç şairi Tomas Transtremerdir. Mükafatın verilməsi aşağıdakı ifadə ilə əsaslandırılmışdır: "...çünki o, öz ümumiləşdirilmiş, şəffaf obrazlarının köməyi ilə bizə reallığa yeni mövqedən yanaşmağı öyrədir". Transtremer 1931-ci ildə Stokholmda anadan olmuşdur. O, 1990-cı ildə insultun vurduğu zərbədən sonra daha pianoçu kimi karyerasını davam etdirə bilməmiş, şeir yazmağa başlamışdır. Belə ki, gələcək şairin bədəninin sağ hissəsi iflic olmuşdur. İnsult üzündən Tomas Transtremer nitqini də itirmişdir.

Şairin "17 şeir" adlı ilk kitabı 1954-cü ildə çapdan çıxmışdır. Bundan sonra onlarla kitabı işıq üzü görüb. Sonuncu – "Böyük müəmma" adlı şeirlər kitabı 2004-cü ildə nəşr olunub. 1979-cu ildən şeirləri rus dilinə tərcümə olunur. Ümumiyyətlə, Transtremerin rus ədəbiyyatı ilə sıx əlaqələri var. O, digər Nobel mükafatı laureatı İosif Brodski ilə tanış idi. Brodski ona "Transtremer royal arxasında" adlı şeir həsr etmişdi.

## İQTİSADİYYAT ÜZRƏ



Kristofer Simz



Tomas Sarcent

Mükafata iki amerikalı alim - Kristofer Simz və Tomas Sarcent makroiqtisadiyyatda səbəb-nəticə əlaqələri sahəsində apardıqları tədqiqatlara və əldə etdikləri nəticələrə görə layiq görülmüşlər. 68 yaşlı T. Sarcent Nyu-York Universitetində, onun yaşıdı K. Simz isə Prinston Universitetində çalışır. Onlar ayrı-ayrılıqda tədqiqat aparıblar. Maraqlıdır ki, alimlərin mükafata layiq görülən məqalələri ötən əsrin 70-80-ci illərində dərc olunub.

Onların elmi ixtiraları qarşılıqlı olaraq bir-birini tamamlayır. Bu ixtiralar empirik məlumatlara əsaslanır və daha çox ümumnəzəri yox, tətbiqi xarakter daşıyır.

Moskva Ali İqtisadiyyat Məktəbinin professoru Oleq Zamulin onların ixtirasını belə şərh edir: "Tomas Sarcent ilə Kristofer Simzin tədqiqatlarının mahiyyəti nədən ibarətdir? Ümumiyyətlə iqtisadiyyatda, o cümlədən makroiqtisadiyyatda biz hər hansı bir korrelyasiya (müqayisə edilən anlayışların bir-birilə münasibəti, bir-birindən asılılığı) halı ilə qarşılaşanda, daim bir sual ortaya çıxır: bir dəyişiklik digərindən əslində nə dərəcədə asılıdır? Misal üçün, inkişaf etmiş ölkələrdə tədavülə çoxlu pulun buraxılması iqtisadiyyatın sürətlə inkişaf etdiyi dövrdə baş verir. Buradan sual doğur: pul kütləsi çoxaldığına görə iqtisadiyyat inkişaf edir, yaxud əksinə, mərkəzi bank inkişaf edən iqtisadiyyata çoxlu pul lazım olduğuna görə pul çap edir? Yaxud, hansısa üçüncü bir amil bu hadisələrə təsir göstərirmi? Məlumatları sadəcə araşdırmaqla bu suala düzgün cavab vermək mümkün deyil. Bunun üçün hansısa bir nəzəriyyə təklif olunmalıdır. Lakin bu korrelyasiyanı izah etmək üçün çoxlu nəzəriyyə irəli sürmək olar. Əsas məsələ odur ki, məlumatlara maksimum uyğun gələn nəzəriyyəni necə seçəsən? Tomas Sarcent və Kristofer Simz məhz həmin nəzəriyyəni seçə bilmək metodunu işləyib hazırlamışlar. Buna görə də, mərkəzi banklarda, maliyyə nazirliklərində, beynəlxalq maliyyə qurumlarında onların metodundan fəal istifadə olunur."

# SÜLH MÜKAFATI



| Elen Conson-Serlif | Leyma Roberta Qbovi | Təvəkkül Karman |
|---|---|---|

Sülh Mükafatına Liberiya prezidenti Elen Conson-Serlif, liberiyalı hüquq müdafiəçisi Leyma Roberta Qbovi və Yəmən ictimai xadimi Təvəkkül Karman layiq görülüblər. Elen Conson-Serlif 2006-cı ildən Liberiyanın prezidentidir və hələ də Afrika qitəsində demokratik yolla seçilmiş yeganə qadın prezidentdir. O, Komitənin qərarını "sülh, ədalət və inkişaf sahəsində ölkənin xidmətlərinin etiraf olunması" kimi qiymətləndirmişdir.

Leyma Roberta Qbovi məşhur hüquq müdafiəçisidir, dinindən və irqindən asılı olmayaraq ölkənin bütün qadınlarının vətəndaş müharibəsində sülhə nail olmaq uğrunda mübarizəsini təşkil edən ictimai xadimdir. Hazırda o, Afrika Qadınlarının Sülh və Təhlükə-sizlik uğrunda Hərəkatının icraçı direktorudur. Qbovi ona verilmiş mükafatı bütün Afrika qadınlarının mükafatı hesab edərək deyir: "Düşünürəm ki, dünya qadınların rolunu, zəka və çalışqanlığını etiraf etmişdir. Bundan sonra bizim rolumuzu heç kəs azalda bilməz."

33 yaşlı Yəmən jurnalisti Təvəkkül Karman həyatını qadın hüquqları uğrunda mübarizəyə həsr etmişdir. 2005-ci ildə "Qandalsız qadın jurnalistlər" hərəkatına başçılıq etmişdir. 2011-ci ildə hökumət əleyhinə çıxışlarda fəal iştirakına görə dəfələrlə tutularaq saxlanılmışdır. Ona Nobel mükafatı verilməsi xəbərini alanda demişdir: "Bu, bütün ərəblər, müsəlmanlar və qadınlar üçün böyük şərəfdir. Mən mükafatımı "Ərəb baharı"nın bütün fəallarına həsr edirəm."

***

*Mükafatın məbləği hər nominasiyada 10 mln. İsveç kronu (1,48 mln. dollar) təşkil edir.*

*Laureatlara qızıl medal və diplomların təntənəli təqdimetmə mərasimi hər il dekabr ayının 10-da – məşhur İsveç ixtiraçısı, dilçi, filosof Alfred Nobelin vəfat etdiyi gündə Stokholm və Osloda keçirilir.*

Ənənəyə görə fizika, kimya, fiziologiya və tibb, ədəbiyyat və iqtisadiyyat sahələrində Nobel mükafatları Stokholmdakı İsveç Kral konsert salonunda, Nobel sülh mükafatı isə Norveç Kralının və onun ailə üzvlərinin iştirakı ilə Norveç Nobel Komitəsinin sədri tərəfindən təqdim edilir.

Alfred Nobelin 1895-ci il 27 noyabr tarixli vəsiyyətində fizika, kimya, fiziologiya və tibb, ədəbiyyat və bütün dünyada sülh işinə töhfə verilməsi sahələrində mükafatlar nəzərdə tutulurdu. 1900-cü ildə ilkin kapitalı 31 milyon İsveç kronu olan müstəqil Nobel Fondu yaradılmışdır. Həmin vəsaitin 12,4 faizi və ya 3,74 milyon kronu Bakıdakı "Nobel qardaşları" şirkətindən Alfred Nobelin payına düşən səhmlərin hesabına idi. İlk mükafatlar 1901-ci il dekabrın 10-da verilmişdir. 1969-cu ildən İsveç bankının təşəbbüsü ilə iqtisadiyyat sahəsində də mükafat təsis olunmuşdur.

Alfred Nobel 1833-cü il oktyabrın 21-də İsveçdə doğulmuş, 1896-cı il dekabrın 10-da İtaliyada vəfat etmişdir. Əsas sərvətini Bakıdakı neft mədənlərində qazanmış, həyatı boyu 355 ixtira patentləşdirmişdir. Onun ilk ixtiraları arasında dinamit və detonatorlar da var idi.



Can Yücel

*Can Yücel məşhur türk şairidir. 1926-cı ildə İstanbulda anadan olmuşdur. Ankara və Kembric universitetlərində təhsil almışdır. Latın dili ilə yanaşı bir sıra xarici dilləri mükəmməl bilirdi. Türkiyənin müxtəlif ölkələrdəki səfirliklərində tərcüməçi işləmiş, BBC-nin Türk şöbəsinin başçısı olmuşdur. Bir müddət Bodrum və Marmaris şəhərlərinin turizm təsisatlarına rəhbərlik etmişdir. Sonralar həyatının sonunadək İstanbulda müstəqil tərcüməçi kimi fəaliyyət göstərmiş, şeir yaradıcılığını davam etdirmişdir. 1999-cu ildə vəfat etmişdir.*

*İlk şeirlər kitabı 1950-ci ildə çapdan çıxmışdır. Sonradan Türkiyədə və xarici ölkələrdə onlarla şeir kitabı çap olunmuşdur.*

## DAVET ...

"şunları bir araya toplayayım.
Bir güzel muhabbet edelim" diye düşündüm.

Mutfak işinden de anlarım.
Donattım sofrayı.
Bayağı uğraştım.
Hepsinin, ayrı ayrı ne
yemekten, ne içmekten
hoşlandığını iyi bilirim.
Bayağı da para gitti.

Birinin yediğini o bürü yemez.
Ötekinin içtiğini beriki içmez.
Dört kişilik sofra kurdum.

Mumları da yaktım.
Bak hepsi, Erik Satie* severdi.
Hatırladım.
Müziği de ayarladım.

Geldiler.

20 yaşımda ben,
35 yaşımda ben,
40 yaşımda ben ve
bugünkü ben dördümüz.

Birden yirmi yaşımı, otuz beş yaşımın karşısına oturttum.
Kırk yaşımın karşısına da, ben geçtim.
Yirmi yaşım, otuz beş yaşımı tutucu buldu.
Kırk yaşım ikisinin de salak olduğunu söyledi.

Yatıştırayım dedim.
"Sen karışma moruk" dediler. Büyük hır çıktı.
Komşular alttan üstten duvarlara vurdular.
Yirmi yaşım kırk yaşıma bardak attı.

Evin de içine ettiler.

Bende kabahat.
Ne çağırıyorsun tanımadığın adamları evine ...

## ANAYASASI İNSANIN

*Paul Eluard için yazılmıştır*

Kan yasası bu insanın:
Üzümden şarap yapacaksın
Çakmak taşından ateş
Ve öpücüklerden insan!

Can yasası bu insanın:
Savaşlara, yoksulluklara
Ve bin bir belaya karşın
İlle de yaşayacaksın!

Us yasası bu insanın:
Suyu şavka döndürüp
Düşü gerçeğe çevirip
Düşmanı dost kılacaksın!

Anayasası bu insanın
Emekleyen çocuktan
Uzayda koşanadek
Yürürlükte her zaman



*Şeirləri redaksiyaya İstanbul Universiteti İşlətmə fakültəsinin professoru Ömər Zəki Sədullah göndərmişdir.*

**Erik Satie - 1866-1925-ci illər arasında yaşamış fransız bəstəkarı*

# MAESTRO ÖZÜ VƏ ZAMAN HAQQINDA

*Oktyabrın 4-də Azərbaycan Akademik Rus Dram Teatrında "Maestro. Özü və zaman haqqında" sənədli filminin təqdimatı keçirilmişdir*



Film tanınmış Azərbaycan bəstəkarının - Azərbaycan SSR-in xalq artisti, Azərbaycan SSR Lenin komsomolu mükafatı laureatı (1970-ci il), Azərbaycan Dövlət Mükafatı laureatı (1976-cı və 1986-cı illər), simfonik və kamera əsərlərinin müəllifi, dram tamaşaları və kinofilmlər üçün musiqi, lirik mahnılar bəstələmiş "Şöhrət" ordenli bəstəkar Xəyyam Mirzəzadənin yaradıcılığına həsr olunmuşdur.

Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev ölkənin müasir musiqi mədəniyyəti tarixində Xəyyam Mirzəzadənin böyük xidmətlərini qeyd etmiş, Vətənin yüksək mükafatına – "Şərəf" ordeninə layiq görülməsi münasibətilə onu təbrik etmiş, sənətkara cansağlığı və uğurlar arzulamışdır.

Son illər Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə mədəniyyət xadimləri haqqında silsilə sənədli filmlər çəkilmişdir. "Maestro. Özü və dövrü haqqında" filminin ən tələbkar tamaşaçısı filmin qəhrəmanının özüdür. O, ekrandan tamaşaçı ilə özü və yaradıcılığı, müəllimləri, dostları, şagirdləri haqqında təəssüratlarını bölüşür.



Filmin nümayişindən sonra yaradıcı kollektivlə görüş keçirilmişdir.

Film "Cinealliance" studiyası ilə birlikdə "Salnamə" kinostudsiyasında çəkilmişdir. Ssenari müəllifi və rejissor Tofiq İsmayılov, operator Ziya Babayev, musiqi redaktoru Rauf Əliyevdir.

# BAŞ ROLUN İFAÇISINA BEYNƏLXALQ MÜKAFAT



*"Nərimanfilm" kinostudiyasının istehsalı olan "Sahə" bədii filmində baş rolun ifaçısı Zaza Bejaşvili VI Beynəlxalq Kipr Kino Festivalında "Ən yaxşı kişi aktyor" nominasiyasında "Golden Aphrodite" mükafatına layiq görülüb*

"Nərimanfilm"dən verilən məlumata görə, festival sentyabrın 30-dan oktyabrın 16-na qədər Kiprdə keçirilib. Festivalın proqramına komediyalar, sənədli filmlər, idman haqqında filmlər, uşaq filmləri və rəqs filmləri daxil olub. "Sahə" bədii filmi (rejissor İlqar Safat) məşhur fotoqrafın öz uşaqlıq dövrünə olan mistik səyahətindən danışır. Film "Nərimanfilm" (Azərbaycan), "Georgianfilm" və "Bagira Films" (Gürcüstan) studiyalarının müştərək istehsalı olub, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin maliyyə dəstəyi ilə çəkilib.

Filmdə baş rolları Zaza Bejaşvili (Gürcüstan), Melissa Papel (Fransa), Vaqif İbrahimoğlu (Azərbaycan) və Timur Oduşev (Azərbaycan) ifa ediblər.

# "ALEA III" MÜSABİQƏSİNİN QALİBİ

*Gənc azərbaycanlı bəstəkar Ayaz Qəmbərli ABŞ-ın Masaçusets ştatının Boston şəhərində keçirilən bəstəkarların ənənəvi 29-cu Beynəlxalq "ALEA III" müsabiqəsinin qalibi olmuşdur*



Bu barədə AzərTAc-a məlumat verən bəstəkar bildirmişdir ki, festivalda o, "Methode de sens" (Hisslərin təlimi) kompozisiyasını ifa etmişdir. ABŞ-ın məşhur universitetlərindən professorların, mədəniyyət xadimlərinin daxil olduqları münsiflər heyəti festivalda həmyerlimizin çıxışını yüksək qiymətləndirmişdir. A.Qəmbərlinin çıxışı festival iştirakçılarının, amerikalı musiqisevərlərin də böyük marağına səbəb olmuşdur.

Finalda iştirak üçün 208 müraciətdən yalnız Azərbaycan da daxil olmaqla 6 ölkə - ABŞ, Meksika, İspaniya, Yunanıstan, Polşa vəsiqə qazanmışdır.

Dünyanın mötəbər musiqi yarışmalarından hesab olunan "ALEA III" 1980-ci ildən keçirilir.

Bir çox beynəlxalq müsabiqələrin iştirakçısı A.Qəmbərli, həmçinin gənc bəstəkarların İsveçrədə keçirilmiş IV Beynəlxalq Pre-Art müsabiqəsində "Alone" əsəri ilə də çıxış edərək diploma layiq görülmüşdür.

## "TÜRK DÜNYASINDA İLİN ƏDƏBİYYAT ADAMI"

*Azərbaycan Yazıçılar Birliyinin (AYB) sədri, xalq yazıçısı Anar "Türk dünyasında ilin ədəbiyyat adamı" elan edilib*



AYB-dən verilən məlumata görə, bu barədə qərar Şimali Kipr Türk Respublikasının paytaxtı Lefkoşada keçirilən Türk Dünyası Ədəbiyyat Dərgiləri Konqresinin (TDƏDK) dördüncü konfransında qəbul olunub.

Mükafat ötən il təsis edilib. Bu mötəbər mükafata Anarın namizədliyini Türkiyə tərəfi irəli sürüb. Qaydalara əsasən konfransda iştirak edən ölkə öz təmsilçisinin namizədliyini irəli sürə bilməz. Mükafat TDƏDK-nin gələn il Astanada keçiriləcək beşinci konfransında sahibinə təqdim olunacaq.

Qeyd edək ki, 11-14 oktyabrda keçirilən konfransda türk cümhuriyyətlərində və toplumlarında ədəbiyyat dərgilərinin durumu, yaradıcılıq münasibətləri və imkanları müzakirə edilib. TÜRKSOY, TİKA, Avrasiya Yazarlar Birliyi və Şimali Kipr Yaxın Doğu Universitetinin təşkil etdiyi konfransda Azərbaycanı "Azərbaycan" və "Ulduz" jurnallarının baş redaktorları İntiqam Qasımzadə və Elçin Hüseynbəyli təmsil ediblər.

## GÖRKƏMLİ SƏNƏTKARA "ŞƏRƏF MÜKAFATI"

*Oktyabrın 10-da Antalyada (Türkiyə) 48-ci Beynəlxalq Antalya "Qızıl portağal" kino festivalının açılış mərasimində azərbaycanlı kino xadimi, türk dünyasında yeganə "Oskar" mükafatı laureatı olan Rüstəm İbrahimbəyova "Şərəf mükafatı" verilmişdir*



Antalya bələdiyyəsi və Antalya Mədəniyyət-Sənət Vəqfinin (AKSAV) birgə təşkil etdikləri festivalda mükafata layiq görülənlər arasında Türkiyənin kino ulduzları Tuncel Kurtiz, Halit Akçatepe, Engin Çağlar və Məhmət Dinlər də olmuşlar.

Festival çərçivəsində ilk dəfə Azərbaycanın Mədəniyyət və Turizm Nazirliyinin TÜRKSOY-dakı təmsilçiliyinin dəstəyi ilə "Avrasiya kinosu – Azərbaycan" bölməsində mətbuat konfransı, rejissor və aktyorlarla görüş keçirilmiş, kinematoq-raflarımızın əsərləri nümayiş etdirilmişdir.

Atatürk Mədəniyyət Mərkəzində Oleq Səfərəliyevin "Əlvida, cənub şəhəri" filmi ilə başlayan bu bölmədə Samir Kərimoğlunun "Niyyət", Yavər Rzayevin "İlahi məxluq", İlqar Nicatın "Buta" və İlqar Səfatın "Sahə" filmləri kino həvəskarlarına təqdim olunmuşdur.

## "MOLLA NƏSRƏDDİN" BEYNƏLXALQ KARİKATURA MÜSABİQƏSİNİN QALİBLƏRİ

*"Narkotiklərə yox!" devizi altında keçirilən "Molla Nəsrəddin" Beynəlxalq Karikatura Müsabiqəsinin sərgisi və mükafatlandırma mərasimi keçirilmişdir*



Alessandro Qatto | Vladimir Kazanevski | Marat Valiaxmetov

Azərbaycan Karikaturaçı Rəssamlar Birliyindən verilən məlumata görə, müsabiqəyə 63 ölkədən 307 rəssam 670 əsəri ilə qatılıb. Beynəlxalq tərkibli münsiflər heyətinin qərarına əsasən müsabiqənin qızıl medalına İtaliyanı təmsil edən Alessandro Qatto, gümüş medalına Vladimir Kazanevski (Ukrayna), bürünc medalına Marat Valiaxmetov (İspaniya), xüsusi mükafatlara isə Stanislav Aşmarin (Rusiya) və Boris Erenburq (İsrail) layiq görülüblər. Azərbaycanlı karikaturaçı Tural Həsənlinin əsəri Rəssamlar İttifaqının xüsusi mükafatı ilə qiymətləndirilib.

Azərbaycan Dövlət Gömrük Komitəsinin, Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin və Beynəlxalq Karikaturaçılar Təşkilatları Federasiyasının dəstəyi, Azərbaycan Rəssamlar İttifaqının və Azərbaycan Karikaturaçı Rəssamlar Birliyinin təşkilatçılığı ilə keçirilən beynəlxalq karikatura müsabiqəsinin mükafatlandırma mərasimi oktyabrın 17-də Muzey mərkəzində keçirildi.

# AZƏRBAYCANIN XALQ RƏSSAMI HÜSEYN ƏLİYEVİN ƏSƏRLƏRİNDƏN İBARƏT SƏRGİ



Rusiyanın Sankt-Peterburq şəhərindəki Dövlət Rus Muzeyində Azərbaycanın xalq rəssamı Hüseyn Əliyevin əsərlərindən ibarət sərginin açılışı olub. APA-nın Rusiya müxbirinin verdiyi məlumata görə, xalq rəssamının 100 illik yubileyinə həsr olunan sərgi Azərbaycanın Sankt-Peterburqdakı Baş Konsulluğu və Dövlət Rus Muzeyi tərəfindən təşkil edilib.



Sərginin açılış mərasimində Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu, Sankt-Peterburqdakı baş konsul Qüdsi Osmanov, Hüseyn Əliyevin nəvəsi, "Lider" Media Holdinqin prezidenti Ədalət Əliyev, mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev, Sankt-Peterburq Xarici Əlaqələr komitəsinin sədri Aleksandr Proxarenko, Sankt-Peterburq mədəniyyət komitəsinin sədri Anna Kuçerova iştirak ediblər.

Rəssamın 1960-80-ci illərdə çəkdiyi sənət əsərlərinin nümayiş olunduğu sərgi 2 ay müddətində Sankt-Peterburq sakinlərinin üzünə açıq olacaq.

Hüseyn Əliyev 1911-ci ildə Azərbaycanın Zəngəzur mahalının Comarlı kəndində anadan olub. Bakıda rəssamlıq təhsili aldıqdan sonra Repin adına Sankt-Peterburq Rəssamlıq və Memarlıq İnstitutuna daxil olub. Buranı bitirdikdən sonra Bakıya qayıdaraq Rəssamlıq Texnikumunda dərs deyib. Eyni zamanda "Molla Nəsrəddin" və "Kommunist" jurnallarında rəssam kimi çalışıb. Rəssamın ilk işi "Vətən peyzajı" adlı rəsm əsəri olub.

# AZƏRBAYCANLI HEYKƏLTƏRAŞ BEYNƏLXALQ MÜKAFAT ALIB

*Oktyabrın 24-də İtaliya paytaxtındakı Covanni Paola kilsəsində heykəltəraşlıq üzrə Beynəlxalq Simpoziumun mükafatlarının təqdimat mərasimi keçirilib*



Azərbaycanın əməkdar heykəltəraşı Zeynalabdin İsgəndərov da mükafat alanlar sırasında olub. Mərasimdə Vatikanın nümayəndəsi, Roma Heykəltəraşlıq Akademiyasının prezidenti Alfio Monqelli, İtaliya Rəssamlar İttifaqının prezidenti Fonte-Nova Antonio Muri, İtaliya Mədəniyyət Nazirliyi və incəsənət üzrə Dövlət Komissiyasının təmsilçiləri iştirak edib.

# MƏŞHUR HOLLİVUD ULDUZUNUN ADINA MUZEY

*Məşhur Hollivud ulduzu Arnold Şvarsneggerin adına doğma vətəni Avstriyada yaradılmış muzey tamaşaçıların ixtiyarına verilmişdir*



A.Şvarsneggerin doğulduğu və uşaqlıq illərini keçirdiyi Zal kəndində onun bürünc heykəli də ucaldılmışdır. Dünya kino tarixində "Terminator" filmi ilə məşhurlaşan A.Şvartsnegger oğlu ilə birgə doğma kəndinə gəlmiş, onun adını daşıyan ev-muzeyi və abidənin açılış mərasiminə qatılmışdır. Güclü yağış yağmasına baxmayaraq tarixi hadisəni qaçırmamaq üçün aktyorun pərəstişkarları, eləcə də KİV nümayəndələri çətirlərlə açılış mərasimində iştirak etmişlər.

"Arninin həyatı" adlandırılan muzey elə onun yaşadığı evdə yaradılmışdır. Muzeydə onun müxtəlif filmlərindən divar kağızları, oynadığı filmlərin qəhrəmanlarının mum və plastik heykəlləri, uşaqlıq çarpayısı və digər əşyalar yer almışdır.

# ВСПОМИНАЯ ПУТЕШЕСТВИЯ КОЛУМБА

*Луиз Феннер*

*Вашингтон.* День Колумба – федеральный праздник США, отмечаемый в ознаменование прибытия в Новый Свет путешественника Христофора Колумба 12 октября 1492 года. В этот день также отдается дань культурному наследию американцев итальянского происхождения, так как многие историки считают, что Колумб родился в Генуе.

День Колумба ежегодно празднуется в Соединенных Штатах с 1937 года. Первоначально он отмечался 12 октября, но был перенесен на второй понедельник октября, чтобы дать трудящимся возможность отдыхать в течение долгого праздничного уикенда.

Итальянские иммигранты впервые отметили День Колумба в 1866 году в Нью-Йорке. Жители Сан-Франциско утверждают, что парад итальянского наследия, который проводится в их городе с 1868 года, является старейшим в стране, хотя парад в Нью-Йорке – самый большой.

В своей декларации по случаю Дня Колумба 2010 года президент Обама отметил, что Колумб "проложил курс для многих поколений итальянцев, последовавших его примеру и приехавших в Америку", и высоко оценил "неизмеримый вклад американцев итальянского происхождения, чья решимость, упорный труд и лидерство так много сделали для укрепления нашей страны". Бюро переписи населения США сообщает, что в Соединенных Штатах живет более 18 миллионов человек итальянского происхождения.

Праздник продолжает вызывать дискуссии о веке Великих географических открытий и последовавших за ним перемен, включая несправедливое обращение с коренными народами. "Сегодня мы размышляем об огромном вкладе, который сделали племенные общины в нашей стране и во всем мире, и вспоминаем тяжкие страдания, которые им пришлось пережить в период, когда на этой земле происходили перемены", – говорится в декларации президента Обамы.

В некоторых американских населенных пунктах в День Колумба проводятся альтернативные мероприятия в память о коренных жителях островов, на которых высаднлся Колумб. В штате Калифорния города Беркли и Санта-Круз вместо Дня Колумба празднуют День коренных народов. Южная Дакота переименовала праздник в День коренных американцев, а Алабама празднует День Колумба одновременно с Днем наследия американских индейцев. Штат Гавайи называет этот праздник Днем открытия и посвящает его своим полинезийским переселенцам. Бюро переписи населения оценивает численность коренных американцев в США в 5 миллионов.

## *О Колумбе*



Колумб совершил четыре трансатлантических путешествия (в 1492-93, 1493-96, 1498-1500 и 1502-04 годах), которые изменили карту мира. Открыв Америку для европейских переселенцев (и для эксплуатации коренных народов), они также изменили историю.

Колумб был не первым европейцем, пересекшим Атлантический океан. Считается, что примерно в 1000 году нашей эры мореплаватели-викинги основали недолго просуществовавшее поселение в Ньюфаундленде. Колумб, однако, открыл эпоху долговременных контактов между европейцами и коренными народами Западного полушария.

Во второй половине 15-го столетия доминирующую роль в установлении морского пути между Европой и Индией вокруг Африки играла Португалия. Именно в надежде перехитрить португальцев королева Испании Изабелла I утвердила экспедицию, в которой Колумб должен был плыть на запад от Испании, стремясь достичь Индии.

Колумб отправился в путь в августе 1492 года с экипажем примерно из 90 человек на трех парусниках "Санта-Мария", "Нинья" и "Пинта". После пяти недель пути в западном направлении 12 октября экспедиция достигла острова, который ныне является частью британских Багамских островов. Колумб назвал его Сан-Сальвадор. Считая, что нашел новый путь в Индию, Колумб, описывая народы, которые он встречал, употреблял слово "индийцы" (на русском языке закрепился вариант "индейцы").

Колумб в дальнейшем совершил еще три путешествия и умер, веря, что открыл новый путь в Индию и Азию, а не в Северную и Южную Америку.

***U.S. Embassy Information***



# SƏDİNİN, HAFİZİN VƏTƏNİ ŞİRAZ...

***Oktyabrın 8-dən 13-dək İranın Tehran və Şiraz şəhərlərində İran və D nya şairlərinin 2-ci konqresi ke irilmişdir. "Xəzər Xəbər"in NDU bürosunun rəhbəri Vaqif Məmmədovun təqdim olunan yazısı həmin beynəlxalq tədbirin təəssüratıdır.***

Bir ay əvvəl Nax ıvan D vl ət Üniversitetinin rektoru, akademik İsa Həbibbəyli bizi (üniversitetin xarici tələbələrlə iş zr ə dekanı, filologiya zr ə fəlsəfə doktoru, şair Xanəli Kərimlini və bü sətirlərin m əllifini) iş otağına a ğırıb, D nya şairlərinin 2-ci konqresində birlikdə iştirak e əcəyimizi bildirəndə ox sevindik. Şərq poeziyasının klassiklərindən sayılan Sədi, Hafiz Şirazı kimi şairlərin Vətənində ilk dəfə olmaq, onların məqbərələrini, qədim d nyan ın memarlıq m c z ələrindən sayılan «Təxti-Cəmşid»i ziyarət etmək qisməti ilə yanaşı, sevincimizin bir səbəbi də o idi ki, yenə İsa müəllimin qayğısı ilə biz əvvəlki illərdə Hollandiyada, Pakistanda, T rkiy ənin və İranın bir ox şəhərlərində ke iril ən şeir-sənət tədbirlərində, simpoziüm və konfranslarda birlikdə iştirak etmiş, dəfələrlə yol yoldaşı olmüşdüq.



Təbriz -Tehran marşrütü ilə ü dü gümüz təyyarə reysini Tehranın Mehrabad hava limanında bizim n ayrılmış tərc m ə i-b ələd imiz Xosrov Tədbiri qarşıladı. Hava limanından qalacağımız «Lalə» otelinə qədər olan 15-20 dəqiqəlik yolda s hb ət əsnasında yr əndik ki, əslən təbrizli olan tərc m ə imiz Xosrov İran-İraq m harib əsi zamanı Türkiyədə Ali Aviasiya İnstitütündə təhsil alsa da, təhsilini bitirməmiş geri qayıdıb, m harib ədə ağır yaralanıb, ayağında altı dəfə cərrahiyyə əməliyyatı aparıldığından fiziki sağlamlığını nisbətən itirdiyi n m harib ə iştirak ısı kimi təqa d ə ıxıb və indi həm də xaricdən gələn qonaqlara tərc m ə ilik etməklə fəaliyyətini davam etdirir. Səmimi rəftarı, nəzakətli davranışı ilə ilk andan diqqətimizi əkən Xosrovün Azərbaycan dili ilə yanaşı t rk, ingilis, alman və fars dillərini də m k əmməl bilməsi onün d nyag r ş haqqında da bizdə geniş təəss rat yaratdı.

Tehranın mərkəzindəki yaraşıqlı «Lalə» otelində yerləşib, 1-2 saat istirahət edəndən sonra qaldığımız otelin foyesində, axşam saat 7 radələrində d nyan ın otüza yaxın lk əsindən gəlmiş 43 şairlə İran İslam Respüblikasının Mədəniyyət nazirinin m avininin g r ş oldü. İran və D nya şairlərinin 2-ci konqresinin İranın mədəniyyət nazirliyinin xətti ilə ke irildiyini və bir həftəyə yaxın davam edəcək proqramın ox zəngin oldüğünü qeyd edən nazir m avini b t n lk ələrdən (d nyan ın d rd qitəsindən) gələn şairlərin hamısı ilə bir-bir g r ş b , konqresin işində fəal iştirak etməyi arzüladı.

Öktyabrın 8-də konqresin a ılış mərasimindən əvvəl xarici qonaqların Tehrandakı məşhür xal a müzeyinə ekskürsiyası təşkil olündü. y z ə yaxın m xtəlif 1 1 xal an ın n mayi ş etdirildiyi həmin müzeydə zərif naxışları, incə e şniləri ilə diqqəti cəlb edən Kaşan, İsfahan, Kirman, Təbriz, Tehran xalıları mümi 1 s - nə, 200-300 illik tarixlərinə və hər kvadrat santimetrindəki ilmələrinin sayına g r ə hamını təəcc bl əndirdiyi kimi, ipək saplardan təsəvv r əgəlməz dərəcədə incəliklə verilmiş orijinal s jetl ərinə g r ə də diqqəti cəlb edirdi. Müzeydəki xal alar i ərisində «Bəhram Gür ovda», «Şah Abbas», «Şahnamə» m niat rl əri, «Nadir şah Əfşar» və s. n mün ələr s jetl ərinin ox geniş məzmününa və zərif toxünüş texnologiyasına g r ə qonaqları xeyli heyrətləndirdi.

Xal a müzeyinə ekskürsiyaya getdiyimiz g n n ikinci yarısında konqresin a ılış mərasimi olacaq Tehranın əzəmətli «Vəhdət» sarayının foyesində ox maraqlı mənzərə ilə rastlaşdıq. Konqresə xarici lk ələrdən dəvət olünmüş 43 nəfər şairin hamısının haqqında əvvəlcədən ayrı-ayrılıqda 1x2,5 metr l d ə x süsi rəngli plakat ap olünaraq ər iv əyə salınmış və sıra ilə sarayın foyesinə d z lm şd . Plakatın yüxarısında şairin b y d lm ş rəngli portreti, adı və soyadı, hansı lk əni təmsil etməsi, aşağıda isə fars və ingilis dillərində hansısa şeirindən bir par a verilmişdi. İkinci maraqlı cəhət isə o idi ki, konqresdə iştirak edən 43 şairin hər birinin əvvəlcədən g nd ərilmiş iki şeiri ox qısa vaxt ərzində fars və ingilis dillərinə tərc m ə olünaraq, m əlliflərin ədəbi tərc meyi-hal ı və fotoşəkilləri ilə birlikdə «D nyaya a ılan şeir pəncərəsi» adlı almanaxda iki dildə ap olünaraq konqres iştirak ılarına paylandı.

Konqresin a ılış mərasimi «Vəhdət» sarayında «Qürani - Kərim»dən bir sürənin oxünüşü və İran İslam Respüblikasının d vl ət himninin səsləndirilməsi ilə başlandı. ı ən il ke iril ən 1-ci konqres haqqında filmin n mayi şindən sonra İranın mədəniyyət naziri Seyid Məhəmməd H seyni konqres iştirak ılarını bir daha salamlayaraq konqresin işinə uğürlar arzüladı. Konqresin a ılış mərasimində ıxış edən təşkilat komitəsi sədrinin, İranın mədəniyyət nazirinin m avininin və digərlə-

rinin ıxışlarında ədəbiyyatın d nya xalqlarının mədəni əlaqələrinin formalaşmasında bir k rp oldüğü vürğülandı və qeyd edildi ki, bir həftəyə yaxın davam edəcək konqres g nl ərində m xt əlif lk ələrdən gəlmiş şairlərin hər birinin ayrı-ayrı elm, təhsil və mədəniyyət m əssisələrində ke iril əcək şeir gecələrində yalnız z dillərində şeir oxüyacaqları və həmin şeirlərin həm də ingilis və fars dillərində səsləndiriləcəyi nəzərdə tütülmüşdür. Həqiqətən də belə oldü. Öktyabrın 9-10-da Tehrandakı Şəhid Behişti Üniversitetinin ədəbiyyat fak lt əsində, Tehran Rəssamlar Evində, Əl-Zəhra Azad İslam Üniversitetində, Tehran Milli Mədəniyyət və Gənc Şairlər Mərkəzində və digər m əssisələrdə ke iril ən şeir gecələrində bir qayda olaraq proqram zr ə ıxış edən hər bir şairin fars və ingilis dillərində ədəbi tərc meyi-hal ı təqdim olünandan sonra, şairin z ana dilində şeir oxüması, sonra isə həmin şeirin ingilis və fars dillərində səsləndirilməsi tədbirin rəngarəng ke m əsinə səbəb olmaqla yanaşı, tamaşa ılar tərəfindən də maraqla qarşılandı. Həm də ayrı-ayrı millətlərin n may əndələrinin şeir oxüma tərzi haqqında təsəvv r yaranırdı. Hindistanlı şairin z şeirlərini avazla mahnı kimi ifa etməsi, Cənübi Afrikadan gələn şairin müsiqisiz, oynaya-oynaya şeir deməsi, İrlandiyalı şairin bir bənd şeir deyəndən sonra s küt i ind ə dayanıb bir an tamaşa ılara nəzər salması, Filippindən gələn şairin z n n hazırladığı cib darağı boyda ki ik bir alətdə müsiqi ifa edib sonra şeirini deməsi, Tailand, Ürüqvay, Banqladeş, Pakistan, Danimarka və s. lk ələri təmsil edən şairlərin şeir oxüma tərzləri tamaşaçıların xeyli təəcc b n ə və diqqətinə səbəb olürdü.

Tehranda ke iril ən həmin tədbirlərdə Azərbaycandan gələn hər n may əndəyə də (Bakıdan dəvət olünan şərqş nas, gənc şair R st əm Hacıyev də bizimlə idi) proqram zr ə iki dəfə s z verildi və biz də z lk əmizin təbiətini, insanlarının psixologiyasını əks etdirən şeirlər oxüdüq. Tehranda ke iril ən tədbirlər zamanı «K vs ər» restoranında, Tehranın qədim məhəllələrindən sayılan və bizim İ ərişəhəri xatırladan ərazidə təşkil olünan ziyafətlər və müsiqi axşamları da z əlvanlığı və rəngarəngliyi ilə diqqəti cəlb edirdi.

Tehran g r şləri nə qədər maraqlı olsa da, qarşıda bizi Sədinin və Hafizin vətəni olan Şiraz səfəri g zl əyirdi. Tehran-Şiraz reysi ilə uçan təyyarədə Şirazı d ş n r və belə hesab edirdim ki, Hafizin rühü da bizim başımız st nd ə ü ür. Elə büna g r ə də, istər-istəməz həmin düyğülarım elə təyyarədəcə şeir misralarına evrilirdi:

*Hafiz işığına yol gedirik biz,*
*Nəhəng təyyarədir göylərdə çapan.*
*Hafiz işığına yol gedirik biz,*
*Sağımda ingilis, solumda yapon.*

*Səbrimiz göylərdə yatıb, dincəlib,*
*Gümanlı yolları açır təyyarə.*
*Neçə qitələrdən şairlər gəlib,*
*Tehrandan Şiraza uçur təyyarə.*

*Hafizdən danışır tatar, rus, qazax,*
*Hafiz, Hafiz deyir ərəb, çinli də.*
*Hafiz sənətində əzəmətə bax,*
*Gəlib səcdəsinə filippinli də.*

*Göylər necə aydın, səma nə təmiz,*
*Şeirli gün gəlir yaşımız üstə.*
*Tehrandan Şiraza yol gedirik biz,*
*Hafizin ruhu da başımız üstə...*



Dünyanın qədim şeir-sənət mərkəzi, İranda isə «gül və bülbül şəhəri» kimi tanınan Şiraz ölkənin cənubqərbində yerləşir və Fars vilayətinin mərkəzi sayılır. Tehran və Məşhəd şəhərlərindən sonra İranın 3-cü böyük şəhəri hesab olunan Şiraz Tehranın 920 kilometrliyində, Zaqros dağ silsiləsində, dəniz səviyyəsindən 1486 metr yüksəklikdə yerləşir. 2006-cı il statistikasına görə əhalisi 1 milyon 727 min nəfərdir. Şəhər qədim tarixinə və abadlığına görə ölkənin turizm baxımından diqqət cəlb edən bölgələrindəndir. «Təxti-Cəmşid», «Bağı - Dilguşə» (Ürək açan bağ), «Bağı - erəm» (Behişt bağı), «Narınc bağı», «Bağı - zibayə cihannüma» (Dünyanı özündə əks etdirən bağ), «Şahçıraq», «Kərimxan Zənd qalası», «Vəkil bazarı», Sədinin və Hafiz Şirazinin qəbirüstü məqbərələri Şirazın ən əzəmətli və tarixi yerləri hesab olunur.

İran və Dünya şairlərinin oktyabrın 11-də Şirazda öz işini davam etdirən 2-ci konqresinin minlərlə adamın, şeir- sənət vurğunlarının iştirakı ilə keçirilən açılış mərasimi axşamüstü, açıq havada «Hafiziyyə» deyilən parkda, Hafiz Şirazinin məqbərəsi önündə oldu. İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadın da iştirak və çıxış etdiyi mərasimdə bu cür poeziya tədbirlərinin keçirilməsində məqsəd Firdovsi, Sədi, Hafiz Şirazi, Ömər Xəyyam kimi şairlərin xatirəsini yad etməklə yanaşı, həm də dünya xalqları arasında mədəni əlaqələri genişləndirməkdən ibarət olduğu vurğulandı. Açılış mərasimində əsasən Şərq üslubunda ifa olunan konsert proqramı da, tədbirdən sonra «Bağı - Zibayə» deyilən yerdə keçirilən şeir gecəsi də mərasim iştirakçıları tərəfindən maraqla qarşılandı. Tədbirin ikinci günü səhər çağı minlərlə insanın iştirak etdiyi ən əzəmətli şeir məclislərindən biri də yenə həmin parkda Hafiz Şirazi-

nin məqbərəsi önündə oldu. Digər ölkələrdən gələn bəzi nümayəndələrlə yanaşı, Hafizin məqbərəsi önündə keçirilən həmin mərasimdə Azərbaycandan gələn hər üç nümayəndəyə söz verildi. Bizim heyət həmin tədbirdə digərlərindən onunla fərqlənirdi ki, hər üçümüz yeni, həm də yalnız Şiraz mövzusunda şeirlərlə -Xanəli Kərimli «Şiraza gəlmişəm» şeri ilə, Rüstəm Hacıyev Hafizə nəzirə şəklində yazdığı qəzəli ilə, mən isə aşağıdakı «Şiraz» şerimlə çıxış etdim:

*Söz-sənət mülkündə yol göstərəndi,*
*Çiçəyi bağçadan şehli dərəndi.*
*Sözün sərrafına qiymət verəndi,*
*Saxlamaz hər yoldan ötəni, Şiraz,*
*Sədinin Hafizin Vətəni Şiraz.*

*Yolları nur dolu səhər içində,*
*Bağı, bağçaları bəhər içində.*
*Bu qədər məmləkət, şəhər içində*
*Sözün zirvəsinə yetəni Şiraz,*
*Sədinin, Hafizin Vətəni Şiraz.*



*Qarası bir yana, ağı bir yana,*
*Dərəsi bir yana, dağı bir yana,*
*Bağçası bir yana, bağı bir yana,*
*Daşında gül-çiçək bitəni Şiraz,*
*Sədinin, Hafizin Vətəni Şiraz.*

*Şeirə qiymət verən, söz oxşayandır,*
*Halallıq qoruyan, düz oxşayandır.*
*Təbriz də, Tehran da göz oxşayandır.*
*Gözəllik içində itəni, Şiraz*
*Sədinin, Hafizin Vətəni Şiraz.*

Oktyabr ayının 11-12-də Şiraz Universitetində, Azərbaycan oxucusuna əsasən «Bustan» və «Gülüstan» əsərləri ilə tanış olan Sədi Şirazinin və Hafizin məqbərəsi önündə keçirilən şeir gecələri kimi, qədim Şiraz şəhəri ilə tanışlıq da çox maraqlı təsir bağışladı. Təmizliyi, səliqə-sahmanı, gözəl havası, yaşıllığı ilə diqqəti cəlb edən Şiraz başdan-başa əlvan gülüstanı xatırladır. İranda məşhur Zənd sülaləsinin banisi olmuş Kərim Xan Zəndin zamanında tikilmiş sarayın çox əzəmətli qala divarları, Quran darvazası, Vəkil camisi, Vəkil bazarı, Vəkil hamamı (Kərim Xan Zənd xalqın halına yanıb rəhmli qərarlar verdiyi üçün onu «Vəkilürrüaya»-xalqın vəkili adlandırmışlar), tanınmış şair Xacuye Kirmaninin məqbərəsi və s. tarixi yerlər də tədbir iştirakçılarının böyük marağına səbəb oldu. Ancaq bu tədbirlərin hamısının kulminasiya nöqtəsi tədbirin son günü (oktyabrın 13-də) məşhur «Təxti-Cəmşid» sarayına ekskursiya oldu. Şirazın 30-40 kilometrliyində Mərvdəst əyalətində xarabalıqları qalan bu şəhərin miladdan öncə 518-ci ildə inşa edildiyi, Böyük Daranın, Xəşayar şahın və 1-ci Ərdəşirin hakimiyyətləri dövründə daha da inkişaf etdirildiyi, Əhəmənilər dövründə uzun müddət İranın paytaxtı olduğu, təxminən yüz il ərzində bütün rəsmi mərasimlərin, dini ayinlərin və Novruz şənliklərinin bu şəhərdə keçirildiyi iddia olunur. Tarixçilərin fərziyyəsinə və ərazidə aparılmış arxeoloji tədqiqatların nəticələrinə görə «Təxti-Cəmşid» Makedoniyalı İsgəndərin İrana hücumu zamanı onun qoşunları tərəfindən yandırılıb məhv edilmişdir. Eyni zamanda, həmin dövrdə Əhəmənilər dövrünə aid bir çox əlyazmalarının, rəsmi sənədlərin və incəsənət nümunələrinin də yandırılıb məhv edildyii ehtimal olunur. Buna baxmayaraq, həmin dövrlərdən 2500 ildən artıq müddət keçsə də, «Təxti-Cəmşid»in əzəməti və möhtəşəmliyi bu gün də görənləri heyran edir. Təxminən 10 $km^2$ ərazini əhatə edən sarayın xarabalıqları içərisində bu günə qədər qalan 20 metrdən artıq hündürlüyündə daş sütunlara, nəhəng darvazalara, həmin sütunlar üzərindəki tonlarla ağırlığı olan ikibaşlı öküz və ikibaşlı şir formasında yonulmuş çox nəhəng fiqurlara, saray pillələrinin ətrafındakı daş divarlarda hökmdarların daşdan yonulmuş heykəllərinə hökmdarlara hədiyyə gətirməsi təsvir olunan insanlar, daş darvaza önündə daşdan yonulmuş, bir əlində hakimiyyət rəmzi olan şahlıq əsası, digər əlində isə sülh və dostluq rəmzi olan nilufər gülü tutmuş hökmdar təsvirlərinə heyrətsiz baxmaq mümkün deyil.

İstər Tehranda keçirilən tədbirlərdə, istər Şərqin çox böyük ədəbiyyat və sənət mərkəzi olan Şirazda Sədi və Hafizin məzarları önündə, universitetlərdə, elm və mədəniyyət mərkəzlərində keçirilən şeir məclislərində nə qədər maraqlı, yaddaqalan məqamlar olmuşdusa da, «Təxti-Cəmşid»ə ekskursiya bizi o qədər heyrətləndirmişdi ki, 35-40 dərəcə istiyə baxmayaraq, silsilə dağların ətəyindəki bu sarayın xarabalıqlarına baxmaqdan doymur, bu əzəmətli möcüzədən ayrılmaq istəmirdik. Ancaq təəssüf ki, zaman keçir və ekskursiyanın proqramı başa çatırdı. Artıq biz iki saata kimi təyyarə ilə Tehrana uçmalı, səhər tezdən isə Təbrizə uçub oradan Təbriz-Culfa-Naxçıvan yolu ilə Vətənə dönməli idik...

**Vaqif Məmmədov,**
*Naxçıvan Dövlət Universitetinin «Qeyrət» nəşriyyatının direktoru, Azərbaycan Yazıçılar Birliyinin və Avrasiya Yazarlar Birliyinin üzvü*

# YER KÜRƏSİNİN 7 MİLYARDINCI SAKİNİ DOĞULDU

*Yeni doğulan körpə Rusiya vətəndaşıdır*



Yer kürəsinin əhalisi 7 milyard nəfərə çatıb. Lent.az-ın İTAR-TASS agentliyinə istinadən verdiyi məlumata görə, körpə Rusiyanın Kalininqrad şəhərində dünyaya göz açıb.

Nikolayev Pyotr Alekseyeviç adlı körpənin boyu 50 santimetr, çəkisi 3 kiloqram 60 qramdır. O, oktyabrın 31-də gecə saat 00:02 radələrində dünyaya göz açıb.

# ABŞ BERLUSKONİNİ İNSAN ALVERÇİLƏRİ SİYAHISINA SALDI

*ABŞ Dövlət Departamenti İtaliyanın baş naziri Silvio Berluskoninin adını müasir dünyada insan alveri probleminə həsr olunmuş illik hesabata daxil edib*



"The Telegraph" qəzetinin verdiyi məlumata görə, hesabatda Silvio Berluskoninin pul müqabilində mərakeşli Rubidən seksual istismar məqsədi ilə istifadə etdiyi barədə ittiham qeyd olunub.

Siyahıya bu və ya digər dərəcədə insan alveri ilə bağlı olan insanların adları salınıb. Hesabat 180 ölkədə toplanan materiallar əsasında hazırlanıb. Silvio Berluskoni ilə bağlı bu məqamı qabardan İtaliya müxalifəti baş nazirin adının Dövlət Departamentinin hesabatında insan alverçiləri siyahısına salınmasını ölkə üçün növbəti təhqiramiz hal sayıb.

# QAZAXISTANDA DÖVLƏT MÜƏSSİSƏLƏRİNDƏ NAMAZ YASAQ EDİLDİ



*Qazaxıstan prezidenti Nursultan Nazarbayev oktyabrın 13-də dövlət müəssisələrində namaz qılınmasına qadağa qoyub*

Bu, Nursultan Nazarbayevin parlament tərəfindən qəbul olunmuş "Dini fəaliyyət və dini birliklərlə bağlı məsələlər üzrə bir sıra qanunvericilik aktlarına düzəlişlər" haqqında qanunu təsdiq etməsi ilə qüvvəyə minib. Qazaxıstan Müsəlmanlar İdarəsi tərəfindən bu qanunu sərt tənqid edən məqalə dərc etdirilib. Qazaxıstan müftisi hesab edir ki, qadağa ölkədə mənfi reaksiyalara səbəb olacaq.

# KRİSTİNA FERNANDES DE KİRŞNER İKİNCİ MÜDDƏTƏ ARGENTİNA PREZİDENTİ SEÇİLMİŞDİR

*Bunu daxili işlər naziri Florensio Randassonun açıqladığı rəsmi nəticələr təsdiq edir*



Bülletenlərin 15,5 faizinin işlənməsi göstərmişdir ki, hakim Qələbə Cəbhəsi seçicilərin 53,04 faiz səsini toplamışdır. Ümumi seçkilərin nəticələri müxalifət üçün güclü zərbə olmuşdur.

Görünür, hakim Qələbə Cəbhəsi 2009-cu ilin prezident seçkiləri nəticəsində Milli Konqresin hər iki palatasında itirilmiş yerlərin əksəriyyətini geri qaytara biləcəkdir.

Argentinada səsvermə zamanı təkcə yeni dövlət başçısı və vitse-prezident seçilmir, həmçinin senat və parlamentin deputatlar palatası yarıyadək yenilənir. Bundan əlavə, 9 əyalətin qubernatoru seçilmişdir.

# İRAQIN BƏZİ MƏKTƏBLƏRİ LATIN ƏLİFBASINA KEÇMİŞDİR

*İraqın Kərkük şəhərində yaşayan türkmənlər məktəblərdə latın əlifbası ilə təhsil alacaqlar*

AzərTAc xəbər verir ki, Təhsil Nazirliyinin qərarı ilə İraqda türkmən məktəbləri yaradılmışdır. Məktəblərdə təhsil türk dilində aparılacaqdır. Türkmən ailələrinin uşaqları məhz bu məktəblərdə təhsil alacaqlar.

# LİVİYADA ÇOXARVADLILIĞA İCAZƏ VERİLDİ

*Ölkənin şəriət qanunları ilə qurulacağı elan olundu*



Liviya Milli Keçid Şurası Müəmmər Qəddafi dönəmində çoxarvadlılığa qadağa qoyulması ilə bağlı qəbul edilən qanunu ləğv edib. Lent.az-ın "korrespondent.net" saytına istinadən verdiyi məlumata görə, artıq Liviyada çoxarvadlılığa rəsmən icazə verilib.

Qeyd edək ki, Liviya Milli Keçid Şurası Müəmmər Qəddafi dönəmində dünyəviliyi əsas kurs götürən ölkənin bundan sonra şəriət əsasları ilə qurulacağını bəyan edib. Ancaq ölkənin Müəmmər Qəddafi rejimindən azad olunduğunu rəsmən bəyan edən Liviya Milli Keçid Şurasının sədri Mustafa Abdel Cəlil yeni hakimiyyətin ənənəvi islam qaydalarına nə dərəcədə riayət edəcəyini dəqiqləşdirməyib. O, yaxın 8 ayda ölkədə parlament seçkilərinin keçiriləcəyini də açıqlayıb.

# SON 7 İLDƏ ƏN ÇOX SİLAH SATAN ÖLKƏLƏR

*ABŞ Konqresinin 2003-2010-cu illərdə inkişaf etməkdə olan ölkələrə silah satışı ilə bağlı hesabatı açıqlanıb*



Bu illər ərzində inkişaf etməkdə olan ölkələrə satılan silahların 49 faizi ABŞ-ın payına düşür.

Rusiya 25 faizlik göstərici ilə ikinci yerdə qərarlaşıb. İnkişaf etməkdə olan ölkələrə silah satışında üçüncü yerin sahibi isə İsrail olub. İsrail Böyük Britaniya, Çin, Fransa və İtaliya kimi ənənəvi istehsalçıları sıxışdırmağı bacarıb. Sonrakı yerlərdə müvafiq olaraq İtaliya, Böyük Britaniya, Fransa və Çin qərarlaşıb.

# ŞAHZADƏ SALMAN İBN ƏBDÜLƏZİZ SƏUDİYYƏ ƏRƏBİSTANI TAXT-TACININ VARİSİ ELAN EDİLMİŞDİR



Ər-Riyadın hakimi şahzadə Salman ibn Əbdüləziz əl-Səud vəliəhd-şahzadə Sultanın ölümündən sonra taxt-tacın varisi elan edilmişdir.

Bu məlumatı "Əl-Ərəbiyyə" telekanalı yaymışdır. Kral sarayı bu informasiya ilə bağlı rəsmi məlumat yaymamışdır.

Kral ailəsinin şəxsi müşaviri olan 75 yaşlı şahzadə Salman kral Əbdüləzizin şahzadə Hassa əs-Sudayridən olan 25-ci oğlu, kral Abdulla bin Əbdüləzizin atabir qardaşı və oktyabrın 22-də ABŞ-da dünyasını dəyişmiş şahzadə Sultanın doğma qardaşıdır.

Bundan əvvəl 87 yaşlı kralın mümkün varisi kimi baş nazirin ikinci müavini, 78 yaşlı daxili işlər naziri Hayfa bin Əbdüləziz əl-Səudun adı hallandırılırdı.

# ZƏNGİNLƏRİN SƏRVƏTİ ÇOXALIR

*Son 30 ildə ən zəngin amerikalıların gəlirləri az qala 275 faiz artmışdır*



ABŞ-da varlılar və yoxsullar arasındakı uçurum çox böyük sürətlə dərinləşməkdədir. ABŞ Konqresinin Büdcə İdarəsinin ekspertlərinin oktyabrın 25-də açıqladıqları "Amerika cəmiyyətində son 30 ildə əldə olunan gəlirlər üzrə xeyli artmış dispariteta dair" məruzədə belə deyilir.

Sənəddə deyilir: "Bir faiz təşkil edən ən zəngin amerikalıların sözügedən dövrdə gəlirləri vergilər tutulduqdan sonra 275 faiz artmışdır".

Varlı sayılan daha 19 faiz amerikalının gəlirləri 65 faiz artmışdır, halbuki onların orta sinfə məxsus olan həmvətənlərinin 60 faizinin gəliri 40 faiz, yoxsullarınkı isə cəmi 18 faiz artmışdır.

Ekspertlər bildirirlər ki, qlobal maliyyə böhranından bilavasitə əvvəl - 2005-2007-ci illərdə ölkənin daha yaxşı təmin olunmuş vətəndaşlarının 20 faizinin gəlirləri vergilər tutulduqdan sonra qalan əhalinin 80 faizinin gəlirləri qədər olmuşdur.

# IBM ŞİRKƏTİNİN İLK QADIN BAŞÇISI

*ABŞ-ın "International Business Machines" (IBM) şirkətinə yüz illik tarixi ərzində ilk dəfə olaraq qadın başçılıq edəcək*



Şirkətin Direktorlar Şurası IBM-ə rəhbərliyi Virciniya Romettiyə həvalə edib. V. Romettinin 54 yaşı var. Şirkətdə 30 illik iş təcrübəsi olan Rometti indiyədək satış və marketinqlə məşğul olub. Bu yüksək postda o, 2002-ci ildən şirkətə rəhbərlik edən Sem Palmizanonu əvəz edəcək. S.Palmizano isə Direktorlar Şurasının sədri olaraq qalacaq.

IBM-in səhmlərinin rekord qiymətə çatdığı bir vaxtda şirkətə rəhbər təyin edilməsi V. Romettiyə ABŞ-ın sahibkar qadınlarının siyahısına liderlik etmək imkanı verib. Belə ki, IBM-in dövriyyəsi və miqyası hazırda İndra Nuyinin başçılıq etdiyi "PepsiCo"nu da üstələyir.

UROPEAN
CHOOL OF
ROLOGY

# ESU – WEILL CORNELL MASTERCLASS IN UROLOGY

## A thorough learning experience in a remarkable venue



*Dr. Parviz Nasirov*
*International Medical Center*

*Khazar University, School of Medicine Baku (AZ)*

*pnassirov@hotmail.com*

**A postgraduate education program for qualified English-speaking urologists mainly coming from Eastern and Central Europe, Russia and Central Asia,**
**the week-long ESU - Weill Cornell Masterclass in Urology is organised under the auspices of the Salzburg Stiftung of the American Austrian Foundation (AAF) with funding from the Austrian**
**Federal Ministry of Science and Research, the Open**
**Society Institute and other public and private donours.**

With the main goal to gather qualified young urologists for open discussions, knowledge transfer and networking, both faculty members and participants live under one roof and meet in both formal and informal settings throughout the week. The excellent service facilities (catering, computer library, 24-hr wireless internet access, etc.) and relaxed atmosphere throughout the seminar are among the unique elements that make this annual programme a success.

All selected participants (or fellows) are provided important information concerning travel, tuition and programme schedule well ahead of the seminar, giving sufficient time for the fellows to prepare their Case Presentation, which is required from all participants. Pre and post seminar tests are also conducted and fellows who scored high in the exams are awarded with certificates of merit.

**Case presentations**

The main goal for case presentations is to identify a correct diagnosis approach and treatment plan for individual patients and several workshops are planned for these Case Presentations. The five excellent cases are also selected for the Online Case Library. Pelvic nephroptosis of horseshoe kidney with staghorn stone and pyonephrosis (by Uzbekistani urologists), "corkscrew" proximal ureter (from the UK), and urinary fistula of the femoral joint



(by Russian fellows) were among those selected, caseswhich actually are rarely encountered in daily practice. The first-day sessions saw the enthusiasm of the fellows with many raising questions and fully involving themselves in the discussions. Managing male infertility and erectile dysfunction were the topics tackled by Prof. Wolfgang Aulitzky, AAF medical director and chairman of the Department of Urology Confraternitat in Vienna. Among the key messages from Prof. Aulitzky's lecture are the following:

• Infertility is always a problem of the couple and while dealing with male infertility, the urologist

should have some understanding of female problems as well; and

• Every word that a urologist will say regarding erectile dysfunction may not be recalled by the doctor, but will certainly be remembered by the patient.

Course director Dr. E. Daracott Vaughan from Weill Cornell Medical College (New York), the most senior among the faculty members, lectured on prostate cancer screening and the diagnosis and management of adrenal disorders and highlighted the crucial importance of evidence-based medicine. Despite his seniority Prof. Vaughan was available to all fellows for discussion and I was impressed by his modesty particularly when I learnt that he heads the Weill Cornell Medical College's Department of Urology for more than 20 years. A former president of the American Urological Association, Prof. Vaughan has



authored more than 100 book chapters and is the former co-editor of the standard urology text Campbell's Urology.

Although most of fellows deal with adult urology, excellent lectures in paediatric urology were given by Prof. Dix P. Poppas from Weill Cornell and Prof. Rein J.M. Nijman from the University Medical Centre Groningen in the Netherlands. Excellent lectures, video materials and slides on congenital genitourinary abnormalities and genital reconstruction surgeries were followed by enthusiastic and long discussions.

The ordeal that a child and his family suffer from a congenital disorder could be too much even for a doctor, a situation which I believe could be better handled by experienced specialists such as a paediatric urologist- specialists which unfortunately



are not always available in many developing countries such as Azerbaijan. Faculty members Dr. Jaspreet S. Shandhu and Dr. Shahrokh F. Shariat are from Weill Cornell, and they both exemplify the importance of having experienced specialists in a hospital. Both have an excellent track record of specialised surgeries, an invaluable expertise that their junior colleagues can rely on during problem situations. Despite their long list of impressive academic achievements they are surprisingly casual and easy going with the fellows, impressing on me their modest attitude despite their remarkable expertise and wealth of experience.

Prof. David Castro-Diaz of the Department of Urology Completo Hospitalario Universitario de Canarias, (Spain) is among the authors of the EAU Guidelines on Neurogenic Lower Urinary Tract Dysfunction, and with his international calibre we were honoured by his admirable lecture and his sharing of insights and personal experience in the management of neurogenic patients and overactive bladder.

**Hands-on Training sessions**

The afternoon sessions in the third and fourth day of the seminar was devoted to Hands-on Training (HoT) in laparoscopy, providing an opportunity for all to be mentored and learn the technical tricks by seminar instructors on laparoscopy, TUR and URS training simulators. We practised and honed our skills, thanks to the expert mentorship of Prof. Gunter Janetschek, Drs. Lukas Lusuardi and Reinhold Zimmermann from SALK/Paracelsus Medical University.

HoT sessions are particularly important to me since my previous practical experience in urology mainly

focused on open surgeries. Unfortunately, there is no laparoscopy or endourology training center in Azerbaijan which could offer professional courses for urologists. Thus, many urologists back home gain experience in laparoscopy during their overseas residency or from visiting consultant urologists, obviously a training experience that is not sufficient particularly when independently managing difficult cases. In my opinion, endourology and laparoscopic urology is not a matter of good equipment, but requires confident and continuous skillful experience coupled with sound knowledge.

The awarding ceremony took place at the end of the seminar with all fellows receiving attendance certificate and CME credits from the Austrian Chamber of Physicians (26 DFP). Seminar participants are also invited to apply for one-month Observership Programme at Austrian hospitals.

I would like to express my thanks and appreciation to Prof. Aulitzky and Mrs. Elizabeth Bourg, seminar coordinator, for the excellent organisation and the opportunity given to all fellows. I am convinced that the knowledge and experience gained during the seminar will contribute to a better and safer management of patients. It is also a wonderful opportunity for me to share the insights and knowledge I gained from the ESU – Weill Cornell Masterclass with my colleagues back home.

**Lakes, chocolates and wine**

Salzburg in July is gorgeous, the weather and temperature crisp and ideal for walking and biking. The evenings I spent there were quiet, suitable for informal discussions, debates, jokes with the other fellows and the tasting of Austrian cuisine, accompanied by wine and beer.

Or simply take a tour in Salzburg to see the Fortress, the Mozart Museum, Cathedral Square with souvenir shops, the Maribel Park, beautiful lakes and the wide green fields.... These are my fond memories of Salzburg and I am sure that these memories will also stay for a long time in the hearts and minds of my co-fellows.

*Prof. Wolfgang Aulitzky lectures on Male Infertility*

ELM

## ŞƏFFAF TELEVİZOR

*Təsviri həm ön, həm də arxadan seyr etmək mümkündür*



Çinin "Haier" şirkəti Berlində keçirilən "IFA 2011" sərgisində təsviri həm ön, həm də arxa tərəfdən seyr etmək imkanı verən şəffaf televizor panelini nümayiş etdirib. Lent.az-ın Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin rəsmi saytına istinadən verdiyi məlumata görə, yeni televizorun diaqonalı 22 dyümə bərabərdir, displey isə OLED texnologiyası üzrə yaradılıb.

Nazik metal çərçivənin içində yerləşən ekranın təsvir ölçüsü 1680x1050 pikselə bərabərdir. "Haier" şirkəti istehsal etdiyi yeni məhsulun istifadəçilər tərəfindən evdə istifadə olunacağını güman etməyərək, onu daha çox reklam aləti kimi nəzərdən keçirir. Belə displeyləri ictimai yerlərdə seyr etmək daha əlverişli hesab edilir.

## KONDİSİONER GEYİM

*İxtiraçı Xiroşi İçiqaunun yeni kəşfi*

Yaponiyada kondisioner geyim yaradılmışdır. Bu geyim ona quraşdırılmış miniatür ventilyatorların köməyi ilə bədən temperaturuna nəzarət edə bilir. İxtiraçı Xiroşi İçiqaunun dediyinə görə, Yaponiyadakı anomal istilər nəticəsində xüsusi gödəkçənin satışı hər həftə on dəfə artır və onun şirkəti tələbatın öhdəsindən güc-bəla ilə gəlir. Kondisioner gödəkçə və ya "kuçofukunun" batareya ilə işləyən iki ventilyatoru vardır. Bu ventilyatorlar geyimin altındakı havanı sorur. İçiqau təsdiq edir ki, daimi hava axını tərləmənin qarşısını almağa imkan verir və bədən üçün normal temperatur yaradır. Onun dediyinə görə, yeni geyimi geydikdə otaqda bahalı kondisionerlərin quraşdırılmasına ehtiyac qalmır. Qeyri-adi geyimlər istehsal edən Toda şirkətinin Tokioda yerləşən iqamətgahında kondisioner və ya hər hansı ventilyator yoxdur. Otaqda temperatur müsbət 32 dərəcə və rütubət 59 faiz olduğu halda, bütün əməkdaşlar "kuçofuku" geyinmişlər və özlərini çox rahat hiss edirlər.

# İQTİSADİ İNKİŞAFDA TƏHSİLİN ROLU

Əmək bazarı iştirakçılarının peşəkar ixtisaslaşması ilə əmək bazarının səmərəliliyi arasında ciddi qarşılıqlı əlaqə mövcuddur. Bu səbəbdən də, əhalinin ali təhsil almaq hüququ istənilən normal dövlət quruluşunun əsas vəzifələrindən biridir.

İqtisadiyyatın məhsuldarlığı və əhalinin ali təhsilli kəsiminin qarşılıqlı əlaqələrini yalnız bərabər çıxış imkanlarında daimi hesab etmək olar. İqtisadi özəllikləri, təbii imkanları, vətəndaş cəmiyyətinin inkişaf səviyyəsi, hüquqi mühiti və siyasi quruluşu bənzər iki dövlət olmadığından ali təhsilin ümumdaxili məhsula (ÜDM) dəqiq təsir dərəcəsini müəyyən etmək də çətindir.

Amma əhalinin diplomlarının sayından daha çox, ali təhsilin keyfiyyəti ilə bağlı qanunauyğunluq açıq-aşkar gözlənilir. Bir sıra dövlətlərin statistik məlumatlarını nəzərdən keçirməklə buna əmin olmaq olar.

Müqayisə: ali təhsillilərin sayı nə qədərdir? Azərbaycandan başlayaq. Əhalinin sayı 9,111 milyon nəfərdir, iqtisadiyyatla 4,343 nilyon nəfər məşğul olur. 2010-cu ilin yekunlarına görə, Azərbaycanın Ümum Daxili Məhsulu (ÜDM) 41,575 mlrd. manata çatıb (51,968 mlrd. dollar), adambaşına düşən ÜDM isə 4653,3 manatdır (5797,8 dollar).

Nəhayət, bu gün Azərbaycanda əhalinin 17 faizini ali təhsillilər təşkil edir. Əhalisinin sayına görə Azərbaycana yaxın olan (təəssüf ki, bu analogiyanı iqtisadi göstəricilərə tətbiq edə bilmirik) ölkələr Avstriya, Belarus, İsveçdir (Somali və Benini məlum səbəblərdən bu siyahıya daxil etmirik).

Avstriyanın əhalisi 2010-cu ilin yekunlarına görə, 8,39 mln. nəfər olub, ölkədə iqtisadiyyatla fəal əhalinin 4,285 mln. nəfəri məşğul olub. Ölkənin sənaye-aqrar iqtisadiyyatında ÜDM-in həcmi ötən il 284 mlrd. avro təşkil edib və ya 330,496 mlrd. dollar olub (adambaşı düşən ÜDM - 49, 083 min dollar). Eyni zamanda, 2007-ci ildə ali təhsilli Avstriya vətəndaşları ölkə əhalisinin ümumi sayının 9 faizini təşkil edirlər. «Müxtəsər təhsil» İqtisadi Əməkdaşlıq və İnkişaf məsələləri üzrə təşkilatın araşdırmalarına görə, Avstriya digər inkişaf etmiş ölkələrdən ali təhsillilərin sayına görə geri qalır. Bu, ilk növbədə onunla əsaslandırılır ki, Avstriyada ali təhsil çox yüksək səviyyədədir və elitarlığı ilə seçilir.

2009-cu ilin məlumatlarına görə, Belarusun əhalisi 9,472 mln. nəfərdir. Onlardan 6,38 mln. nəfəri əmək qabiliyyətlidir. Belarusun ÜDM istehsalı ötən il 4,713 mlrd. dollar, adambaşına düşən ÜDM 5,8 min dollar olub. Bu arada rəsmi mənbələr xəbər verir ki, əhalinin ali təhsilli kəsimi 19 faizə çatır, bu isə postsovet ölkələri üçün normal göstəricidir.

İsveçin əhalisi 9,354 mln. nəfərə çatır. Bunun 4,5 mln. nəfəri istehsalat sahəsində çalışır. Bu ölkədə ÜDM-in həcmi 2010-cu ildə 358,4 mlrd. dollar təşkil edib, adambaşına düşən ÜDM 39,6 min manata çatıb. Son məlumatlara görə, İsveçdə vətəndaşların 21 faizi ali təhsillidir.

Dünya iqtisadiyyatında və regionda aparıcı rola malik digər dövlətlərin göstəricilərinə də nəzər yetirmək vacibdir. Amma bu zaman diqqəti ÜDM-in adambaşına düşən hissəsinə və ali təhsillilərin əhalinin ümumi sayı ilə nisbətinə yönəltmək lazımdır.

Məsələn, əhalisi 313, 232 mln. nəfər olan ABŞ-da 145,368 mln. nəfər iqtisadiyyat sahəsində çalışır. ÜDM 14,256 trln. dollardır, adambaşına düşən ÜDM isə 46,381 min dollardır. Son statistikaya görə, ABŞ-da əhalinin 35 faizi ali təhsillidir.

İsraildə əhalinin sayı bu ilin əvvəllərində 7,746 mln. nəfərə çatıb. Vətəndaşların 2,786 mln. nəfəri iqtisadi sektorda çalışır. Eyni zamanda, İsraildə ÜDM 2009-cu ildə 204,133 mlrd. dollar olub, adambaşına düşən ÜDM 28,081 min dollara çatıb. Bununla yanaşı, ölkədə ali təhsillilərin sayı 34 faizə çatır.

Əhalisi nisbətən seyrək - 34,213 mln. nəfər olan (2010-cu ilin məlumatına görə) Kanadada 17,123 mln. nəfər iqtisadiyyatla məşğuldur. ÜDM (2008-ci ilin məlumatı) 1,510 trln. dollar, adambaşına düşən ÜDM - 47,066 min dollar olub. Kanada hökumətinin immiqrasiya siyasəti sayəsində ali təhsilli əhalinin sayı çoxdur (23 faiz).

Çin Xalq Respublikasının demoqrafik və iqtisadi xarakteristikası da maraqlı kontrast yaradır. Burada əhalinin sayı (rəsmi məlumatlara görə) 1347,375 mln. nəfərdir, onlardan 764 mln. nəfəri əmək bazarında qeydiyyatdadır. Çinin ÜDM-i ötən il üçün 5,745 trln. dollar, adambaşı düşən ÜDM isə,

4,264 min dollar olub. Çinin yürütdüyü maarifçilik siyasətinə rəğmən, iqtisadi sektorda ali təhsillilərin sayı azdır (4,7 faiz).

Qonşu Rusiyada əhalinin sayı 142,8 mln. nəfərdir, onların 69,8 mln.nəfəri iqtisadiyyat sahəsində fəaliyyət göstərir. 2010-cu ilin nəticələrinə görə, ÜDM - 2,218 trln. dollar, adambaşına düşən ÜDM - 33,993 min dollar olub, ali təhsillilərin sayı 21 faiz təşkil edir.

Son statistikaya görə, Almaniyada əhalinin ümumi sayı - 81,757 mln nəfər, iqtisadiyyat sahəsində fəaliyyət göstərənlərin sayı 40,264 mln. nəfərdir. ÜDM (2009-cu il) 3,235 trln. dollar, adambaşına düşən ÜDM - 39,442 min dollar, ali təhsillilərin sayı 15 faizdir.

Fransada əhalinin ümumi sayı - 65,447 mln nəfər, iqtisadiyyat sahəsində fəaliyyət göstərənlərin sayı 25,924 mln. nəfər, ÜDM 2,063 trln. dollar, adambaşına düşən ÜDM - 42,747 min dollar, ali təhsillilərin sayı 15 faizdir.

İnformasiya qıtlığı səbəbindən, biz Afrika dövlətləri barədə susmalı olacağıq. Orada hələ də ali təhsillilərin və iqtisadi cəhətdən fəal əhalinin sayı azdır. Qeyd edək ki, CAR-da əhalinin ümumi sayı - 49,991 mln. nəfər, iqtisadiyyat sahəsində fəaliyyət göstərənlərin sayı 12,8 mln. nəfərdir. Amma ölkənin iqtisadi özəllikləri sayəsində 2009-cu ildə ÜDM 505,2 mlrd. dollar, adambaşına düşən ÜDM - 10,243 min dollar təşkil edib. Təəssüf ki, CAR-ın təhsil sistemi ilə bağlı dəqiq rəqəmlər gətirə bilməyəcəyik, bəzi məlumatlara görə, orada ali təhsillilərin sayı 2-6 faiz arasında dəyişir.

Braziliyada əhalinin sayı, son məlumatlara görə, 192,572 mln. nəfər, iqtisadiyyat sahəsində fəaliyyət göstərənlərin sayı 89,3 mln. nəfər (2010-cu il), ÜDM 2,023 trln. dollar, adambaşına düşən ÜDM - 10,471 min dollar, ali təhsillilərin sayı 15 faizdir.

Qonşu Türkiyədə əhalinin sayı - 73,723 mln. nəfər, iqtisadiyyat sahəsində fəaliyyət göstərənlərin sayı 22,3 mln. nəfər (2010-cu il), ÜDM 970 mln. dollar, adambaşına düşən ÜDM - 12 min dollar, ali təhsillilərin sayı 10 faizdir.

### *Nəhəng uyğunsuzluq*

Əgər biz diqqəti araşdırmamızın iki aparıcı məqamına - adambaşına düşən ÜDM-ə və ali təhsillilərin sayına cəlb etsək, rəqəmlər arasında nəhəng uyğunsuzluq gözə dəyir. Başqa sözlə, əmək bazarında çalışanların təsnifatlaşma səviyyəsi, məlum olduğu kimi, dövlətin iqtisadi bazasını müəyyənləşdirir, ilk baxışdan mövcud statistika bu postulatı təsdiq etmir.

Beləliklə, sənaye-aqrar üzrə ixtisaslaşan Avstriyada geniş sənaye bazası - güclü, xüsusən də, kimya və neft-kimya sənayesi, elektrotexnika, tekstil və ağac emalı sənayesi mövcuddur. Burada ixtisaslaşmış işçi qüvvəsinə, o cümlədən inkişaf etmiş turizm sektoruna üstünlük verilməsi qanunauyğundur. Qeyd etmək lazımdır ki, Avstriyanın, demək olar ki, təbii sərvətləri yoxdur və o, xammalın idxalından asılı deyil. Buna baxmayaraq, uzunmüddətli təcrübəyə malik milli sənaye və mütəxəssislərin 9 faizinin peşəkarlığını təmin edən yüksək səviyyəli təhsilə malik olması sayəsində ölkə adambaşına düşən ən yüksək ÜDM-ə malikdir.

Belarus iqtisadiyyatının strukturu iqtisadiyyatda sənaye, energetika, nəqliyyat, istehsal, tikinti, kənd təsərrüfatı, bank sferalarında və cüzi də olsa, özəl sektorda dövlət nəzarəti ilə diqqəti çəkir. Əsas ixrac mənbələri - enerji daşıyıcıları, maşınqayırma məhsulları, metallurgiya və kimya sənayesidir. AR-dən daha çox ali təhsilli əhalisi olan Belarus analoji ÜDM-ə malikdir

İsveç iş yerlərinin yaradılması və inkişafın stimullaşdırılması üzrə aparıcı mövqe tutur. Ölkə dünyada bir sıra tanınmış firmalar və kütləvi istehsalla məşhurdur. Bununla yanaşı, İsveç innovasiyanın yüksək səviyyəsi, yaxşı inkişaf etmiş və daim yenilənən infrastruktur və yüksək ixtisaslaşmış işçi qüvvəsinə malikdir. İqtisadiyyat xüsusən xarici ticarətə istiqamətlənib. Nəticədə, əmək bazarının və müəyyən olunmuş iqtisadi vektorun ümumi səviyyəsi yüksək səmərəliliyi təmin edir: İsveç texnoloji inkişafın və insan resurslarının stimullaşdırılmasının uğurlu illüstrasiyasıdır.

Dünyanın ən güclü iqtisadiyyatına və zəngin təbii (o cümlədən enerji) ehtiyatlarına malik ABŞ ən geniş profilə malik yüksək texnologiyalı istehsal, xidmət sahəsinin inkişafı və rəqabət qabiliyyətli sənayesi ilə tanınır. Dərhal innovasiyaya tətbiq olunan elmi araşdırmalara müntəzəm dəstək verilir. Burada xüsusilə də yüksək texnologiyalar sahəsində yaxşı təhsil sistemi qurulub. Bununla yanaşı, ABŞ dünyada ən iri məhsul ixracatçısıdır. Sənaye sektorundakı yüksək xərclər xammalın fəaliyyətilə

konpensasiya olunur. Bu, ABŞ-ın adambaşına düşən ÜDM göstərisinin nəticəsidir.

İsrail iqtisadiyyatının və sənayesinin inkişafına görə, Cənub-Qərbi Asiyada ən inkişaf etmiş ölkələrdən sayılır. Ekspertlər ölkənin rəqabət qabiliyyətini və biznes üçün yaradılan həddən artıq münbit şəraiti yüksək dəyərləndirirlər. Xidmət sahəsinin xüsusilə yaxşı inkişaf etməsi, elmi araşdırmaların effektiv bazarı, o cümlədən özəl sektordakı kütləvi istehsal enerji və xammal ehtiyatlarının çatışmazlığını tənzimləyir. Bununla belə, ali təhsillilərin sayı hələ «adambaşına düşən və dövlətin mövcud olduğu qısa müddət ərzində sənaye çəkisi toplamağa» imkan tapa bilməyən ÜDM-i xeyli üstələyir.

Dünyanın on ən böyük ticarət ölkələrindən biri olan Kanada adambaşına düşən gəlirin yüksək göstəricisinə görə ən zəngin dövlətlərdəndir.. Ötən əsrdə istehsal artımı, dağ-mədən sənayesi və xidmət sektoru Kanadanı kənd təsərrüfatı ölkəsindən sənaye dövlətinə çevirdi. Başqa inkişaf etmiş dövlətlərdə olduğu kimi, burada da kanadalıların üçdə birinin çalışdığı xidmət sahəsi üstünlük təşkil edir. Bununla yanaşı, ölkədə xammal sahəsi əsas sayılır, burada ağac tədarükü və neft sənayesi əhəmiyyətli rola malikdir: Kanada dünyanın inkişaf etmiş azsaylı dövlətlərindəndir ki, birbaşa enerji daşıyıcıları ixrac edir. Bunun nəticəsi kimi, ali təhsillilərinin sayı o qədər də çox olmayan ölkədə adambaşına düşən ÜDM göstəriciləri çox yüksəkdir.

ÇXR sosialist dövlətidir, amma ÜDM-in 70 faizini kiçik və orta biznеslə məşğul olan özəl müəssisələr təmin edir. Ayrı-ayrı ekspertlərin Çindəki iqtisadi sistemin forması ilə bağlı fikirləri üst-üstə düşmür, amma bir məqam şübhə doğurmur ki, xammal sektorunun kiçik olmasına baxmayaraq, ölkə iqtisadiyyatı ixraca istiqamətlənmiş istehsala əsaslanır. Ehtimal etmək lazımdır ki, adambaşına düşən ÜDM-in aşağı göstəriciyə malik olması (Azərbaycanla müqayisədə 25 faiz az) yalnız Çin əhalisinin çoxluğu ilə bağlıdır və orada təhsil məsələsinə yalnız son illərdə xüsusi diqqət verməyə başlayıblar. Fərz etmək olar ki, zamanla ali təhsillilərin sayı artdıqca, CXR-in ÜDM göstəricisi də yüksələcək.

Daha bir nümunəvi misal Rusiya ilə bağlıdır. Burada hər iki göstərici İsveçdəki rəqəmlərə uyğun gəlir. Ali təhsillilərin sayı üst-üstə düşür, amma adambaşına ÜDM göstəricisinə görə, Rusiya bir qədər arxada qalır. Xatırlamaq lazımdır ki, Rusiya iqtisadiyyatı enerji daşıyıcılarının ixracından həddən artıq asılıdır. «Holland sindromu» təhlükəsi hələ də gündəmdədir, qeyri-enerji sahəsi isə iflasa doğru gedir.

1990-cı illərin əvvəllərində Rusiyada inkişafın postindustrial mərhələsi başladı. Bu mərhələ xidmət sahəsinin dəyərinin ÜDM-i 50 faiz üstələməsi ilə xarakterizə olunur. Fəaliyyətdə olan müəssisələr bir sıra amillərlə bağlı (bunlardan ən başlıcası - qüvvələrin köhnəlməsidir) yetərincə balanslaşdırılmış ixrac seqmenti üçün dövriyyəni təmin edə bilmirlər. Adambaşına düşən ÜDM-in yetərincə yüksək göstəricisi isə bir çox hallarda neft və qaz satışı hesabına təmin olunur.

Almaniya - sənaye baxımından həddən artıq inkişaf etmiş dövlətdir. İqtisadiyyatın əsas sahələrini maşınqayırma, elektrotexnika və kimya sənayesi, avtomobil və gəmiqayırma, daş kömür sənayesi təşkil edir. Ölkə, kömür istisna olunmaqla, faydalı qazıntılara sahib deyil, bu səbəbdən də onun iqtisadiyyatı daha çox sənaye istehsalı və xidmət sektoruna yönəlib, eyni zamanda Almaniya yüksək istehsala malik kənd təsərrüfatına malikdir. Amma Almaniya dünyanın 5 ən böyük enerji istehlakçısından biridir. Adambaşı düşən ÜDM-in yüksək səviyyəsi - industrial inkişafa yönələn iqtisadi strategiyanın nəticəsidir. Bir məqamı da qeyd edək ki, Almaniyada ali təhsil geniş yayılmayıb.

Fransada da ali təshillə bağlı anoloji vəziyyət hökm sürür, orada da Almaniyada olduğu kimi, ali təhsillilərin sayı cəmi 15 faizdir. Yüksək inkişafa malik bu aqrar-sənaye ölkəsi dünyada sənaye istehsalının həcminə görə aparıcı yerlərdən birini tutur. Eyni zamanda, Fransada adambaşına düşən ÜDM göstəricisi çox yüksəkdir. Bununla yanaşı, xidmət sahəsi ölkə iqtisadiyyatında və əmək bazarında (bu bazarın resurslarının böyük hissəsi qeyri-istehsal sahəsində cəmləşib) əhəmiyyətli rola malikdir.

Bunun səbəbini yaxşı balanslaşdırılmış iqtisadiyyatda axtarmaq lazımdır, burada iri sənaye müəssisələri səmərəli fəaliyyət göstərən orta və kiçik biznеslə əməkdaşlıq edirlər. Belə kiçik və orta müəssisələrdə idarəçilərin ali təhsilə malik olması xüsusi əhəmiyyət kəsb etmir.

CAR-a gəlincə, burada cüzi sayda ixtisaslaşmış mütəxəssislər olsa da, iqtisadiyyat xammala əsaslandığından adambaşına düşən ÜDM göstəricisi yüksəkdir. CAR dünyada ən böyük qiymətli daş və əsas metal istehsalçısıdır. CAR almaz hasilatına görə

dünyada ikinci yeri tutur, amma bu almazlar qiymətinə görə daha bahalı olduğundan ÜDM-ə əlavə artım gətirir. Eyni zamanda, CAR kömür hasilatı və ixracı üzrə aparıcı yer tutur, emal sənayesində isə əhəmiyyətli rolu metallurgiya, qismən də maşınqayırma oynayır. Ölkə iqtisadiyyatının nüfuzlu sənaye potensialı (əhalinin peşəkarlıq potensialı ilə müqayisədə) artıq tükənməkdə olan təbii ehtiyatların istismarının nəticəsidir.

Latın Amerikasında ən çox inkişaf etmiş sənaye sektoruna malik Braziliyada məsələ bir qədər başqa cürdür. Maşınqayırma, metallurgiya, neft emalı və istehlak sahəsində müxtəlif məhsullar istehsal edən ölkə ÜDM-nin üçdə bir hissəsi buradan formalaşır. Braziliyada, eyni zamanda, güclü maliyyə bazarı da daxil olmaqla xarici sərmayədarları cəlb edən inkişaf etmiş hərtərəfli xidmət sektoru mövcuddur. Amma etiraf etmək lazımdır ki, burada sənaye sektoru hələ çox cavandır. kənd təsərrüfatı isə az texnoloji olduğundan, göstəriciləri, belə deyək, aşağı salır. Bunun nəticəsi kimi, Braziliyada adambaşına düşən ÜDM-i qiymətli daşlardan gəlir götürən CAR-la müqayisə etmək olar. Halbuki Braziliyada təhsilin səviyyəsi Avropadan geri qalmır. Nəhayət, qonşu Türkiyədə iqtisadiyyatın üçdə bir hissəsini sənaye təşkil edir, burada xidmət sahəsi (xüsusən də turizm sektorunda) ÜDM-in yarısından çoxunu təşkil edir. Sənaye istehsalında ümumi həcmin böyük hissəsi emal (o cümlədən, tikinti) sənayesindən gələn gəlir hesabına formalaşır. Turizm inkişaf etməkdə davam edir, bu da adambaşına düşən yüksək ÜDM-in payında ali təhsillilərin sayının yetərincə az olduğunu əsaslandırır.

### *Peşəkar təhsilin rolu*

Beləliklə, bu araşdırmamızda bir neçə qanunauyğunluqdan danışdıq. Xüsusən də, misal çəkdiyimiz göstəricilərdən aydın olur ki, adambaşına düşən ÜDM-lə nisbətdə iqtisadiyyatın yüksək məhsuldarlığının (bu göstərici dövlətin iqtisadiyyatında aparıcı əhəmiyyətə malikdir) bir neçə bağlılığı var.

Bunlar - dövlətdə təhsilin yüksək səviyyəsi; ixrac olunan nəhəng məhsul potensialı; böyük istehsal potensialı (o cümlədən, fərdi biznesdə); və nəhayət, ixrac olunan xammal potensialıdır. Sonuncu amil əvvəlkilərdən özünün həddən artıq qeyri-stabilliyi ilə fərqlənir, bu səbəbdən də, ona arxayın olmaq məqsədəuyğun deyil. Fərdi sahibkarlığın inkişafının açıq-aşkar üstünlüyü də görünür, bu, bazarın çevikliyini də təmin edə bilər. 2008-ci ildən bəri, xüsusən də, qlobal böhran prosesləri zamanı müntəzəm şəkildə şahid olduğumuz bu məqam zəif halqəyə çevrilir.

Sənaye və industrial inkişaf perspektivlər açır, amma məhz bu sfera yüksək ixtisaslı mütəxəssislər tələb edir. Buradan belə nəticəyə gəlmək olar ki, istənilən dövlət üçün iqtisadiyyatın məqsədyönlü şəkildə stabilləşməsi xammal sektorunun balanslaşdırılmasına yönələn dövlət strategiyasının hazırlanması və tətbiqindən keçir. İdeal tərs-mütənasiblik - innovasiya texnologiyalarının uyğunluğu, sənayenin və kiçik biznesin inkişafıdır. Bu prosesin maksimum səmərəli keçməsi üçün dövlət peşəkar (sözün bütün mənalarında - həm nəticəyə, həm də tədris prosesinə) təhsilə diqqət ayırmalıdır.

Yekunda xatırlatmaq lazımdır ki, Azərbaycan bu gün rəsmən inkişaf etmiş sənayesi və çoxsahəli kənd təsərrüfatı olan industrial-aqrar ölkəsidir. Amma ölkənin iqtisadiyyatında mühüm yeri neft və qaz hasil edən, o cümlədən neft emal edən sahələr tutur. Kimya, maşınqayırma, dağ-mədən sənayesi və metallurguya mənəvi aşınma üzündən hələlik ikinci plandadır və yeyinti və yüngül sənayenin müxtəlif sahələrinin çəkisi xeyli azdır. Xidmət strukturu zəif inkişaf edib, özəl sahibkarlıq isə, biznes mühitinin xarici ekspertlər tərəfindən yüksək qiymətləndirilməsinə baxmayaraq, hələ də körpə vəziyyətindədir.

Artıq qeyd etdiyimiz kimi, Azərbaycanda ali təhsillilər əhalinin 17 faizini təşkil edir, amma bəzi qiymətləndirmələrə görə, 50 faiz daha optimal olardı. Məhz bu, iqtisadiyyat üçün stabil və səmərəli olan, enerji və xammal sektorlarından asılı olmyan yüksəlişi təmin edərdi. Bu nəticəni əldə etmək üçün Azərbaycan ali təhsilin səviyyəsinin yaxşılaşdırılması üzərində düşünməlidir. Hələlik isə, etiraf etməliyik ki, müasir prinsiplərə keçid istənilən qədər uğurla baş vermir.

**Yelena Starostina**

*ANN.Az*

# LUNATİZM TƏHLÜKƏLİ PROBLEMDİR

*Yuxuda gəzmək və danışmaq tez-tez uşaqlarda təsadüf edilir, lakin yaşlılar da bu problemdən əziyyət çəkirlər*



Psixoloqlar bildirirlər ki, yuxuda gəzmək və danışmaq insomniya adlanan yuxu pozulmalarına aiddir. Həmçinin somnambulizm adlanan lunatizm, adətən, yuxunun birinci yarısında təzahür edir. Yaşlı adamlar yuxuda açıq gözlə gəzir, onları oyatmağa çalışanda isə diksinirlər. Sonra təzədən yatırlar və səhər yuxudan oyananda isə heç nə xatırlamırlar. Yuxuda danışmağa gəldikdə isə danışan, bir qayda olaraq, öz problemindən bixəbər olur.

Bəs bu vərdişi necə adlandırmaq olar? Əsas etibarilə 4-12 yaşlı uşaqlarda təsadüf edilən lunatizmi, yaxud somnambulizmi çox vaxt zəif inkişaf etmiş mərkəzi sinir sistemi və ya ifrat yorğunluq doğurur. Səbəblərini aradan qaldırandan və uşağa istirahət verəndən sonra, adətən, bu təzahür öz-özünə keçib gedir.

Lunatizmin yetkinlik dövründə təzahür etməsi emosional problemlərin və yuxusuzluğun nəticəsi ola bilər. Yuxuda danışmağı stress, güclü narahatlıq hissləri doğurur. Nizamsız yuxu rejimi, bəzi dərmanlar, baş zədələri, qalxanvari vəzin fəaliyyətinin pozulması da lunatizm tutmalarına səbəb ola bilər.

İstənilən halda yuxuda gəzmək və danışmaq orqanizmin nasazlığından, fiziki və emosional problemlərdən xəbər verir. Bu problemləri aradan qaldırmaq üçün isə əvvəlcə həkim məsləhəti almaq lazımdır.

# ORQANİZMDƏ SU QITLIĞI DİABET ƏMƏLƏ GƏTİRİR

*Fransa alimlərinin fikrincə, diabetqabağı vəziyyətin inkişafına orqanizmin gün ərzində su qıtlığı çəkməsi səbəb ola bilər*



Fransa alimlərinin fikrincə, diabetqabağı vəziyyətin inkişafına orqanizmin gün ərzində su qıtlığı çəkməsi səbəb ola bilər. Diabetqabağı vəziyyət orqanizmin qanda şəkərin faizinin çox olduğu, lakin diabet sayılmadığı vəziyyətidir. Diabetqabağı vəziyyətin 2-ci tip şəkərli diabetə çevrilməsi riski çox yüksəkdir. Diabetqabağı vəziyyət orqanizmdə xəstəliyin əlamətlərinin hələ nəzərə çarpmadığı vəziyyətdir. Dünyada yaşı 20-dən çox olan 300 milyon insan diabetqabağı vəziyyətdədir. Onların qanında şəkərin səviyyəsi yüksək olsa da, şəkərli diabet diaqnozu qoyulması üçün kifayət deyildir.

Alimlər qanında şəkərin səviyyəsi yüksək olan 30-65 yaşlı 4615 adamı müayinə etmişlər. Məlum olmuşdur ki, onların 15 faizi gündə yarım litrdən az su içir. Doqquz il ərzində 565 iştirakçının qanında anormal dərəcədə yüksək şəkər faizi aşkar edilmiş, 202 nəfərə 2-ci tip diabet diaqnozu qoyulmuşdur. Ətraflı araşdırmalar göstərmişdir ki, gündə yarım litrdən çox su içənlərin diabetə tutulmaq riski xeyli azalır.

# ASTA YEMƏYİN XEYRİ

*Qidanı yavaş-yavaş qəbul etmək lazımdır, o zaman arıqlamaq şansı daha çox olacaqdır*

Rod-Aylend Universiteti alimlərinin apardıqları tədqiqatların nəticələri göstərir ki, biz qidanı nə qədər yavaş-yavaş yesək, daha biçimli olmaq şansımız bir o qədər artar.

Laboratoriya şəraitində qidalanmış 60 gəncin iştirakı ilə aparılan eksperiment nəticəsində aydın olmuşdur ki, yavaş-yavaş yeyənlər az yemək yeyirlər.

Tədqiqatçıların fikrincə, asta sürət dad qabarcıqları vasitəsilə qidanın beyinə orqanizmin doyması barədə vaxtından qabaq siqnal göndərməklə ona daha tam təsir göstərməsinə imkan verir.

Mütəxəssislər hər qida qəbuluna 20 dəqiqə vaxt sərf etməyi və bu zaman qəbul olunan qidanın dadını daha tam hiss etməyə çalışmağı məsləhət görürlər.

# MOZAİKA

## DÖRD BACI - İKİSİ QARA, İKİSİ AĞ...



Hayli və Loren Düranlar ABŞ-da yaşayan əkizlərdir.

Onları dünyadakı digər əkizlərdən fərqləndirən dərilərinin rəngidir. İş ondadır ki, Hayli qaradərili, ondan cəmi 20 dəqiqə sonra dünyaya gəlmiş bacısı Loren isə ağdərilidir.

"USA Today" bildirir ki, atanın qaradərili, ananın isə ağdərili olduğu ailənin "qəribə"liyi bununla bitmir. 3 ay əvvəl Hayli və Lorenin əkiz bacıları anadan olub.

Körpələrin biri yenə qaradərili, digəri isə ağdərilidir...

## "MARKİZA"NIN DÖRDÜNCÜ SAHİBİ

*Dünyanın qədim buxar avtomobili ABŞ-da 4,62 milyon dollara satılmışdır*



Bu avtomobil Fransada istehsal olunmuşdur. "Markiza" adlı qara rəngli buxar avtomobilinin sürəti saatda 61 kilometr, uzunluğu 2,7 metr, çəkisi isə 952 kiloqramdır. Adının gizli qalmasını istəyən avtomobilin yeni sahibi Xerşi şəhərində (Pensilvaniya ştatı) keçirilən hərracda ona satış qiymətindən iki dəfə artıq pul ödəmişdir.

Hərrac evinin məlumatına görə, avtomobil sahibi artıq 4 dəfədir dəyişir. Sonuncu sahibi onu nə az, nə çox 84 il saxlamışdır.

Xatırladaq ki, buxar avtomobili Qraf Jül-Alber de Dionun anasının şərəfinə "Markiza" adlandırılmışdır. O, 1887-ci ildə Paris və Versal arasında keçirilən ilk avtomobil yarışlarında iştirak etmişdir.

## "GÜNƏŞ DAMCISI"





*Dünyada ən bahalı almazlardan biri hərraca çıxarılacaqdır*

"Sotheby" hərrac evi Cənubi Afrikada tapılan "Günəş damcısı" ("Sun drop") adlanan almazı hərraca çıxaracaqdır. Londonda sərgisi keçirilən almazın ölçüsü 110,3 karatdır.

Noyabrın ayında İsveçrənin Cenevrə şəhərində hərraca çıxarılacaq almazın 15 milyon dollara satılacağı güman edilir.

## PARİSDƏ YENİ NƏQLİYYAT

*Xanımlar üçün taksi istifadəyə verilmişdir*



Paris küçələrində peyda olan gümüşü rəngli taksilər həm şəhər sakinlərinin, həm də çoxsaylı qonaqların diqqətini cəlb edir. Belə avtomobillər bu vaxtadək Londonun vizit kartı sayılırdı. İyun ayından isə Fransa paytaxtında "Xanımlar üçün taksi" şirkəti fəaliyyət göstərməyə başlamışdır.

Şirkətin rəhbəri Malika Monta xanımlara yüksək səviyyəli xidmət vəd etmişdir. Avtomobildə xüsusi GPS ötürücüsü quraşdırılmışdır. Onun vasitəsi ilə istənilən an nəqliyyat vasitəsinin yerini izləmək olar.

Sərnişin salonunda kompakt-diskli televizor quraşdırılmışdır. Orada mini-bar və hətta kiçik manikür masası da vardır. Sərnişin salonunu sürücüdən qalın şüşə ayırır. Sürücü ilə danışmaq zərurəti yaranarsa, onda mikrofonu işə salmaq mümkündür.

Qadın taksisində şəhər içərisində gediş haqqı 28 avrodur. Bu adi taksilərdəki qiymətdən təxminən 1 avro ucuzdur. Alış-verişə həvəskar olan xanımlar üçün xüsusi "şopinq" xidməti də var. Bu xidmət vasitəsi ilə müştərilər 2 saat üçün 150 avroya maşın sifariş edə bilərlər.

Nəhayət, Parisdə rahat hərəkət eləmək istəyənlər 750 avroya taksiyə abunə ola bilərlər. Bu zaman taksi bir il ərzində lazım olduğunda öz gülümsər sürücüsü ilə evinizin qarşısında sizi gözləyəcəkdir.

## ƏN BAHALI ƏL ÇANTASI

*Sərgidə 4 milyon dollar dəyərində əl çantası nümayiş etdiriləcək*



Dubayda təşkil olunacaq sərgidə qiyməti 4 milyon dollar dəyərində dünyada ən bahalı əl çantası nümayiş etdiriləcəkdir.

4356 brilyantla bəzədilmiş "1001Night Diamond Purse" çantası Dubai İnternational Jewellery Week regional sərgisinin ən bahalı eksponatlarından biri olacaqdır.

Noyabr ayında keçiriləcək sərgidə tamaşaçıların diqqətinə "Opus Siroya Ferrari Book" seriyasından olan kitab (kitabın cildi 250 min dollar dəyərində qiymətləndirilən Ferrari rəmzli platinlə bəzədilmişdir), 99 karatlıq "Dubai Cut" brilyantı, həmçinin dünyada ən iri sarı sapfir təqdim olunacaqdır.

## LOTEREYADA - 157 MİLYON DOLLAR

*Britaniya sakini lotereyada 157 milyon dollar udmuşdur*

Böyük Britaniya sakini "Euromillions" lotereyasında rekord məbləğ - 101 milyon funt sterlinq (təxminən 157 milyon dollar) udmuşdur. Bununla da, adı açıqlanmayan qalib Britaniyanın min ən zəngin şəxsi sırasına daxil olmuşdur. Bu, sözügedən lotereyanın tarixində 3-cü ən böyük uduşdur. "Euromillions" Britaniya ilə yanaşı, İrlandiya, İspaniya, Portuqaliya, Fransa, Belçika, Lüksemburq, İsveçrə və Avstriyada da oynanılır.

# 2012-Cİ İL ÜÇÜN
# "XƏZƏR XƏBƏR" JURNALINA
# ABUNƏ ELANI

**Xəzər Universitəsinin elmi-kütləvi və ədəbi-publisistik nəşri olan "Xəzər Xəbər" jurnalı ayda bir dəfə (avqust ayından başqa) 80 səhifə həcmində və qismən rəngli çap olunur.**

*Jurnalda Azərbaycan, türk, rus və ingilis dillərində tələbə həyatı, təhsil yenilikləri, elm, sənət, ədəbiyyat, mədəniyyət, turizm və idmana aid müxtəlif materiallar və maraqlı xəbərlər dərc olunur.*

2012-ci il üçün "Xəzər Xəbər" jurnalına "Azərmətbuatyayımı" ASC-nin şəhər və rayon mətbuat yayımı şöbələrində, "Qasid" ASC-nin xətti ilə isə aşağıdakı ünvanlarda dekabrın 25-dək abunə yazılmaq olar (1 illik abunə haqqı 22 manat, 6 aylıq abunə haqqı ilin birinci yarısında 12 manat, ilin ikinci yarısında 10 manatdır):

***"Azərpoçt" MMC-nin Bakı Mərkəzi poçtu (Üzeyir Hacıbəyov küçəsi, 36), tel.: 493-33-66***

***1 saylı poçt (İstiqlaliyyət küçəsi, 35, İçərişəhər metrosunun yanı, İqtisadiyyat Universiteti ilə üzbəüz), Tel.: 492-58-40***

***"Qasid" Açıq Səhmdar Cəmiyyəti (5-ci mikrorayon, Cavad xan küçəsi, 21, Memar Əcəmi metrosunun yanı, tel.: 493-14-06; 493-16-43***

***"Xəzər Xəbər" jurnalına, həmçinin, "Metro-Servis" MMC-də abunə yazılmaq olar. Tel.: 434-01-33; 434-93-01***

"Xəzər Xəbər" jurnalını pərakəndə satışda "Metro-Servis" MMC-nin Bakı metropoliteni stansiyalarındakı köşklərindən almaq olar.

*"Xəzər Xəbər"ə abunə yazılın!*
*"Xəzər Xəbər"i oxuyun!*
*"Xəzər Xəbər"ə yazın!*

# AZƏRBAYCAN KANOEÇİSİ ANDREY KRAYTOR BEYNƏLXALQ REQATANIN QALİBİ OLMUŞDUR



Azərbaycanın istedadlı kanoeçisi, gənclər arasında Avropa çempionu Andrey Kraytor Almaniyada keçirilmiş beynəlxalq "Potsdam Canal Sprint" reqatasının qalibi olmuşdur.

Azərbaycan Milli Avarçəkmə Federasiyasından bildirmişlər ki, 19 yaşlı idmançımız artıq 8 ildir mövsümün sonunda keçirilən turnirə xüsusi dəvət əsasında qatılmışdır.

Yarış qaydası isə belə olub: İki zolaqdan ibarət yürüş xəttinə hər dəfə iki idmançı çıxmışdır. Onlar 200 metr məsafəyə yürüş etmişlər. Yürüş bəhsə girən idmançılardan biri iki dəfə məğlub olanadək davam etmişdir. Uduzanlar mübarizəni dayandırmışlar, qaliblər isə növbəti mərhələyə yüksəlmişlər. Kraytor ardıcıl 4 yürüşün qalibi olmuşdur. Finalda o, kişilər arasında son Avropa çempionu və dünya çempionatlarının mükafatçısı, almaniyalı Sebastyan Brendellə yarışmışdır. Gənc kanoeçimiz özündən 4 yaş böyük rəqibinə qalib gəlmişdir.

# AZƏRBAYCAN BOKSÇUSU MƏHƏMMƏDRƏSUL MƏCİDOV DÜNYA ÇEMPİONUDUR



Bakıdakı Heydər Əliyev adına İdman-Konsert Kompleksində boks üzrə XVI dünya çempionatı başa çatrirmışdır.

91 kq-dan yuxarı çəki dərəcəsində mübarizə aparan Azərbaycan boksçusu Məhəmmədrəsul Məcidov finalda ingiltərəli idmançı Entoni Coşuanı 22:21 hesabı ilə məğlub edərək, dünya çempionatının qızıl medalını qazanmışdır.

***

Oktyabrın 24-də AİBA 2011-ci ilin ən yaxşı boksçularının adlarını açıqlamışdır. Azərbaycan milli komandasının üzvü Məhəmmədrəsul Məcidov "İlin ən yaxşı boksçusu" seçilmişdir.

Digər nominasiyalar üzrə fərqlənənlər: "İlin ən yaxşı gənc boksçusu" - Əsror Vahidov (Tacikistan), "İlin ən yaxşı məşqçisi" - Dmitri Sosnovski (Ukrayna), "İlin ən yaxşı hakimi" - Maykl Qallaherdir (İrlandiya). Mükafatlandırma mərasimi noyabrın 27-də Londonda keçiriləcək.

Xatırladaq ki, ötən il "Ən yaxşı gənc boksçu" nominasiyasında həmyerlimiz Şaban Şahpələngov fərqlənmişdir.

# AZƏRBAYCANLI GƏNC AVSTRİYA ÇEMPİONUDUR



Avstriyada Braziliya ciu-citsusu üzrə ölkə çempionatı başa çatmışdır. Çempionatda mübarizə aparan idmançılar arasında bu ölkədə yaşayan həmyerlimiz, 16 yaşlı Tural Quliyev də olmuşdur.

63 kq çəki dərəcəsində tatami üzərinə çıxan T.Quliyev keçirdiyi bütün görüşlərdə qələbə qazanaraq, Avstriya çempionu titulunu əldə etmişdir.

Vyananın "City Thong" idman klubunun şərəfini qoruyan T.Quliyev bu qələbə ilə beynəlxalq yarışlarda gücünü sınamaq imkanı qazanmışdır.

## GİMNASTIMIZIN İZMİR TURNİRİNDƏ BÜRÜNC MEDALI



Azərbaycan gimnastı Gülsüm Şəfizadə ötən istirahət günləri İzmirdə keçirilmiş beynəlxalq turnirin bürünc mükafatçısı olmuşdur. Azərbaycan Gimnastika Federasiyasının mətbuat xidməti xəbər verir ki, 13 yaşlı Bakı gimnastı təsnifat yarışlarında yaxşı çıxış etmiş, finala çıxaraq topla hərəkətlərdə 3-cü yeri tutmuşdur.

Azərbaycan yığmasının baş məşqçisi Mariana Vasilyovanın sözlərinə görə, gimnastın digər kompozisiyaları da yaxşı təsir bağışlamışdır. Bolqarıstan mütəxəssisi demişdir: "Bu, onun oktyabrın 28-30-da Tokioda keçiriləcək klublararası dünya çempionatında uğurla çıxış edəcəyinə ümid verir. Burada o, "Neftçi" komandasının heyətində Aliyə Qarayeva və Anna Qurbanova ilə birlikdə təmsil olunacaqdır".

## KAMRAN ƏSƏDOV İSVEÇRƏDƏ KEÇİRİLMİŞ ŞAHMAT ÜZRƏ ÇEMPİONATIN QALİBİDİR

İsveçrənin Cenevrə şəhərində keçirilmiş şahmat üzrə 18-ci məktəblərarası çempionat başa çatmışdır.

Cenevrə Şahmat Federasiyası tərəfindən təşkil edilən ənənəvi yarışda 160-dan çox gənc idmançı iştirak etmişdir.

Çempionatda Azərbaycanı qrossmeyster Kamran Əsədov təmsil etmişdir. Yarışda ən yüksək nəticəni K.Əsədov göstərmişdir. Təmsilçimiz İsveçrədə keçiriləcək növbəti şahmat turnirlərində də iştirak etmək hüququ qazanmışdır.

İsveçrə sistemi üzrə keçirilən yarış 7 turdan ibarət olmuşdur.

"Rabitə" komandası Qətərin paytaxtı Dohada keçirilən qadın voleybolçular arasında klublararası dünya çempionatında güclü kollektivlərlə bir qrupda yer almışdı. Buna baxmayaraq, "Rabitə" gözəl oyun nümayiş etdirərək, dünyanın ən güclü komandası olduğunu sübut etmişdir." Bu sözləri Bakının "Rabitə" komandasının prezidenti Cəlil Cəfərov jurnalistlərə bildirmişdir.

C.Cəfərov vurğulamışdır ki, çempionat başlamazdan əvvəl Tailandın "Çanq" komandası favorit hesab olunurdu. Amma "Rabitə" komandası "Çanq"ı yarışdan asanlıqla (3:0) kənarlaşdırmağı bacardı. Mundialın digər ən gərgin qarşılaşması isə final oyunu oldu. Bu qarşılaşmada Türkiyənin "Vakıfbank Günəş Telekom" komandası üzərində inamlı qələbə (3:0)

## "RABİTƏ"NİN

qazanan "Rabitə" Çempionlar Liqası yarışlarındakı məğlubiyyətin əvəzini çıxa bildi.

"Rabitə"nin inamlı oyun nümayiş etdirərək tarixi qələbə qazandığını deyən C.Cəlilov bu uğurun ölkə başçısı İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğının bariz nümunəsi olduğunu diqqətə çatdırmışdır.

Xatırladaq ki, "Rabitə" mundialın final oyununadək Tailandın "Çanq", Braziliyanın "Osasco" və Dominikanın "Mirador" komandalarına qalib gəlmişdi.

Qeyd edək ki, Azərbaycan voleybolçu qadınların klublararası dünya çempionatında qızıl medal qazanan dördüncü ölkədir. "Rabitə" isə indiyədək keçirilən analoji yarışda çempion adını qazanan beşinci komandadır və bu qələbəyə görə görə 200 000 ABŞ dolları almışdır. Çempionat ərzində qızıl medallara - "Sadia" və "Leyte Moça Sorokaba" (hər ikisi Braziliya), İtaliyanın "Ravenna" və Türkiyənin "Fənərbaxça" komandaları sahib olmuşlar.






# MÖHTƏŞƏM QƏLƏBƏSİ











# İNGİLİS DİLİ MÜƏLLİMLƏRİNİN RESPUBLİKA KONFRANSI





Azərbaycan İngilis Dili Müəllimləri Birliyi (AzETA) Dünya müəllimlər gününü, eləcə də, AzETA ilə British Council təşkilati arasında əməkdaşlığın 15, AzETA ilə Xəzər Universiteti arasında əməkdaşlığın 10 illiyini qeyd etmək məqsədilə oktyabrın 8-də Xəzər Universitetinin Mərmər salonunda konfrans keçirdi. Konfransda Azərbaycanın müxtəlif bölgələrindən, o cümlədən Bakı, Bərdə, Biləsuvar, Cəlilabad, Gəncə, Göygöl, İsmayıllı, Lənkəran, Masallı, Mingəçevir, Neftçala, Qəbələ, Sumqayıt, Şəki, Xaçmaz və Naxçıvan Muxtar Respublikasından 130 nəfər ingilis dili müəllimi iştirak edirdi.

AzETA-nın təsisçisi və icraçı direktoru Rəqsanə Məmmədova konfransı giriş sözü ilə açaraq, British Council və Xəzər Universitetinin təşkilata daimi dəstəyini vurğuladı və təşkilatın keçirdiyi tədbirlərin uğurlu alınmasında bu qurumların rolunun təşkilat tərəfindən çox yüksək qiymətləndirildiyini qeyd etdi.

Konfransda British Council təşkilatının Bakı ofisinin direktoru Pol Kelementson, Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, Təhsil Nazirliyi Xarici əlaqələr şöbəsinin baş məsləhətçisi Aqil Vəliyev, Şimali Kipr Türk Cümhuriyyəti Orta Akdeniz Universitetinin dosenti Cavanşir Şibliyev çıxış edərək, ingilis dilinin və bu dili tədris edən müəllimlərin peşəkarlığının artırılmasında bu cür konfransların əhəmiyyətini vurğuladılar.

Sonra AzETA-nın British Council təşkilatının dəstəyi ilə həyata keçirdiyi layihələrin iştirakçıları bu layihələrin onların peşəkar fəaliyyətində rolundan və öyrəndiklərini gündəlik dərslərinə necə tətbiq etdiklərindən danışdılar.

Konfrans British Council təşkilatının maliyyə dəstəyi ilə həyata keçirildi.

# BAKI BİZNES MƏKTƏBİNİN TƏQDİMATI



**Oktyabrın 13-də Xəzər Universiteti Peşə inkişaf mərkəzi universitetdə Bakı Biznes Məktəbinin təqdimatını təşkil etdi. Məktəbin banklar üzrə koordinatoru Aytən Əliyeva müxtəlif banklarda olan vakansiyalar haqqında məlumat verdi. İştirakçılara ərizə formaları paylandı və ən yaxşı nəticə göstərənlərin işlə təmin olunacağı bildirildi. Məktəblə Xəzər Universiteti arasında gələcəkdə də bir sıra istiqamətlərdə əməkdaşlığın inkişafının zəruriliyi qeyd olundu.**

## HALLİBURTON ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ "XƏZƏR"DƏ



Sentyabrın 27-də Xəzər Universitetinin İnkişaf mərkəzi və Peşə inkişaf mərkəzi universiteti 2009 - 2010-cu illərdə neft mühəndisliyi və menecment ixtisasları üzrə bitirmiş məzunlarla Halliburton (Hulliburton) şirkəti nümayəndələrinin görüşünü təşkil etdilər. Görüşdən əvvəl universitetin Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Siyavuş Azakov, universitetin İnkişaf mərkəzinin direktoru Raziyə İsayeva, Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev şirkətin İşə qəbul üzrə baş mütəxəssisi Amrita Vhabi (Amrita Whabi) ilə bir çox istiqamətlərdə gələcək əməkdaşlıqla bağlı müzakirələr apardılar. İyirmi nəfər məzunun iştirak etdiyi görüşdə onlara şirkət nümayəndələri tərəfindən şirkətin tarixi, işə qəbul prosesi haqqında qısa məlumat verildi. İştirakçılara ərizə formaları paylandı və bildirildi ki, ən yaxşı nəticə göstərənlər işlə təmin olunacaqlar.

## TƏLƏBƏLƏRİMİZ MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNDƏ







Oktyabrın 1-də universitetin müxtəlif fakültələrinin birinci kurs tələbələri tarix müəllimi Xaqan Balayevin müşayiəti ilə AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyində ekskursiyada oldular. Ekskursiya universitetin Tarix və arxeologiya departamenti tərəfindən Azərbaycanın müstəqilliyinin 20 illiyi münasibətilə silsilə tədbirlər çərçivəsində təşkil olunmuşdu. Müstəqil Azərbaycanda doğulub boya-başa çatmış tələbələr doğma vətənin ibtidai icma cəmiyyətinin yaranmasından başlamış müasir dövrədək tarixini əks etdirən eksponatları dərin maraqla seyr etdilər. Zəngin əyani vəsaitlərlə tanışlıq xalqımızın həyat və mübarizə tarixini öyrənən tələbələrdə böyük qürur doğurdu. Onlar muzeyi Müstəqil Azərbaycanın əsl vətənpərvər övladları olmaq hissi ilə tərk etdilər.

## LİTVA UNİVERSİTETİNİN ƏMƏKDAŞLARI "XƏZƏR"DƏ



Xəzər Universiteti Peşə inkişaf mərkəzinin təşkilatçılığı ilə Litvanın Menecment və İqtisadiyyat Universitetinin (University of Management and Economics) Beynəlxalq əlaqələr üzrə baş mütəxəssisi Kornelica Kunigonte və universitetin Tələbə qeydiyyatı şöbəsinin rəhbəri Cavita Starkut oktyabrın 4-də universitetdə oldular. Peşə inkişaf mərkəzinin koordinatoru İsgəndər Ağayev qonaqlara universitet haqqında ətraflı məlumat verdikdən sonra onlar universitetin Beynəlxalq tələbələr və mütəxəssislər şöbəsinin koordinatoru Maya Muxuradze ilə görüşdülər. Görüşdə tələbə mübadilə proqramları, yay və qış məktəblərinin təşkili olunması və bir sıra digər sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparıldı.

*Materialları "Dünya" məktəbinin müəllimi Mədinə Karahan çapa hazırlamışdır*




XIX əsrin ikinci yarısında Azərbaycanın pedaqoji fikir və məktəb tarixinin görkəmli simalarından olan A. O. Çernyayevskinin müdrik bir kəlamı var: "Məktəb yalnız təlimlə kifayətlənməyib, habelə tərbiyə etməlidir. Məktəbdə bütün təlim tərbiyələndirici olmalıdır..."

"Dünya" məktəbi də həmişə bu prinsipə əsaslanaraq, şagirdlərin mənəviyyat və dünyagörüşünün zənginləşməsi üçün vaxtaşırı müxtəlif ekskursiyalar təşkil edir.

2[a] və 3[b] sinif şagirdləri ilə Xalça və Tətbiqi Sənət Muzeyində olduq. Məktəbə qayıtdıqdan sonra uşaqların fikirlərini öyrənmək məqsədilə onlara bəzi suallar verdim. Və aldığım maraqlı cavabları sizin də nəzərinizə çatdırmaq istərdim.

***Müəllim: Uşaqlar, muzeydə xoşunuza gələn nə oldu?***

*Ziya*: Ən çox xoşuma gələn muzeyin maketi oldu. Əgər onu mənə versəydilər, otağımda saxlayardım.

*Munisə*: Xalçanın üstündə olan şəkillər çox xoşuma gəldi. Xüsusən də, dəvə şəkli olan xalça.

***Müəllim: Xalçanın üzərində hansı şəkli çəkərdiniz?***

*Munisə*: Rəngbərəng ürək şəkilləri çəkərdim.

*Yusif*: Orda ən çox xoşuma gələn 300 yaşı olan xalça oldu. Çünki o,çox qədim idi. Mən xalçanın üstündə çoxlu atlı çəkərdim. Arxada isə kral gəlir.

***Müəllim: Hansı rəngdən daha çox istifadə edərdiniz?***

*Yusif*: Göy və ağ.

*Fuad:* Xalçaların üstündə olan bəzək və naxışlar çox xoşuma gəldi. Əgər mən xalçaya naxış vura bilsəydim, tünd qəhvəyi rəngli dairələr çəkərdim. Məncə, bu çox maraqlı görünər.

*Qəmbər:* Üstündə ömür karvanı olan xalça mənim üçün çox maraqlı idi.

***Müəllim: Qəmbər, ömür karvanı nə deməkdir?***

*Qəmbər:* Yəni insan doğulur və ölür. Müəllimə, əgər mən xalçalar üzərinə şəkil çəksəydim, əkiz at çəkərdim. Çünki mən əkizlər bürcündə və at ilində doğulmuşam. Qoy hamı bilsin ki, bu şəkli Qəmbər çəkib. Mən çox istəyirəm ki, oraya yenə gedim.

***Müəllim: Niyə?***

*Qəmbər:* Çünki, məlumat çox idi, hamısı yadımda qalmadı.

***Uşaqların bu maraqlı cavablarını eşitdikdən sonra tam əmin oldum ki, bu ekskursiyalar onların mənəviyyatının zənginləşməsində böyük rol oynayır.***

**Şəhla Nəbiyeva,**
*"Dünya" məktəbinin müəllimi*





# "Bəli, yenə sizinləyəm"



*İnci Yusifli 2010-2011-ci tədris ilinin məzunlarından biridir. Sakit və həlim xasiyyətli qızdır. İnci "Dünya" məktəbini bitirdikdən sonra Xəzər Universitetinə (biznesin idarə edilməsi ixtisası) qəbul olunub. Yəni...*

***- İnci, nə yaxşı, yenə bizimləsən demək...***

- Bəli, müəllimə. Yenə sizinləyəm, Xəzər Universitetindəyəm. Burada təhsil almaq qərarına gəldiyim üçün çox şadam.

***- Artıq məktəb həyatını geridə qoydun. Müstəqil gənc qızsan. Sənin fikrincə, gənc insan necə olmalıdır?***

- Düzü, hələ bilmirəm. Yəni, dediyiniz gənclik həyatını hələ yaşamıram. Bəlkə də tezdir, ona görə... Düşünürəm ki, tələbə olmaq elə gənc insan deməkdir. Amma şagird həyatı üçün də çox darıxıram. Məktəbi bitirməzdən əvvəl mənə deyirdilər ki, insan həmişə məktəb həyatını arzulayır. Düzü, bu sözə çox da inanmırdım. İndi isə... Məktəbimizin direktoru Mərufə xanım XI sinifdə bizimlə tez-tez söhbətlər keçirərdi. Bizə hansı tövsiyələri veribsə, inanın, hamısı ilə qarşılaşıram.

***- "Dünya" məktəbinin məzunu olmaq fərqli bir hissdirmi?***

- Cəmiyyətə atıldığım ilk gündən məktəbin mənə verdiyi fərqli düşüncə tərzini hiss etdim. Hər dəfə də bu məktəbdən məzun olduğum üçün sevinirəm. Yadımdadı, təhsil aldığım universitetin ingilis dili müəllimi bizimlə tanış olanda hər kəsin bitirdiyi məktəblə maraqlandı. Mən "Dünya" məktəbinin məzunu olduğumu bildirəndə, "fərqi hiss etdim" - söylədi.

***- Həyatda məqsədin...***

- Bir amalım var. Təhsilimi uğurla başa vurub, bacardığım qədər çox bilik sahibi olmaq! Həm özümə, həm də cəmiyyətə faydalı insan olmaq istəyirəm.

***İnciyə uğurlar arzulayaraq ondan ayrıldım.***

**Şəhla Nəbiyeva,**
*"Dünya" məktəbinin müəllimi*


DÜNYA MƏKTƏBİ
Xəzər Universiteti "Dünya məktəbi"
2011-2012 – ci tədris ili üçün şagird qəbulu elan edir!
Sizin dünyaya açılan pəncərəniz!!!
Beynəlxalq statuslu "Dünya Məktəbi"nin şagirdi ol
və bizimlə dünyanı kəşf et!
AZ 1122, Bakı şəhəri, Alatava küç, 2
Telefon: + (994 12) 431 57 81, 431 26 38
Faks: + (99412) 431 57 81



# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.

Xəzər Universiteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və diplomları Avropa və Amerikanın aparıcı universitetləri tərəfindən tanınır.

Xəzər Universiteti dünyada universitetlərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəllərində (**Webometrics, "QS"**) Azərbaycan universitetləri arasında həmişə birincilərdən olmuşdur. Bu sahədə ən nüfuzlu təşkilatlardan olan **"QS"** təşkilatının son 2011-ci il reytinq cədvəlində isə Xəzər Universiteti dünyanın ən yaxşı 700 (yeddi yüz) ali məktəbi sırasında yer almışdır. Bu, dünya reytinq cədvəllərində Azərbaycan ali məktəbləri arasında indiyə qədər əldə edilmiş ən yüksək nailiyyətdir.

***

*Xəzər Universiteti beynəlxalq əlaqələrin qurulması, beynəlxalq layihə və proqramlarda iştirak, dünyanın aparıcı universitetləri ilə müəllim və tələbə mübadiləsi və digər sahələrdə təsirli tədbirlər görməklə kadr hazırlığı sahəsində əsaslı nailiyyətlər əldə etmiş, böyük nüfuz qazanmışdır. Xəzər Universiteti bu gün həm Azərbaycanda, həm də Azərbaycandan kənarda özünəməxsus yeri olan, özünün xüsusi çəkisi olan bir ali təhsil müəssisəsidir.*

**Prof. Misir Mərdanov**
**Azərbaycan Respublikasının Təhsil Naziri**

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 11 ünvanda (Neftçilər metrosunun yaxınlığında) yerləşən 5 mərtəbəli tədris korpusunda, eləcə də ən müasir avadanlıqlarla təchiz edilmiş 7 mərtəbəli yeni tədris korpusunda, şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda 4 mərtəbəli və Alatava 2 (Tbilisi prospekti, Mebel fabrikinin yanı) ünvanda 6 mərtəbəli yeni tədris korpuslarında geniş auditoriyalar, zəngin kitabxana, ən müasir kompüter mərkəzləri və s. ilə birgə yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**

**Universitədə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:**

**I qrup üzrə:**

·Kompüter elmləri
·Neft-qaz mühəndisliyi
·Kompüter mühəndisliyi
·İnşaat mühəndisliyi
·Riyaziyyat və informatika müəllimliyi
·Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi

**II qrup üzrə:**

·Mühasibat uçotu və audit
·Maliyyə
·İqtisadiyyat
·Menecment
·Marketinq
·Biznesin idarə edilməsi
·Tarix və coğrafiya müəllimliyi
·Regionşünaslıq (regionlar üzrə)

**III qrup üzrə:**

·Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
·Xarici dil (ingilis dili) müəllimliyi
·İbtidai sinif müəllimliyi
·Filologiya (İngilis dili və ədəbiyyatı)
·Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
·Tərcümə (ingilis dili)
·Jurnalistika
·Politologiya
·Beynəlxalq münasibətlər

**IV qrup üzrə:**

·Kimya və biologiya müəllimliyi
·Psixologiya

Ünvan: Məhsəti küçəsi, 11.
(Neftçilər metrosunun yaxınlığında)
Əlaqə telefonları: (012) 417-91-33, 012 421-68-11,
(012) 421-79-16
Faks: 012 498-93-79
İnternet: http://www.khazar.org